# əl-Kəhf Surəsi və Müasir Zaman

İmran N. Hüseyn

Camiə Məscidi, San Fernando
Trinidad və Tobaqo

Quranın əl-Kəhf Surəsinin təhlili öyrənilməsi Avro-Yəhudi dövləti İsrailin xeyrinə mənfur qlobal təşviqat apararaq İslam qarşı ədlətsiz müharibə elan edən və müsəlmanlara zülm edən Avropa Yəhudi-Xristian ittifaqının gizli reallığını açıqlamağa çalışır.

*www.imranhosein .org*

*(Xızır) belə cavab verdi: "Sən mənimlə bir yerdə olsan (görəcəyim işlərə) əsla dözə bilməzsən. (Sənin onlara səbrin çatmaz, çünki mən batini elmlə iş görürəm. Sənin bildiyin isə ancaq zahiri elmdir. Sən peyğəmbər olduğun üçün mən zahirən qadağan olunmuş bir iş gördükdə ona etiraz edib əleyhimə çıxacaqsan). Axı sən bilmədiyin (batininə, mahiyyətinə bələd olmadığın) bir şeyə necə dözə bilərsən?"*

*(əl-Kəhf surəsi, 18:67-68)*

Dəccal kimi tək gözlə (bir cüt göz nəzərdə tutulur) görənlər Xızır kimi iki gözlə, yəni həm daxili həm də zahiri gözlə görə bilən insanlardan öyrənərkən heç vaxt kifayət qədər səbrli ola bilməzlər. Dəccalın insan təfəkkürünə və biliyinə təcavüzü insanları daxilən kor edir ki, nəticədə onlar xarici görünüşə tez aldanan hala gəlir və Dəccalın missiyasının gizli reallığını dərk etmək qabiliyyətnidə olmur. Onlar bəzən Allaha imanı itirirlər və hətta bunun varlığından qəflətdə qalıb dərin azğınlığa düçar olurlar. Demək olar ki, hər zaman onlar tarixin gedişatını anlamaq və ya Yerusəlimin (Qüds) və Müqəddəs Torpaqların Axır zamanda oynadığı rolu dərk etmək qabiliyyətini itirirlər. Quran belə cəmiyyətin vəziyyətini "heyvanlara" bənzər olaraq bəyan edir:

*"Biz cinlərdən və insanlardan bir çoxunu Cəhənnəm üçün yaratdıq. Onların* ***qəlbləri*** *vardır, lakin onunla (Allahın birliyini sübut edən dəlilləri, özlərinin dini borc və vəzifələrini)* ***anlamazlar****. Onların* ***gözləri*** *vardır, lakin onunla (Allahın möcüzələrini)* ***görməzlər****. Onların* ***qulaqları*** *vardır, lakin onunla (öyüd-nəsihət)* ***eşitməzlər****. Onlar* ***heyvan*** *kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər.* ***Qafil olanlar da məhz onlardır!****"*

*(əl-Əraf surəsi, 7:179)*

Əbu Dərda rəvayət etmişdir ki, Allahın Rasulu (sav)[1] dedi: "Hər kim əl-Kəhf Surəsinin ilk on ayəsini əzbərləyərsə, o Dəccalın fitnəsindən qorunmuş olacaq."

(Səhih Müslim)

"Kim aranızda uzun yaşayıb onu (Dəccalı) görə bilsə, əl-Kəhf Surəsinin başlanğıc ayələrini onun üzərinə oxusun."

(Səhih Müslim)

"Kim əl-Kəhf Surəsinin başlanğıc üç ayəsini əzbərdən oxuyarsa Dəccal sınağından qorunmuş olar."

(Sünən Tirmizi)

"Əbu Səid əl-Xudri rəvayət edir ki, Peyğəmbər (sav) demişdir: "Kim əl-Kəhf Surəsini Cümə günü oxuyarsa, o Cümədən növbəti Cüməyə qədər nurdan (Surənin nurundan) aydınlıq qazanacaq."

(Nəsai, Bayhaqi, Hakim)

[1] Salləlləhu aleyhi ve səlləm – ona Allahın Salamı və Salavatı olsun

MÜNDƏRİCAT

Ön söz....................................................................................................4

Fəsil 1. Giriş..............................................................................................5

Fəsil 2. Quran və Zaman..........................................................................9

Fəsil 3. Surə və Sünnə............................................................................32

Fəsil 4. əl-Kəhf surəsinin nazil olmasında tarixi səhnə..........................36

Fəsil 5. Cavanlar və mağara əhvalatı.......................................................44

Fəsil 6. Varlı və kasıb adamın əhvalatı...................................................58

Fəsil 7. Musa (əs) və Xızırın (əs) əhvalatı...............................................65

Fəsil 8. Zülqərneynin əhvalatı.................................................................77

Fəsil 9. əl-Kəhf Surəsinin başlanğıcı........................................................83

Fəsil 10. əl-Kəhf Surəsinin sonu.............................................................92

# ÖN SÖZ

Bütün şükür təriflər Allahadır, Onun Mərhəməti ilə əl-Kəhf Surəsi və Müasir Zaman kitabı ərsəyə gəlmişdir. Bu kitabın dünyanın müxtəlif yerlərində yaşayan müsəlmanlara çatması üçün Allahdan bu təvazökar işə görə xeyir xeyir diləyirəm. Diləyirəm ki, bu onlara Qurana yaxınlaşmağa daha da yardım etsin, eləcə də bu Surəyə, xüsusilə hər Cümə günü ki, bu Surə Dəccalın fitnəsindən qorunmaq üçün oxunur. Diləyirəm ki, bu kitab Surənin mənası ilə bağlı onların yaddaşını möhkəmləndirsin və daha vacibi, davamlı olaraq onların Surəni qavrayışlarını dərinləşdirsin. *Amin !*

İslama qarşı müharibə davam etdiyi və saxtakar Avro-Yəhudi dövləti İsrailin dünyada hegemon dövlət olmağa cəhd etdiyi və nəticədə Dəccalın dünyanı Yerusəlimdən idarə edəcəyi və özünü həqiqi Məsih olaraq bəyan edəcəyi zaman yaxınlaşdığı üçün mən qorxuram ki, Quran üzərinə yazılmış kitabları qadağan edəcək insanların sayı artacaq. Bu səbəbdən mən itaətkarlıqla dua edirəm, eləcə də öz oxucularımdan da xeyirxahlıqla duaya qatılmaqlarını xahiş edirəm ki, Allah, müasir ateist dövrdə İslama və Müsəlmanlara qarşı ədalətsiz müharibə aparan qüvvələri Qurandan yararlanılaraq ifşa edən kitabları (məsələn əl-Kəhf Surəsi barədə yazılmış bu mütəvazi kvartet kimi) qorusun. *Amin !*

Sirli Avro-dünya-nizamı Yəhudi-Xristian ittifaqı ilə birgə Avro-Yəhudi dövləti İsrailin lehinə İslama qarşı müharibə aparır. Əgər bu kitabın ümumiyyətlə bir dəyəri varsa, olabilsin bu onun başlanğıc iş olmaq rolu üzərinə yüklənə bilər, hansı ki, bu yazıçıdan daha qabiliyyətli yazarları Quranın bu Surəsindən istifadə edərək o sirli dünyanı  aydınlaşdıran daha müfəssəl təşəbbüsə təlqin edə bilər.

Bu kvartetin birinci cildi, “Mətn tərcüməsi və əl-Kəhf Surəsinin müsair şərhi” (“Text Translation nad Modern Comentary of Surah al-Kahf”), bu mövzu üzərindəki əsas işlə (Surah al-Kahf and the Modern Age) eyni zamanda ərsəyə gəldi və bu əsas işə tamamlayıcı cild olaraq niyyət dildi. Dua edirəm ki, bu mövzuda əlavə cildləri də İnşallah yazma bilim və məqsədim dəhşətli dərəcədə mühüm olan yalançı Məsih, yəni Dəccal və ya AntiXrist və Yəcuc və Məcuc (Gog and Magog) ilə bağlı olan hədisləri və Quran ayələrinin daha müfəssəl müasri şərhini yazmaqdır.

Kəhf surəsi üstündə yazılmış bu iki kitab xeyirxahlıqla Rəbiə Əbubəkr Hüseyn Cəxura və Əbubəkr Hüseyn Cəxura (Malavi), Əbdül Məcid Sultan və Fatimə Abdullah (Malaziya) və Həccac Hənifə Bte Ömər Xan Suratti və Həccac Məryəm Bte Fəqir Muhəmməd (Sinqapur) tərəfindən maliyyələşdirilmişdir.

Mərhəmətli Allah onlardan razı olsun. *Amin !*

İmran N. Hüseyn
Kuala Lumpur, Malaziya
İyun 2007

# FƏSİL 1

# GİRİŞ

Bu kitab müasir dövrdə dünya reallığını açıqlamaq niyyəti ilə Quranın əl-Kəhf Surəsini təhlil və şərh edir. Bu kitab, Qurana tək olan Allahın vəhy olunmuş sözü kimi artıq iman gətirmiş şəxslərin yararlanması üçün yazılmışdır. Qurana inanmayanlar və ya onun ilahi vəhy olmasını inkar edənlər Müqəddəs Kitabın bir ayəsinə belə bənzər ayə gətirmək kimi 1400 illik çağırışa cavab verməklə iddialarını sübut eləməyə dəvət olunurlar.

Bu səbəbdən biz Quranda onun əsas vəzifəsinin hər şeyi izah etmək olduğu bəyanına diqqəti cəlbetməklə başlaya bilərik:

*"... . Biz Kitabı (Quranı) sənə hər şeyi izah etmək üçün, müsəlmanlara da bir hidayət, mərhəmət və müjdə olaraq nazil etdik!"*

*(ən-Nəhl surəsi, 16:89)*

Müsəlmanlar bəzən unudurlar ki, Quranda göstərilən doğru yol və izahat olmadan yaşadığımız çağdaş dövrün reallığını heç kəs dərk eləyə bilməz. Bu, qloballaşmaya, beynəlxalq siyasətə, dünya iqtisadiyyatına, beynəlxalq pul münasibətlərinə, Avro-Yəhudi və Avro-Xristian dünya nizamına aid olan və ya onu dəstəkləyənlərin artan inkişafına və Avro-Yəhudi və Avro-Xristian idarəsinə qarşı çıxanların artan yoxsullaşmasına da aiddir. Bu, müasir feminist inqilab üçün də gerçəkdir. Son olaraq bu, Yəhudilərin Müqəddəs torpağa qayıdıb onu yenidən özününki ela etməsi, İsrail dövlətinin yenidən qurulması (Müqəddəs Torpaqlarda, Allahın onların dövlətinin dağılmasını əmr etdikdən təxminən 2000 il sonra) və İsrailin yaxın zamanlarda gözlənilən dünyada hegemon dövlət olma iddiası ilə bağlı olaraq da həqiqətdir.

Dünyanın bugünkü reallığını hələ də yaxalaya bilməyən kəs heç vaxt arxayın ola bilməz ki, o, doğru yoldadır və nəticədə başqaları üçün də yaxşı nümunə ola bilməzlər. Bu gün müsəlmanları belə çıxılmaz vəziyyətdədirlər ki, onların rəhbərlərinin əksəriyyəti reallığı qavramırlar və deməli özləri dərin azğınlığa uğramışlar. Digər tərəfdən Uca Allahın həqiqi qulları, hansılar ki, rellığı qavraya bilən biliyə sahibdirlər, ya biliklərini öyrətməkdən yasaq edilirlər, ya da olara qarşı pis təbliğat aparılmaqda, diqqətdən kənarlaşdırılmaqda və o dərəcədə təqib edilməkdədirlər ki, onlar rəhbər olaraq fəaliyyət göstərə bilməməkdədirlər. Bu səbəbdən də onların təlimləri demək olar ki, Müsəlman kütlələrinə çatmır. Günümüzün sirli dünyasını izah etmək məqsədiylə mübarək Quranı və Muhəmməd Peyğəmbərdən (sav) gələn hədisləri indi ruhani açıqgözlülüklə şərh etməyə çalışan alim digər ciddi problemlə üz-üzə qalmışdır. Onun daxilən kor olan həmkarları ondan çəkinirlər və onun alimliyinin cidiliyi və düzlüyü sual altına qoyulur.

Bu kitab dünyamızın bugünkü rallığını dərk edən insanları təsdiqləyir, o insanlar ki, sadəcə Quranın, xüsusilə də Kəhf surəsinin, madam ki, o müasir dövrü izah edir, izahatını və təlimatını öyrənmək və qavramaqla kifayətlənməyib, eləcə də qəbul edirlər ki, dövrün qorxunc sınaqlarından qorumnaq üçün bu Surə hər Cümə oxunmalıdır.

Bu kitab irəli sürür ki, bugünün ənənəvi yüksək İslam tədris institutlarında verilən dini bilik Quranda günümüz dünyasının reallığının izahını dərk etməyə kifayət etmir. Ənənəvi dini biliklərlə çatdırılan həqiqətə əlavə olaraq, İslam alimləri "strateji biliyə" keçməyə ehtiyac duyurlar. Belə bilik Quranın "bəsirət (əl-bəsirah)" (daxili intuitiv ruhani qavrayış) adlandırdığı vasitəylə və müasir, əsasən ateist qərb sivilizasiyasından gələn çağdaş təfəkürün öyrənilməsinə tənqidi yanaşmanın qəbul edilməsi ilə ötürülür. Ona görə ki, İslama və dini həyat tərzinə qarşı ən yüksək çağırış o sivilizasiyadan gəlmişdir.

Biz iddia edirik ki, alimlər ruhani idraka (xarici ünsürlərdən törəyən biliyə əlavə olaraq) sahib olmadıqca, onlar Allahın "nuru" ilə görmədikcə dünya adətən onları aldadacaq. Ona görə ki, məhz qərb sivilizasiyasının təbiətində "xarici görünüş" ilə "həqiqət" adətən bir-birindən fərqlidirlər. Məsələn, cəhənnəmə aparan yol aldadıcı bir şəkildə cənnətə aparan yol olaraq göstərilir (yəni sənayeləşmə, müasirləşmə, proqres və çiçəklənmə) və ya tərsinə, eyni ilə Muhəmməd Peyğəmbər (sav) tərəfindən öncədən xəbər verildiyi kimi.

Bütün İslam tarixi boyu digərlərindən daha çox həqiqi Sufi Şeyxləri ruhani qavrayışa (idraka) aparan yolu izləmişlər və həmiçinin hadisələrin daxili həqiqətini dərk etməyə daha çox müvəffəq olmuşlar. İndi də biz elə bir dövrdə yaşayırıq ki, mənim əməkdar müəllimim mərhum Mövlana Dr.Muhəmməd Fəzlur Rahmən Ənsari (1914-1974) və onun əməkdar görkəmli müəllimi mərhum Mövlanə Muhəmməd Əbd əl-Alim Siddiqi (1892-1954) kimi həqiqi Sufi Şeyxləri təcavüzkar və sürəkli hucumların hədəfidirlər.

Bu kitab həmçinin xatırladır ki, insanlar arasında eləlləri də vardır ki, onların qəlbləri Uca Allah tərəfindən elə möhürlənmişdir ki, onlar Quranı heç vaxt anlaya bilməzlər:

*"Rəbbinin ayələri özünə xatırlandırılarkən onlardan üz döndərən, etdiyi günahları unudan adamdan daha zalım kim ola bilər?! Onu (Quranı) anlamasınlar deyə, Biz onların qəlblərinə pərdə çəkib, qulaqlarına ağırlıq verdik. Sən onları doğru yola dəvət etsən belə, onlar əsla haqq yola gəlməzlər."*

*(əl-Kəhf surəsi, 18:57)*

## Yaşadığımız dövrün həqiqətinin Quranla açıqlamsı nədir?

Kəhf surəsinin təhlili zamanı biz nəticəyə gəldik ki, dünya indi Axır Zamanda (yəni əl-Qiyamət dövründə yaşayır) yaşayır və müasir dövrün əsas oyunçuları yalançı Məsih – Dəccal və ya Anti-Xrist və Yəcuc və Məcucdur. Bu çox mühüm əhəmiyyətə malik bir nəticədir, belə ki, bu aldadıcı, ateist, zalım və misilsiz təhlükə və qorxularla dolu bir dövrdə yaşadığımız təsdiq edir.

Bizim fikrimizcə – ən doğrusunu Allah bilir – "Axır Zaman" Allah bütün inananlar üçün Qiblənin istiqamətini Yerusəlimdən Məkkəyə dəyişdiyi zaman başlayıb. Yerusəlimdə Qiblə Süleyman Peyğəmbərin (as) tikdirdiyi və içində müqəddəs daş olan müqəddəs ibadətgah (Məscid əl-Əqsa) idi. Məkkədəki Qiblə isə İbrahim Peyğəmbərin (sav) tikdirdiyi müqəddəs ibadətgah idi (Məscid əl-Həram və ya Kəbə) və onun da içində müqəddəs daş var idi. Qiblənin bu dəyişdirilməsi Muhəmməd Peyğəmbərin (sav) Məkkədən Mədinəyə Hicrətindən təxminən on yeddi ay sonra baş verdi.

Qiblənin dəyişdirilməsinin birbaşa nəticəsi olaraq dünya İbrahimin (sav) dini çərçivəsində Muhəmməd peyğəmbərin (sav) öndərliyi ilə yeni bir cəmiyyətin (yəni Ümmətin) doğuluşuna şahid oldu. Bu, Müsəlman Ümməti İbrahimin (sav) həqiqi dininin yeni seçilmiş cəmiyyəti olaraq İsrail qövmünü əvəz etdi. Yəhudilərin Muhəmməd Peyğəmbəri (sav) Tək Allahın həqiqi peyğəmbəri kimi inkar etməsinin nəticəsi olaraq dindar İsrail qövmü (Bənu İsrail) qalan bütün doğruluğunu itirdi.

Yəhudilər Muhəmməd Peyğəmbəri (sav) ərəblərə göndərilən bir Peyğəmbər olaraq qəbul etməyə hazır idilər. Amma onlar Ərəb Peyğəmbərinin Allahın seçilmiş qövmünə (Yəhudilərə) göndərilə biləcəyi iddiasını inadla iknar etdilər.

Bu, yəhudilərin Muhəmməd Peyğəmbəri və ona vəhy olunan Quranı inkar etmələrinin birbaşa nəticəsi idi ki, Uca Allah Dəccalı (yalançı Məsih vəya Anti-Xristi), eləcə də Yəcuc və Məcucu o zaman dünyaya buraxdı. Beləliklə Axır Zaman uyğun olaraq Son Peyğəmbər Muhəmmədin (sav) dövründə başladı və onun iki barmağını yan-yana tutaraq etdiyi məşhur bildirişin şərhi də budur:

*Səhl ibn Səd rəvayət etdi: "Mən Allahın Rasulunun işarə və orta barmağını yanaşı tutaraq, "Mənim gəlişim və Axır Zaman bu iki barmaq kimidirlər. Böyük fəlakət hər şeyi bürüyəcək. Mən və Axır Zaman bu iki (barmaq) kimidirlər." dediyini gördüm."*

*(Səhih Buxari)*

Heç kəs Dəccal və Yəcuc və Məcuc mövzularının mənasını dərk etmədən Axır Zaman problemlərini izah edə bilməz. Bu kiatab göstərir ki, əl-Kəhf Surəsi o mövzuları anlamaq üçün açar rolunu oynayır. Çünki bu Surə uğursuzca açılmaqda olan qəribə müasir dövrü izah edir.

Kəhf surəsinin tədqiqat yekunu olaraq gəldiyimiz növbəti nəticə isə odur ki, İslamda imanın saxlanması inananların müsair zamanın ateist şəhərlərindən əlaqəni kəsmək üçün tədbirlər görmədən və ucqar bir kənddə İslamı qurmaq üçün səy göstərmədən mümkün deyil. Bu Türkiyəli böyük İslam alim Bədiuzzaman Səid Nursinin fikri idi. Çin kommunist lideri Mao Tse Tunqun da inqilabi mübarizəsinin metodolgiyası ilə bağlı olaraq bənzər bir nöqeti-nəzəri var idi. Bizə gəlincə, biz ucqar yerləşmiş bir Müsəlman kəndlərində mikro səviyyədə İslamı qurmaq strategiyasını təklif edirik, harda ki, müsəlman qadın və uşaqları dünyanı bürüyən zülmdən, ateizmdən, düşkünlükdən və anarxiyadan qorunmuş olacaqlar.

Müasir zamanın şüur və idrak təkamül etmiş İslam alimləri tamamilə əks mövqeni müdafiə edirlər. Onlar iddia edirlər ki, Müsəlmanların müasir dünyanın funksional tərəfi olaraq qalmaq vəzifələri var və insanları doğru yola yönləndirməkdə öz vəzifələrini yerinə yetirmək üçün müasir dövrün böyük şəhərlərində yaşayış yerini qurmaqda onları izləməlidirlər.

**Kəhf Surəsi, Yəhudilər və Axır Zaman**

Kəhf Surəsinin yəhudilər və Axır Zamanla xüsusi əlaqəsi vardır. Hər bir yəhudi və xristian bu əlaqəni anlamaqda maraqlı olmalıdır.

Mədinədəki xaxam (yəhudi din adamı) Muhəmmədi (sav) sınamaq üçün üç sual qoydu. Əgər o, suallara doğru cavab verə bilsəydi, onun həqiqi peyğəmbər olmağı təsdiqlənəcəkdi. Bu

kitab hadisənin, üç sualın və onların cavablarının təfərrüatlı açıqlamasını təqdim edir. Kitab həmçinin o cavabların təhlilinə də cəhd göstərir.

Sualları və eləcə də quranda verilən cavabları diqqətlə tədqiqimiz aşkar edir ki, suallar özlüyündə Mühəmməd Peyğəmbərin (sav) sınağa çəkilməsi bağlı məsələləri birbaşa hədəf almamışdı. Daha doğrusu əsas məsələ verilən sualların arxasında gizlənmişdi.

Suallar Muhəmməd məharətlə Peyğəmbərin (sav) əsas Axır Zaman əlamətləri olan Dəccal və Yəcuc və Məcuc haqqında bilib bilmədiyini müəyyən edən başlıca məqsədlə qoyulmuşdu.

Kəhf Surəsi birinci suala cavabla başladı, hansında kı, Dəccal söylənməmiş hədəf olaraq qaldı. Kitabın əsas hədəfi inananların Dəccal haqqında anlayışlarını dərinləşdirməyə yardım edəcək və özlərini və ailələrini Dəccalın fitnəsindən qoruya bilmək üçün bacarıqlarını artıracaq istiqaməti ortaya çıxarmaq məqsədilə əl-Kəhf Surəsini təhlil etməkdir.

Surə ikinci suala cavab verəndə Yəcuc və Məcuc mövzusunu təqdim etdi.

Kəhf Surəsi bəzən rəvayət və bəzən də ibrətamiz hekayə şəklində təqdim olunan dörd əhvalatdan ibarətdir. Cavan oğlanlar və mağara haqqında olan birinci əhvalat Dəccal və Yəcuc və Məcucla bağlı anlayışımızı dərinləşdirir. Varlı adam və kasıb adam haqqında olan ikinci əhvalat isə əsasən Dəccala işarə edir. Musa (as) və Xızır (as) haqqında olan üçüncü əhvalat – bəlkə də hamısından daha əhəmiyyətlisi – Dəccal haqqında anlayışımızı irəlilədir. Nəhayət böyük səyyah haqqındakı dördüncü və sonuncu əhvalat Yəcuc və Məcuc mövzusunu izah edir. Bu kitab əl-Kəhf Surəsinin bu dörd rəvayətini və ibrətamiz hekayəsini açıqlayır.

Bu gözəl rəvayətlərə və ibrətamiz hekayələrə dönmədən əvvəl Quranda zaman anlayışını nəzərdən keçirməliyik. O mövzunu başa düşmədən biz, nə Qurandakı və Hədislərdəki Axır Zamana aid olan dini simvolizmi dərk edə bilərik, nə də Axır Zamandakı əsas oyunçuları, yəni yalançı Məsih (Dəccal) və Yəcuc və Məcucu başa düşə bilərik. Bu səbəblədir ki, kitab son dərəcə qeyri-adi olan "Quran və Zaman" mövzusu ilə başlayır.

Mən 1964-1971-ci illərdə Pakistanda, Qaraçı şəhərində, Alimiyə İslam Tədqiqatlar İnstitutunda Mövlanə Dr.Ənsarinin tələbəsi olarkən onun İslamda "çox ölçülü zaman" mövzusunu tədris etməyə o qədər diqqət və səy yönəltməyinin səbəbini heç vaxt anlaya bilmədim. Yalnız indi, zaman və Axır Zaman arasında möhtəşəm əlaqəni kəşf etdikdən sonra, nəhayət o müəllimin dərin zəkasını dərk etmişəm, hansı ki, bununla o hələ o vaxt bizə bu çətin mövzunu xəbər vermək istəyirdi.

İndi artıq yüksək İslam institutlarında bu mövzu artıq tədris edilməməkdədir. Bunun səbəblərindən biri ola bilsin bugün İslamın ruhani ürəyinə, yəni Təsəvvüf və ya İhsana, qarşı elan olunmuş müharibədir. Bundan əlavə bir çox Sufilər özləri də biliyin mənbəyi olaraq daxili intuitiv ruhani idrakın həqiqiliyini qəbul edən Sufi bilik və idrak tərzini (epistemologiya, qnoseologoya və ya idrak nəzəriyyəsini) tərk etmişlər. Biz bu çaşdırıcı hadisənin bəzi dəlillərini "İqbal, Sufi idrak nəzəriyyəsi tərzi və tarixin sonu" başlıqlı məqaləmizdə təqdim etmişik. (Bizim "Signs of the Last Day and Modern Age" adlı məqalələr kitabımızda çap olunmuşdur).

# FƏSİL 2

## QURAN və ZAMAN

Quranən əl-Kəhf surəsində ilahi olaraq bildirildiyi və onun bu məqalədə şərh edildiyi kimi, zamanın əsil mahiyyəti budur ki, o mürəkkəb və çox ölçülüdür. Dövrlərdən keçdikçə zamanın çox ölçülü hərəkəti başlayır. Yalnız iman sahibləri və doğru yolla gedənlər onlara zamanın reallığını dərk etməyə imkan verən Nurla lütf edilmişlər. Quranın zamanın bir vaxtı ilə adlandırılmış məşhur əl-Əsr (axşam çağı) Surəsində Uca Allah xəbərdar edir ki, iman sahiblərindən başqa hamı bu məsələdə çaşqınlıq içində olacaqlar. Onlar zaman məsələsinin dərinliyini anlamaq və beləliklə zaman çayı– hansı ki, bu Haqqın yalan üzərindəki son zəfərinə şahid olacaq təyin olunmuş yerə doğru haxır – ilə rahatca üzmək qabiliyyətindən məhrum olduqlarından dolayı zərər içində olacaqlar.

*“And olsun axşam çağına ki, İnsan (ömrünü bihudə işlərə sərf etməklə, dünyanı axirətdən üstün tutmaqla) ziyan içindədir? Yalnız iman gətirib yaxşı əməllər edən, bir-birinə haqqı tövsiyə edən və səbri tövsiyə edən kimsələrdən başqa!”*

*(əl-Əsr surəsi, 103:1-3)*

Kəhf surəsindəki gənclər elə düşünürdülər ki, onların mağarada 300 illik qalışı sadəcə bir gün və ya gün yarım çəkdi, çünkü hər bir ruhi sınaq və əbədiyyətlə təmas bizi zamanın (yəni indiki zamanın və ya anın) izini itirəcəyimiz bir aləmə aparır. Kim bizi indiki zaman zindanının əsiri edən maneələri aşa bilərsə, zamansızlığı hiss edə bilər. Ancaq Uca Allaha əsil məhəbbət və haqq dinə səmimi bağlılıq zaman səddini sındıra aşa bilər.

Bu yazı iddia edir ki, heç kəs ilk olaraq şüurunu indiki zaman zindanından azad etmədən və müxtəlif zaman aləmlərini dərk etmədən bugün qəribə dünyanın əsas ilhamı olan Dəccalı anlaya bilməz.

Uca Allaha iman gətirmiş insanlardan başqa hamı yalnız bir ölçülü zaman şüurunda məhkum olaraq qalırlar. İmandan məhrum almış olanlar Qiyamət Günü yenidən dirildildikləri zaman onların gözünün önündən pərdələr elə qaldırılacaq ki, o vaxta qədər mümkün olmayan iti gözlə görəcəklər. Görmənin bu yeni itiliyi öz növbəsində onlara zamanın reallığından bəzi şeyləri aşkar edəcək.

Quran bir gün real dünyanı görmək üçün zaman zindanından məcbur çıxarılacaq insanları təsvir etmişdir. Onların bu dünyada bəlkə uzun illər yaşamış olsalar belə, yeni bir aləmdə (“qair əl-ard”, yəni yaradılışın indikindən başqa bir nizamı; Quran, İbrahim, 14:48-ə baxın) dirildildikdən sonra onlar özləri zamanın yeni ölçüsünün fərqinə varacaqlar. Onda onlar bəyan edəcəklər ki, əvvəlki həyatlarındakı illərin sayı “bir gün və ya gün yarım” kimi görsənir.

*(Ona belə deyiləcəkdir: ) “Sən (dünyada) bundan (bu müdhiş günə uğrayacağından) qafil idin. Artıq bu gün gözündən pərdəni götürdük. Sən bu gün sərrast görürsən! (Və onda onların iti gözlə gördükləri şeylərin ilki zamanın reallığı olacaq)”*

*(Qaf surəsi, 50:22)*

*(Allah qiyamət günü kafirlərə) belə buyuracaqdır: “Yer üzündə neçə il qaldınız?” Onlar: “Bir gün, bir gündən də az, hər halda, sayanlardan (insanların əməllərini sayan mələklərdən) soruş!” – deyə cavab verəcəklər. Allah buyuracaq: “Əgər (həqiqəti) bilirsinizsə, siz çox az qaldınız!”*

*(əl-Muminun surəsi, 23:112-114)*

*“Qiyamət qopacağı gün (saat) günahkarlar (qəbirlərində və dünyada) bir saatdan artıq qalmadıqlarına and içərlər. Onlar belə döndərilirdilər. Elm və iman sahibləri isə belə deyərlər: “Siz Allahın Kitabında olan qiyamət gününə qədər qaldınız. Bu, qiyamət günüdür, lakin siz bilmirdiniz!”*

*(ər-Rum surəsi, 30:55-56)*

Quranın bu ayələri imanla zaman arasında əlaqə olduğunu açıqlayır, belə ki, imanı olanlar zamanın reallığını dərk edə biləcəklər. O, reallığı dərk etmənin dərinliyi “imanın” ölçüsü olacaq.

### “Protestant” İslam və Zaman Anlayışı

Protestantlıq məxsusi olaraq Avropa fenomenidir. Bu mənəvi özəyindən məhrum qalmış qəribə bir dini anlayışı təmsil edir. Beləliklə bu, biliyi yalnız zahiri müşahidəyə məhdudlaşdıran “tək gözlü” qərb idrak tərzinin mövcudluğuna imkan verdiyi halda, daxilən və və ya ruhən qaynaqlanan biliyin həqiqiliyini şübhə altına qoyaqda və ya inkar etməkdədir. O idrak tərzi İslam düşüncəsinə təsir edəndə İslami mənəvi arayışını tərk etmiş “Protestant” İslamın yaranmasına səbəb oldu. Nəticədə bu, elə qəribə və əcaib bir xilqətə çevrildi ki, zamanla Dəccalın (yalançı Məsih) xeyrinə işləməyə başladı, eyni zamanda İslam Sufilərinə və dini simvolizmin şərhində daxili intuitiv ruhani qavrayışa qarşı mücadiləyə başladı.

Muhəmməd Peyğəmbər (sav) yalançı Məsih (Dəccal və ya Anti-Xrist) mövzusunu bir sıra təfərrüatları ilə açıqlamışdır. Dəccal haqqında söylədiyi şeylərdən biri də budur:

*“.. o yer üzərində (Allah onu yerə buraxdıqdan sonra) qırx gün müddətində qalacaqdır. Bir günü bir il kimi, bir günü bir ay kimi, bir günü bir həftə kimi və bütün günlərini (yəni qalan bütün günləri) isə sizin günləriniz kimi”.*

*(Nəvvəs ibn Səməədən rəvayət olunmuş və Səhih Müslimdə qeyd olunmuşdur)*

Bir sıra İslam alimləri təəssüf ki, müasir Avro-Xristian və Avro-Yəhudi qərb müstəmləkə hegemoniyasının dərin təsirinə məruz qaldıqlarından dolayı İslamın “Protestant” çevirilişini mənimsəyərək əksərən aldanmışlar. Nəticədə onlar yalnız “bir” – “zahiri” gözlə görürlər və istəksizlikdən ya da bacarıqsızlıqdan dolayı zamanla bağlı dinə aid istənilən mətni onun hərfi mənası xaricində şərh edə bilmirlər. Belə alimlər təkid edəcəklər ki, əgər kifayət qədər yaxşı axtarsaq haradasa biz elə bir yer tapa bilərik ki, orada bizim “sutka” kimi bildiyimiz bir “gün” bizim il kimi bildiyimiz bir “il” sürür. Həmçinin, elə bir yer tapa bilərik ki, bir “gün” bir “ay” və başqa birisi bir “həftə” sürə bilər. Sonra isə Uca Allah Dəccalı dünyaya buraxanda, əgər biz axtarışlarımızı o yerlərdə davam elətdirsək, nəhayət biz onun yerini müəyyən edə biləcəyik.

Təəssüf ki, bizim bu şərhə yanaşacağımız ən yaxın məkan altı ay davamlı işığın və altı ay davamlı qaranlığın hökm sürdüyü şimal və cənub qütbləridir. Amma o fenomen bu hədisi izah edə bilmir.

İslamın həqiqi Sufi Şeyxləri min ildən çox bir müddət ərzində dini həyat tərzinin qəlbinə nüfuz etmiş müdriklər olmuşlar və Xızır (as) kimi onlar da "iki", yəni həm daxili, həm də zahiri gözlə görürdülər (İmam Qazzali kimi). İmanın dərinliyinə çatdıları üçün onlar zamanın reallığını dərk edirdilər.

Xızırın (as) yolu ilə gedərək dini simvolizmin şərhində (təvil əl-Əhədis) biz Sufi idrak nəzəriyyəsinin daxili intuitiv ruhani qavrayış tərzini tətbiq etdik. Nəticə etibarı ilə, biz, qütblərdə və ya haradasa yer üzərində bir qədər axtarışdan sonra Dəccalın ümumiyyətlə yerləşdiyi bir yerin tapıla biləcəyi fikrini kənarlaşdırdıq. Daha ziyadə, biz o fikri müdafiə edirik ki, möminin Dəccalı bir insan şəkilində görə və tanıya biləcəyi yeganə yer Müqəddəs Torpaqlardır. Təbii ki, bu onun dünya üzərində hökmranlığının axırında, qalan "günlərinin" bizim "günümüz" kimi olduğu, yəni bizim zaman ölçümüzdə yaşadığı vaxtda olacaq.

Bəlkə də bu Müqəddəs Torpaqlara ehsan edilmiş xüsusi bir ilahi lütfün nəticəsidir ki, müxtəlif zaman ölçülərindən bizim zamana keçidlər dəfələrlə burada baş vermişdir. Bu Muhəmməd Peyğəmbərin (sav) Səməvətə (yəni bizimkindən başqa zaman və məkanın yeddi qatı, hansıları ki, Allah insanlığın faydası üçün yeri və üzərindəkiləri yaratdıqdan sonra düzəldib nizama saldı. əl-Bəqərə, 2:29 ayəsinə baxın).

Ancaq o zaman Dəccal öz missiyasını tamamlanmış və onun yer üzərindəki müəmmalı "qırx" günü bitmək üzrə olacaq. Məhz dünyada Dəccalı tanımağa qabil olmayanlar inananlar üçün rəhbər ola bilməzlər, çünkü onlar özləri aldadılmışlar.

Lakin biz o (yəni protestant) İslam alimlərinin tədqiqatlara davam etmələrinə etiraz etmirik! Onlar həmçinin Dəccalın üzərində gəzəcəyi "eşşəyi" gözləyirlər (Peyğəmbərin hədisinə əsaslanaraq): "O, buludlar kimi sürətlə hərəkət edəcək və geniş bir şəkildə bayıra uzanmış qulaqları olacaq." Həmçinin, "O (Dəccal) okeanın içi ilə üzəcək və su onun dizlərinə kimi çatacaq." Məhz bu hədisdə biz dini simvolizmin fərqinə varmaq və onu şərh etmək üçün Sufi idrak tərzindən istifadə etdik. "Eşşək" simvolu burada müasir aviasiyanı təmsil edir. Həmçinin müasir texnologiya okean dərinliklərinin fəth ediməsinə imkan verir. Beləliklə biz Muhəmməd Peyğəmbərin (sav) Dəccal haqqında söylədiklərini anlaya bilirik.

### İqbal və Əsəd

İslamda zaman anlayışı ilə çox yaxın bağlılığı olan Dəccal və İsa Məsihin qayıdışı mövzusunda yanılqıya uğrayanlar sadəcə Protestant İslamçılar deyil. Belə ki, görkəmli İslam alimləri olan Dr.Muhəmməd İqbal və Muhəmməd Əsəd (Allah hər ikisinə rəhmət eləsin) zaman mövzusunda eynilə fikri olaraq etiraz etmişlər. Əslində İqbal belə yanlış bir nəticəyə gəlmişdi ki, cənnət və cəhənnəm məkan olmaqdan daha çox hal - vəziyyətdirlər:

"Cənnət və Cəhənnəm məkan deyillər, vəziyyətdirlər. Onların Qurandakı təsviri daxili vəziyyətin, yəni xasiyyətin əyani təsviridir. Cəhənnəm, Quranın diliylə "Tanrının alovlandırılmış

ateşidir ki, ürəyi əhatələyir" – birinin insan olaraq müvəffəqiyyətsizliyinin ağrılı dərk etməsidir. Cənnət, dağıdıcı qüvvələr qarşısında qələbənin sevincidir.

(Iqbal, "Reconstruction of Religious Thought in Islam" (İslamda Dini Düşüncənin Yenidən Qurulması), Oxford University Press. London. 1934 s.116)

Əsəd isə, digər tərəfdən, İsanın öldüyünə və buna görə də dönməyəcəyinə elə inanmışdı ki, o, özünün bu dəhşət yanlış inamını Müqəddəs Quranın məşhur tərcüməsi və şərhində ictimai olaraq bəyan etmişdi (onun növbəti ayələrin tərcüməsi və şərhinə baxın: əl-Maidə, 5:117, və Ali İmran, 3:55).

Hər iki misalda, həm İqbal həm də Əsəddə, zamanın həqiqəti ilə bağlı yanlış qavrayış dərin xətaya gətirib çıxarmışdır.

**"Bizim zamanın" fövqündə**

Əslində zaman və məkan hər ikisi çox ölçülüdür. Cənnət və Cəhənnəmin hər ikisi də hal-vəziyyət kimi deyil, bizim yaşadığımız zaman və məkan ölçüsünün xaricində həqiqi məkan olaraq mövcuddurlar. Bu vacib fəsildə biz zamanı elə bir şəkildə izah etməyə çalışacayıq ki, İnşallah skeptikləri bu mövzuda düşüncələrinə yenidən baxmağa təşviq edəcək.

Uca Allah bəyan etmişdir ki, bütün yeri iki günə yaratmışdır və istər göyləri istərsə yeri də altı günə yaratmışdır. Bu bizim tərəfimizdən hərfi mənada başa düşülə bilməz, çünkü belə "günlər" həm göylərin həm də yerin yaranışından sonra meydana gəldi:

*"De: "Doğrudanmı siz yeri iki gündə yaradanı inkar edir və Ona şəriklər qoşursunuz? O ki, aləmlərin Rəbbidir!"*

*(Füssulət surəsi, 41:9)*

*"Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan (ərşə üz tutan), hər işi yerinə qoyan Allahdır. Onun izni olmadan heç bir şəfaət edən ola bilməz. Bu, Rəbbiniz olan Allahdır. Ona ibadət edin. Məgər öyüd-nəsihət qəbul etməyəcəksiniz?"*

*(Yunus surəsi, 10:3)*

"Zamanın" bizim hərfi mənada anladığımızdan daha böyük olduğu Peyğəmbərimizin (sav) aşağıdakı ifadəsindən də aydındır:

*"Əbu Zər rəvayət etmişdir: Mən soruşdum, "Ey Allahın Peyğəmbəri! Yer üzərində ilk olaraq hansı məscid tikilmişdir?" O cavab verdi, "əl-Məscid əl-Həram (Məkkədə)." Mən (sonra) soruşdum, "daha sonra hansı tikilmişdir?" O cavab verdi, "əl-Məscid əl-Əqsa (Yerusəlimdə)." Mən (sonra) soruşdum, "ikisinin tikilişi arasındakı zaman müddət nə qədər idi?" O dedi, "Qırx gün." O əlavə etdi, "Namazın vaxtı girən kimi, namazı dərhal qıl, çünkü belə etmək ən yaxşı əməldir." (yəni namzı vaxtında qılmaq)."*

*(Səhih Buxari)*

Əgər biz bu hədisdəki "zamanı" (qırx gün) hərfi mənada qəbul etsək, onda bu hədis açıq aşkar yanlış olardı. Bu bir kəsə sadəcə bir az düşüncə tələb edir ki, Allah Rasulunun (sav) bu hədisdə bir "ilə" on iki qəmər ayı mənasında istinad etmədiyini anlasın. O, bu hədisdə "qırx"

illik müddət haqqında danışarkən və Dəccal ilə bağlı hədisdə bir "günə" bir "il" kimi istinad edərkən, bir "ilə" bizim bildiyimiz "il" kimi istinad etmirdi.

Onda biz soruşuq, tarixdə min ildən çox çəkən bu zaman müddətini sadəcə "qırx" il olaraq təsvir edərkən o, hansı növ "ilə" istinad edirdi?

Əgər biz özümüzü bizim insan anlayışı olan "zaman" ilə məhdudlaşdırarsaq, Dəccalın yer üzərindəki qırx günlük ömürü ilə bağlı hədisin anlaşılması qeyri-mümkün olar. Bu, bizim "gecə" və "güdüz" və günəş və ayın hərəkətlərini hissi ilə qavrayışımızdan irəli gəlir. Qərb idrak tərzinə bağlı olanlar bunu şərh edə bilməzlər, baxmayarq ki, kvant fizikası məsələyə bir az aydınlıq gətirə bilər. Nə də Dəccal və s. ilə bağlı hədislər simvolik olaraq şərh edilməli olduğu halda, onun hərfi şərhi ilə məhdudlaşan insanlar tərəfindən anlaşılması mümkün deyil. Əslində yalnız Sufi idrak tərzi Dəccal mövzusunu açıqlığa çıxara bilər.

Biz günü hərfi mənada "günü" bizim "günümüz" kimi başa düşə bilərik. Belə "gün" (yəni sutka) gecəni və növbəti günü əhatə edir, başqa sözlə desək, bir günçıxandan növbəti günçıxana qədər. Dəccal bizim zaman ölçümüzdə, yəni "günləri bizim günlərimizmizə bərabər olanda" yalnız yerdəki həyatının sonuna yaxın bir vaxtda yaşayacaq. Bu çox aydındır. Bizim zaman ölçümüzdə olan, belə çıxır ki, həm də bizim məkan ölçümüzdə də olmalıdır. Tarixi qeydlərin işarə etdiyi budur. Biz tarixdə belə bir şeyə rast gəlməmişik ki, kimsə bizim zaman ölçümüzdə olsun, amma bizim məkan ölçümüzdə olmasın. Dəccal yerdəki həyatının sonunda bizim zaman ölçümüzdə, eləcə də məkan ölçümüzdə olacağına görə, bizim onu Yerusəlimdə görməyimiz mümkün olacaq.

Ortaya belə bir sual çıxır: onun "bir günü bir kimi", "bir günü bir ay kimi" və nəhayət "bir günü bir həftə kimi" olan müddətdə Dəccal yer üzərində harada olacaq? İkinci sual budur ki, "bir il kimi olan bir gün", "bir ay kimi olan bir gün" və nəhayət "bir həftə kimi olan bir gün" neçə müddət çəkəcək? Kitabın bu mühüm fəsli verilən suallar cavab verməyə çalışır.

**əl-Qayb – görünməz metafizik (transsendental) dünya**

Din hər zaman normal müşahidə və nəticə etibarı ilə elmi tədqiqat fövqündə, bizim zaman və məkan ölçümüzün xaricində görünməyən metafizik (transsendental) dünyanın (Qeyb) mövcudluğunu təsdiq etmişdir və iman edənlərin hər zaman bu görünməz dünyalara inanmalarını tələb etmişdir.

Dəccal "bizim günümüzdən" fərqli bir "gündə" olanda bizim onu görməyimiz mümkün olmayacaq, çünkü o, görünməz dünyada (Qeybdə) mövcudluğun fərqli ölçüsündə olacaq. Məhz yer üzərində olan, amma insanlar tərəfindən görünməyən Mələklərin və Cinlərin durumunda da belədir. Quran bəyan edir ki, hər insana nəzarət edən (çiyinləri üzərində) iki mələk vardır:

*"Amma həqiqətən sizin üstünüzdə gözətçilər (mələklər), çox hörmətli və üstün olan (əməllərinizi) yazanlar vardır. Onlar sizin nə etdiklərinizi bilirlər."*

*(əl-İnfitar surəsi, 82:10-12)*

Sonra Quran bizə bildirir ki, Rəbbimiz Allahın zikrindən (xatırlamaqdan) boyun qaçırana bağlanan bir pis Cin (yəni şeytan) vardır:

*“Hər kəs Rəhmanın zikrindən boyun qaçırsa, Biz ona Şeytanı (sapmış cini) ürcah edərik və onun (Şeytanın) yaxın dostu olar.”*

*(əz-Zuxruf surəsi, 43:36)*

Biz ətrafımızdakı Mələklər və Cinləri görə bilməsək də, hər bir ananan (mömin) onların yerdə mövcudluğuna inanır. Bizim mövcuduyyətin müxtəlif ölçülərinə və nəticə etibarı ilə bizim yerdəki zaman və məkan dünyamız ilə yanaşı var olan və bizimkindən fərqli bir zaman və məkan dünyalarına inamımızın dəlili məhz budur.

Biz normal müşahidəmizin fövqündə olan belə ölçülərə sadəcə inanmırıq, bizim həmçinin təkzibedilməz dəlillərimiz var ki, Mələk bizim ölçümüzə daxil ola bilər və beləcə bizim zaman və məkan dünyamızda mövcud olmaqla bizim gözümüzə görünə bilər. Bu dəfələrlə Mələk Cəbrayıl (as) tərəfəndən nümayiş etdirilmişdir. Budur belə bir hadisə:

*“Abdullah ibn Ömər ibn əl-Xattab rəvayət etmişdir: “Atam, Ömər ibn əl-Xattab mənə dedi: “Bir gün biz məsciddə oturarkən qarşımızda tamamilə ağ geyinmiş və saçları son dərəcə qara olan bir kişi varid oldu. Onun üzərində heç bir səyahət izi yox idi (yəni üstü tozlu deyildi). Bizim heç birimiz onu tanımadıq. Axırda o Rasulallahla (sav) yanaşı oturdu. O, onun qarşısında dizi üstə dayandı və ovuclarını onun budları üstünə qoydu və (ona beş sual verərək davam etdi)....”(Hədisi rəvayət edən Ömər) dedi: “Sonra sual verən öz yolu ilə çıxıb getdi, amma mən onunla (Peyğəmbər (sav)) bür müddət qaldım. Sonra o məndən soruşdu: “Ömər, bu sual verənin kim olduğunu bilirsənmi?” Mən cavab verdim, “Allah və onun Rasulu daha yaxşı bilir.” O cavab verdi, “O Cəbrayıl (Mələk) idi. O, sənə din məsələlirini təlim etmək üçün gəlmişdi.”*

*(Səhih Müslim)*

Bəlkə də, bu hadisə tarixdə ən heyran edici halı səciyyələndirir, hansında ki, mələk insanların yaşadığı zaman və məkan ölçüsünə daxil olaraq insan qiyafəsinə girir və beləliklə görünən və toxunula bilən varlıq olur.

Cinlər də insan qiyafəsinə girə bilir və insanların zaman və məkan dünyasına daxil ola bilir. Belə ən məşhur hadisə İblisin (yəni şeytan) qoca Ərəb kişisi qiyafəsində Qureyşin Muhəmmədlə (sav) bağlı məsələni çözmək üçün siyasət hazırlamağa yığıldıqları toplantıda peyda olmasıdır:

*“Şeytan özü onları toplandıqların yerin qapısında əba geyinmiş yaşlı bir şeyx simasında salamladı. Onlar onun kimliyini soruşanda o cavab verdi: “Sizin müzakirə niyyətinizdən xəbər tutan şeyx və gəlmişəm dinləyim siz nə danışırsınız və ola bilsin mənim sizə məsləhətim əbəs yerə olmasın.” Sonra o, onlara qatıldı.”*

*(İbn İshaq, Sırat Rasul Allah)*

İndi biz səhih mənbələri bizimkindən başqa mövcud olan zaman ölçülərinin möcudluğunu izah etmək üçün istifadə edə bilərikmi? Biz “bir il kimi olan bir günü” izah edə bilərkimi?

Quran hər şeyi izah edən olduğunu bəyan etdiyinə görə (ən-Nəhl, 16:89, 5-ci səhifəyə bax), dolayılı olaraq düşünmək olar ki, bu Peyğəmbərin (sav) normal insan anlayışı xaricində olan bu ifadələrini izah etməlidir. Bu təşəbbüsdəki məqsədimiz yalançı Məsih, yəni Dəccalın qırx illik

ömrü (yerdəki) ilə bağlı bu anlaşılmaz hədisin izahatını aşkar etmək cəhdi ilə Qurana müraciət etməkdir.

### “Zaman” biz olmayanda mövcud idi

İslam öyrədir ki, insanlıq olmayanda da zaman var idi və bütün insanlıq zamanın müəyyən bir vaxtında ilahi bir lütfün feli olaraq yaradılmışdır. Beləliklə zaman insandan daha öncə mövcud olub. İslam həmçinin bizə öyrətmişdir ki, elə bir zaman gələcək ki, hər şey məhv olacaq və yalnız Allah qalacaq. Deməli insanlıq artıq yox olanda da zaman varlığını sürdürəcək:

*“(Yer) üzündə olan hər kəs fanidir. Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir.”*

*(ər-Rahmən surəsi, 55:26-27)*

*“İnsanın elə bir dövrü olub keçmişdir ki, o, xatırlanmağa layiq bir şey olmamışdır!”*

*(əd-Dəhr surəsi, 76:1)*

İkincisi, İslam bizə öyrətmişdir ki, insan əvvəlcə bizim indi yerləşdiyimiz və yaşlandığımız bioloji zamandan daha fərqli zaman ölçüsü olan Cənnətdə yaradılmış və yerləşdirilmişdir. Sonra ilahi əmrə itaətsizliyin nəticəsi idi ki, insan o zaman ölçüsündən çıxarıldı və müvəqqəti olaraq bizim indi mövcud olduğumuz bu zaman ölçüsünə yerləşdirildi.

Belə nəticə çıxarmaq olar ki, insanlıq zamandan asılı olan reallığa sahib olduğu halda, zaman insandan asılı olmayan bir reallığa sahibdir. Zamanın reallığı nədir ? Hədisdə rəvayət dilir ki, Uca Allah Özünü zaman olaraq bəyan etmişdir:

*“Əbu Hureyrə rəvayət etmişdir: “Allahın Rasulu (sav) dedi: “Allah dedi, “Adəm övladları zamanı (Dəhr) pis istifadə edirlər, amma Dəhr (zaman) Mənəm, gecə və gündüz Mənim Əllərimdədir!”*

*(Səhih Buxari)*

### Müqəddəs “zaman” və müasir ateist dünya

Bu, müasir ateist (dinsiz) dövrün səciyyəvi xüsusiyyətidir ki, tək haqq din olan İslamın əmr etdiyi kimi zaman və həyat arasındakı ahəngdar təbii əlaqəni məhv etməyə çalışmaq üçün hər mümkün yalan və ya hiylədən (fitnə) istifadə etsin. Bu minvalla o, bizim zaman qavrayışımızı, eləcə də zamanı müxanik üsuldan başqa yolla ölçmə qabiliyyətimizi sıradan çıxarmağa çalışır. **Əslində bu dinsiz çağ bizim fitri müqəddəs zaman anlayışımızı sekyular (dünyəvi və ya dinsiz) zaman anlayışı ilə əvəz etməyə çalışır.**

Müasir ateist Avro-Xristian və Avro-Yəhudi çağı, misal üçün “Yanvardan” (January) “Dekabra” (December) qədər ilin bütün aylarının və “Bazar” günündən (Sunday) “Şənbə” (Saturday) gününədək həftənin bütün günllərinin adlarını Avropanın bütpərəst tanrı və tanrıçalarının adları ilə dəyişdirmişlər. Bu təsadüfən baş verməmişdir. Bununla belə bunlar müasir İslam alimlərinin diqqətindən yayınmışdır.

Eyni zamanda gün, artıq möhtəşəm və çarpıcı bir gün batma hadisəsi ilə bitmir, necə ki, bu təbii baş verir. Əvəzinə, bu indi gecə yarısında bitir və nəticə etibarı ilə yeni gün tamamilə əlaqəsiz, məntiqsiz və mənasız bir anda, insanların böyük çoxluğunun yatdığı bir vaxtda başlayır.

Yeni təqvim ayı, artıq həyəcanlandırıcı və müqayisə olunmaz parlaqlığı və gözəlliyi ilə nazik ayın (hilal ay) cazibəsi və günəşin qürübu kimi səmanı bəzəməsi ilə təbiətin qoyulmuş qanunu ilə başlamır və ya könə ay bitmir. Əksinə, hər bir ayın uzunluğu heç bir şeyə əsaslanmadan kefi istədiyi kimi Avropa Papası tərəfindən təyin olunmaqdadır. Bəzi aylar əsassız olaraq 30 gün təyin olunduğu, bəziləri isə ağılsızca 31 günə çıxarıldığı halda (hansı ki, bir ay yeri maksimum 30 günə dövr vurur), bəxtsiz Fevral həmişəlik ya elə (yəni 28 gün) ya da belə (yəni 29 gün) olmaq utancına məruz qalmışdır.

Hətta günlər də artıq günəşin hərəkəti ilə əlaqəni dəstəkləyən bir hissələrə bölünmənişdir, misal üçün erkən sübh vaxtından əsl sübh vaxtına, şəfəq saçan erkən səhər işığından günün parlaq işıqlığına və sonra batmağa meyl edən günəşə, solan işığa və sonra alaqaranlığa, ay işığına, ulduz işığına, gecə qaranlığına, zülmət qaranlığa və s. keçidlərdə olduğu kimi. Əksinə zamanın mexanik keçidi indi gecə və gündüzün bütünlüklə əsassız olaraq saat adlanan 24 bərabər hissəyə və saatın dəqiqə adlanan 60 bərabər hissəyə və s. bölgüsü ilə tənzimlənməkdədir. Yanlış yerləşmiş rahatlıq düşüncəsi, zamanın dünyəvi məqsədlər üçün səmərəli istidafəsi arayışı günün yuxarıdakı kimi ilahi bölgüsünün yerini aldı.

Müqəddəs zaman insanın ruhunu müqəddəs dünyaya çağıran strateji baxımdan çox mühüm işarə və simvollar sistemi olaraq fəaliyyət göstərdi. Beləliklə müqəddəs zaman bizə müdriklər yetişdirməyə yardım etdi. Sekyularlaşma (dini idarəyə son vermə, dünyəviləşmə) və nəticəsi olan zamanın mexanikləşməsi müqəddəs dünya ilə o əlaqələri kəsdi və zamanın əhəmiyyətini onun funksional maddi dünyəvi faydası ilə məhdudlaşdırdı.[2]

Bu da təsadüfi deyil ki, müasir şəhərlərin qəbiristanlıqları o şəhər və qəsəbələrin xaricində çox uzaqda yerləşir. Gizli bir məqsəd ağıl və qəlbi bu dünya həyatında həbs etmək və bu gedişatla ölümümüzü, ölüm sonrası həyatımızı və nəticədə başqa zaman ölçülərinin varlığını unutmağımıza səbəb olmaqdır.

Televiziya və digər kütləvi informasiya vasitələri xəbərlər və hadisələri manipulyasiya etmək və bununla insanlığı bir anın tiranlığına həbs etmək üçün belə məharətlə istifadə olunur. Şəkillər və danışılan hadisələr televizor ekranında elə sürətlə gəlib gedir ki, o, ağlın dərindən düşünmək və ifadə etmək qabiliyyətini təhrif edir, azaldır və nəhayət məhv edir. Əksər insanlar bu səbəblə ağılsızcasına, günbəgün və anbaan yaşamağa doğru cılızlaşmışlar. Dünən unudulub gedir və artıq şüurluluq üzərinə təsir etmir. Sabah bu günün fantaziyalarının uzantısandan başqa bir şey deyil.

Bütünlüklə ehtimal edilə bilən məntiqi nəticə bu olmuşdur ki, insanlar dünənlə bu bu günü əlaqələndirmək qabiliyyətini itirmişlər. Nə də onlar mənalı bütünü (yekunu) formalaşdıra biləcək

---

[2] Yazar, İmran Hüseynin “sacred time” ifadəsini tərcüməçi, hərfi mənada tərcümə etsə də əsil mənasını Azərbaycanca göstərməyə çətinlik çəkir. Çünkü bizim dildə dini ədəbiyyat və nəticədə terminlər kasaddır. Yazar burada demək istədiyi, müasir dövrümüzdə zamanın maddi tələblərə uyğun o qədər standartlaşdırılıb ki, məsələn, iş zamanı xüsusi namaz fasiləsi və ya məkanının ayrılmaması, insanların ruhi varlıqdan çevrilib sadəcə mexaniki bir iş obyektinə çevrilməsi və s. kimi çox mühüm və hələ bundan da qat-qat dərin (katastrofik) problemlər ortaya çıxmışdır. Hansı ki, Uca Allah insanın yaradılışının əsas mahiyətinn Rəbbinə ibadət olmaq olduğunu Müqəddəs Quranda bəyan etmişdir: “Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!”(əz-Zariyət, 51:56). Dövrümüzün çox çirkin paradoksu bu mahiyyəti sıralamada demək olar ki, ən sonuncu yerə belə yerləşdirməmişdir. Deməli müasir sivilizasiyaların demək olar ki, hamısı axır zamanda öz yaradılış qayəsindən tamamilə uzaqlaşmışdır. Bu da Qiyamətin çox mühüm əlamətlərindəndir.

gələcəyi öncədən görə bilmirlər (yəni olanların nəyə aparacağının məsuliyyətinə varmırlar). Onlar tarixin gedişatını oxuya və qavraya bilmirlər. Hətta onlar tarixdə zamanın hərəkətinin fərqində belə deyillər. Nəticə etibarı ilə, onlar, görünməmiş Avro-Xristian və Avro-Yəhudi ittifaqının Müqəddəs Torpaqlarda, eləcə də geniş mənada dünyada, əsrlərdir təqib etddikləri, anlaşılmaz şəkildə aşkara çıxmaqda olan hegemoniya məsələsinin nə fərqinə vara, nə də analaya bilirlər.

Məsələ artıq Avro-Yəhudi Dövləti İsarilin dünyada üçüncü və sonuncu hegemon dövlət olaraq ortaya çıxması ilə yüksək nöqtəyə çatmaqdadır, belə ki, rəhbəri dünyanı Yerusəlimdən idarə edəcək və özünü həqiqi Məsih olaraq bəyan edəcəkdir. Bu ən son aldatmadır! İndi təəccüblüdür ki, müasir dövr müəmmalı bir şəkildə İslam dünyasında bir çoxlarını Avro-Yəhudi və Avro-Xristian ittifaqının müasir qərb sivilizasiyasını zərbi-məsələ çevrilmiş kərtənkələ yuvasına qədər kor-koranə təqlid etməyə və izləməyə inandıra bilmişdir.

### “Zaman” və Qiyamətin Əlamətləri

Həqiqi din “haqq” qəlbə girən və məskən salan zaman mövcud olur. Bizim zaman axınını (keçidini) ölçmə üsulumuz həqiqətən də mühüm əhəmiyyətə malikdir, çünkü insanın malik olduğu qəlbin növünü göstərir. Muhəmməd Peyğəmbər (sav) tərəfindən göstərildiyi kimi Qiyamətin əlamətlərindən biri də odur ki:

*“Zaman sürətlə gedəcək, elə ki, bütün il bir ay kimi keçəcək, ay həftə kimi keçəcək, həftə gün kimi, gün saat kimi və saat isə ocağı yandırmağa çəkən vaxt qədər.”*

*(Ənəs ibn Malik rəvayət etmişdir, Sünən Tirmizi)*

O, izah etmişdir ki, zamanın sürətlə hərəkət etmə anlayışı Uca Allahı xatırlamanın (Zikr) qəlbdən ayrılması və onun yerinin dünyəvi həyatla doldurlması nəticəsində baş verəcəkdir. Belə qəlblər Uca Allahın adının xatırlanmasının azlığından dolayı rahatsız olmayacaqlar.

“Xatırlanma” nədir? Əgər bir insan sevdiyi insanı qəlbində ziyarət etsə, sanki onu sehirli bir ətir sardığı üçün titrəyir. Bu hər dəfə baş verir! O, onun adının çəkilməsini eşidəndə eyni şeylər baş verir. Bu “xatırlamadır”.

Aydındır ki, “xatırlama” yalnız həqiqi məhəbbət olduğu zaman mümkündür. Beləliklə Uca Allaha olan sevgi qəlbdən ayrıldıqda “zaman” sürətlə getməyə başlayır. Deməli, belə çıxır ki, əgər Uca Allaha olan məhəbbət qəlbdə əsas yeri tutarsa, zaman şübhəsiz yavaş getməyə başlayacaq və inanan həyatda zaman axını ilə elə davranacaq ki, bu mənalı və xeyirli olacaq.

Beş günlük dünyaya həbs olunmuş bu bədbəxt insanlar keçici anda və deməli indiki zamanda daha da tələyə düşürülmək üçün pul xərcləyirlər. Onlar tarix boyunca zamanın axınını və ya zamanın gedişatını oxuya və anlaya bilmək qabiliyyətinə heç vaxt sahib olmayacaqlar. Beləliklə onlar həmişə aldadılacaq və dibi olmayan çuxura düşdükcə öz acınacaqlı vəziyyətlərinə qarşı tamamilə diqqətsiz qalacaqlar.

Axır Zamanda mənəvi boşluğun məntiqi nəticəsi o dərəcədə əxlaqi məhvə gətirib çıxaracaq ki:

*“... insanlar bir-birləri ilə iş əlaqələri quracaq və çətin ki, kimsə öz etimadını doğruldacaq”.*

Mənəvi boşluq və əxlaqi məhv sağlam düşüncəni (mühakimə qabiliyyətini) elə aciz bıraxacaq ki, insanları vicdanlı şəxsləri fırıldaqçılardan ayıra bilməmək halına gələcəklər:

*"deyiləcək ki, filan-filan tayfa içində etibarlı adam var. İnsanlar onun necə ağıllı, çox gözəl və əzmli (qərarından dönməz) adam olduğunu qeyd edəcəklər, halbuki onun qəlbində xardal dənəsi qədər də iman (Allaha) olmayacaq."*

*(yuxarıdakı hədislərin hər ikisi Buxari, eləcə də Müslimdə səhabə Hüzeyfədən nəql edilir)*

Mübarək Peyğəmbər həmçinin xəbərdar etmişdir ki, elə böyük xəyanətlər dövrü olacaq ki:

*"İnsanların qəlblərinə nəfs bir-birinə sıx toxunmuş bir həsir kimi veriləcək və onunla doymuş hər bir qəlbin içərisində qara ləkə olacaq. Nəticədə qəlblər iki cür olacaq: birincisi, ağ daş kimi bəyaz olacaq və göylər və yer qaldıqca nəfs tərəfindən zərər yetirilməyəcək, ikincisi dağılmış gəmi kimi qara və tozlu olacaq, hansı ki, yaxşını ayırd etməyə və ya pisi inkar etməyə qabil olmayacaq, yalnız öz nəfsinə sarılacaq."*

*(Səhih Müslimdə Hüzeyfədən nəql olunmuşdur)*

Heç şübhəsiz bu, sözdə "proqres" çağı, həqiqətən də Qiyamət əlamətlərinin ortaya çıxdığı dövrdür. Bu, dünyəviləşmə (sekyularizm) çağıdır. Dövlət, siyasət, iqtisadiyyat, təhsil, bazar, mətbuat, idman, əyləncə və sair. Qonaq otağı, oturaq otaq, hətta yataq otağı da bugün dünyəviləşib. Dünyəviləşmə "Tanrını yaşantımızdan çıxarmaqla" başlayır və "Onu inkar etməklə" ən yüksək zirvəyə qalxır. Bilik dünyəviləşdikdə bu belə bir inama aparır ki, bilik yalnız bir mənbədən, yəni xarici müşahidə və rasional tədqiq etmədən qaynaqlanır. Bu idrak tərzinin qəbul edilməsindən çıxarılan qaçınılmaz nəticə budur ki, əgər bu material dünya yuxarıdakı idrak tərzi ilə görə bildiyimiz yeganə dünyadırsa, deməli həqiqi mövcud olan tək dünya da budur. Deməli, dünyəviləşmə materializmə aparır, yəni tam praktiki nöqteyi nəzərdən, material reallıqdan başqa reallıq yoxdur, nəticədə bizim zaman ölçümüzdən başqa zaman ölçüsü yoxdur. Materializm təbii olaraq xəsisliyə, yalanlara, nizamsızlığa, zülmə, ateizmə və böyük xəyanətlərə yol açmışdır, çünkü dinin ruhani qəlbi olmadan cəmiyyətin əxlaqi əsasları saxlana bilməz. O qəlb, material dünyanın xaricində olan görünməz (metafizik) həqiqətlərə (Allah, mələklər, cənnət və cəhənnəm) inanmadan nə qurula bilər, nə də saxlana bilər. Hətta zaman müddətində həyatın gedişatı bizimkindən başqa zaman olmadan və bizimkindən başqa dünya olmadan asanlıqla mənasızlaşa bilər.

**Həyatın "zamanla" bütövləşməsi**

Keçən illərin hesaplanması mühüm əhəmiyyətə malikdir. Bir şəxsin keçən zamanı necə hesaplaması onun kim olduğunu müəyyənləşdirir! "Keçən illəri necə hesapladığını mən söylə və mən sənin kim olduğunu söyləyim!"

Ömər Xəyyam illərin keçməsindən şikayət edirdi:

"İstər Nişapurda, istərsə də Babildə
Şəkərlə və ya acı ilə dolu cam keçib gedir,
Həyat şərabı damcı-damcı sızıb gedir,
Həyat yarpaqları birər-birər düşüb gedir!"

Ancaq zaman axını Uca Allaha iman mövcud olan qəlbdə tamamilə fərqli əks-səda doğurur və elə bir həyatda (qəlbdə) ki, zaman axını ilə müsbət şəkildə bütövləşmişdir! İman, misal üçün mömin bir qadına ötən illəri ilə müsbət və ahənglə qarşılıqlı əlaqədə olmağı təmin edir.

Gözəlliyi qiymətləndirmək üçün estetik olaraq yetərincə inkişaf etmiş istənlən şəxs razılaşacaq ki, səmada heç nə yeni hilal ay və ulduzların bir-birlərin valeh edici ağuşundakı gözəl mənzərəsi ilə müqayisə edilə bilməz. Səmada yeni qəmər ayının keçidi özlüyündə həyatın keçidini simvolizə edir.

Beləliklə, bayaqkı misalımızı davam etdirsək, yeni qız uşağı dünyaya gələndə sanki, səmada yeni ay (hilal ay) peyda oldu və yeni dünya həyata gəldi. Hamı onu həddindən artıq sevdi. Hər kəs onun öz sevən əllərinə aldı. O iməklədi, gəzdi, oynadı, güldü, oxudu, oynadı. O, şux bir şəkildə həyatının yaz vaxtına keçənə qədər onun dünyada heç bir qayğısı yox idi. O, görmək üçün bir möcüzə idi.

Sonra o, yay vaxtını salamlayanda utancaqlıqla qızardı, o zaman ki, o, xəfifcə qızılgül yarpağına düşən göy qurşağında yağış damcısından daha gözəl olan qadına çevrildi. Dünya onun gözəlliyinə heyran qaldı və onların dodaqlarından bu sözlər çıxdı: Sübhən Allah! Oxuyanlar onun haqqında oxuyur, şairlər onun haqqında şerlər qoşdu. Bu da görməli bir möcüzə idi.

Sonra da payız ona yetişdi, belə ki, onun həyatının yaşıl yarpaqları tutqunlaşmağa başladı. Gözləri ətrafında qırışlar əmələ gəlməyə başladı və saçının zolaqları ordan-burdan ağarmağa başladı.

Nəhayət, ay *dönüb xurma ağacının qurumuş əyri budağı kimi (hilal şəklində)* (Quran, Yəsin, 36:39) olanda  onun qışı gəlib çatdı və o, incəliklə öz çadırını bağlamağa, əlvida deməyə və gecənin qaranlığında yox olmağa hazırlaşdı.

Lakin o, həyat səyahətidə hər zaman Uca Allaha şükranlıqla dolu idi. Həyatının yaz çağında o, Allaha buna görə həmd edirdi və yay, payız və nəhayət qış çağıda da belə idi. Payızın və ya qışın gəlişi ilə onun heç bir üzüntüsü yox idi. Onun ağ saçları saçının təbii rəngi ilə qarışanda onlarla fəxr edirdi. Dünyanın ona təklif edə biləcəyi heç bir şeyə görə o, həyatının yaz və ya yay çağına qayıtmağı heç vaxt arzu etmirdi, çünkü o payız və qış çağlarını da eynilə sevirdi. Beləliklə o, müdrikcəsinə yaşlandı.

O, nə qədər yaşlanırdısa, o qədər də gözəllik saçırdı – daxili gözəlliyin zahiri ifadəsi. Ölüm mələyinin onu aparmaq zamanı gəlib çatanda, o zaman ki, ayın səmanın qaranlığında yox olmaq və qaranlıq gecənin dünyanı sarmaq vaxtı idi, onun həmişə tanıdığı yeganə dünyadan ayrıldığına görə heç bir üzüntüsü yox idi. O, bu dünyanı qəlbində Allaha olan şükranlıqla tərk etmək istəyirdi, çünkü O, Ona şükr edənlərə vəd etmişdi ki, onlara öz nemətini və lütfünü artıracaq (Quran, İbrahim, 14:7). O heyfslənmirdi! O, Hind İmperatoru Bahadur Şah Zəfərin gileyinə şərik çıxmırdı:

“Ömürün siyirməli dolabından,  
Dörd gün axtara və tapa bildim,  
İkisi arzularla keçmişdir,  
İkisi də gözləməklə!”

Belə mömin qadın əksinə hər zaman (zaman içərisində) yeni dünyalara səyahət etməyə hazır idi. O, heç vaxt zamanın axınına meydan oxumurdu (müasir dünyamızdakkılardan fərqli olaraq) və beləliklə o, heç vaxt Uca Allaha sayğısızlıq etmiridi, çünkü O zamandır. Hər kim zamanla ahəng içində yaşayır, öz Rəbbi və Yaradanına tabe olaraq yaşayır! Hər kim zamanı "indiki zamanın" xaricində dərk edə bilsə, tarixin gedişatında aşkara çıxan Allahın nişanələrini və Qiyamətin əlamətlərini oxuya və anlaya bilər.

Bizim zamanın keçidini (axınını) günlər və gecələrlə, həyatımızın fəsilləri ilə, eləcə də təbiətin fəsilləri ilə hesabladığımız ölçü (meyar) yer üzərindəki fərdi və ya kollektiv olaraq müvəqqəti qalışımızın vaxtını ölçə bilmək üçün verilmişdir. Bu sınaq və yoxlamadır. Bu zamanın bütününü təmsil etmir. Bu daha çox bizim Quranda göstərilən başqa dünya ölçüləri üçün inkişafımızın əsasını təşkil edir. Biz zamanla, yəni bizim zaman anlayışımızda və bizim həyatımızda və eləcə də zahiri dünyada aşkara çıxdıqca zamanı başa düşmək və qavramaq bacarığımızda, irəlilədikcə eyni zamanda Axır Zamanı başa düşmək qabiliyyətimizi də artırırıq, belə ki, bu tarixi prosesin son mərhələsində gözlər önünə sərilməkdədir. Məhz o, bizim bu fəsildəki müzakirə etdiyimiz çox-çox mühüm məsələdir.

**"Zaman" Quranda**

Alim Allah "zaman" mövzusunu, zaman mirvarilərini Müqəddəs Quranda və mübarək Allah Rasulunun (sav) sözlərində orda-burda səpərək və sonra bilik axtaranın üzərində o mirvariləri yığmaq və boyunbağı kimi bir yerə düzmək məsuliyyətini yükləyərək öyrətmişdir.

Mərhum müəllimim görkəmli Mövlanə Dr.Muhəmməd Fəzlur Rahmən Ənsari (Allah rahməti onun üzərinə olsun) o "boyunbağını"mövzunun "mahiyyət sistemi" kimi təyin etmişdir. Biz bu fəsilin çox mühüm olan bu bölməsində sadəcə Qurandakı o mirvarilərin yerlərini müəyyən etmək üçün deyil, eləcə də onları boyunbağı kimi bir yerə yığmaq üçün mütəvazi bir təşəbbüs göstərmişik.

Ərəblər "Zamanı" (əl-Dəhr) ən yüksək reallıq hesab edirdilər. Onlar inanırdılar ki, "zaman" həyatda qalacaq yeganə şeydir. Hər şey və hər kəs ölüb gedir, çünkü onlar "Zaman" tərfindən "məhv edilirlər":

*"Deyirlər: "Dünya həyatımızdan başqa heç bir yoxdur; ölürük və dirilirik; bizi öldürən ancaq dəhrdir. Bu barədə onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar!"*

*(əl-Cəsiyə surəsi, 45:24)*

Material dünya xaricində reallıq tanımayan müasir ateist qərb sivilizasiyası bəyan etmişdir ki, "zaman puldur". Zaman ticarət oluna bilən, alına və satıla bilən bir mala çevrilmişdir. Pul, misal üçün, faizlə borca veriləndə pulun zaman dəyəri faiz ödəmələri ilə ifadə olunur.

Qudsi hədisdə buyurulur ki, Uca Allah Özünün Zaman (əl-Dəhr) olduğunu bəyan etmişdir:

*"Əbu Hureyrə rəvayət etmişdir: "Allahın Rasulu (sav) dedi: "Allah dedi, "Adəm övladları zamanı (Dəhr) pis istifadə edirlər, amma Dəhr (zaman) Mənəm, gecə və gündüz Mənim Əllərimdədir!"*

*(Səhih Buxari)*

Uca Allah Özünü Zaman olaraq bəyan etdiyi halda belə nəticəyə gəlmək olar ki, mütləq zaman deyilən bir şey var, yəni müstəqil olaraq mövcud olan və özündən başqa heç nə ilə şərtlənməyən zaman, və O, davam edərək *"gecə və gündüz Mənim Əllərimdədir"* bildirərkən növbəti işarə bu ola bilər ki, bizim bildiyimiz "zaman", yəni gecə və gündüzün dəyişməsinə əsaslandırılan zaman mövhumu, təbiətcə "nisbidir", yəni Allahın mütləq zamanına nəzərən nisbidir. Bizim bildiyimiz və hesabını gündüzlər, gecələr, həftələr, aylar, illər və s. ilə apardığımız zaman "sıra zamanı" olaraq ifadə edilə bilər.

Quran açıqlayır ki, "sıra zamanı" məhz zamanın (bizim nisbi zamanın) başlanğıcıdır və tətbiqi məqsəd üçün verilmişdir, elə ki, insanlar fani dünyada ikən illərin keçişini saymaq və zamanın hesabını tutmaq üçün vasitəyə sahib olsunlar. Sıra zamanı realdır. Bu illüziya və qeyri-real şey hesab olunmur:

*"Günəşi parlaq, ayı nurlu edən, illərin sayını və hesabı biləsiniz deyə, ay üçün mənzillər müəyyən edən məhz Odur. Allah bunları ancaq haqq olaraq yaratdı. O, ayələrini anlayıb bilən bir tayfa üçün belə müfəssəl izah edər!"*

*(Yunus surəsi, 10:5)*

*"Biz gecə və gündüzü (qüdrətimizə dəlalət edən) iki əlamət müəyyən etdik. Rəbbinizdən ruzi diləməniz, illərin sayını və hesabı bilməyiniz üçün gecənin əlamətini (qaranlığı) silib (yerinə) gündüzün işıqlı (görünən) əlamətini gətirdik. Biz (ehtiyac hiss etdiyiniz) hər şeyi (Quranda) müfəssəl izah etdik."*

*(Bəni İsrail və ya əl-İsra surəsi, 17:12)*

Quran davam edərək açıqlayır ki, "sıra" və "mütləq" zamanlar arasında "Səməvət" olaraq təsvir olunan yeddi müxtəlif zaman dünyası mövcuddur (hansı ki, adətən yanlışlıqla səma olaraq tərcümə olunur):

*"Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan Odur (Allahdır)! O, hər şeyi biləndir!"*

*(əl-Bəqərə surəsi, 2:29)*

*"Yeddi göy (səməvət), yer və onlarda olanlar Allahı təqdis edir. Elə bir şey yoxdur ki, Allaha tərif deyib Ona şükür etməsin, lakin siz onların təqdisini anlamazsınız. (Allah) həqiqətən, həlimdir, bağışlayandır!"*

*(Bəni İsrail surəsi, 17:44)*

*"And olsun ki, Biz sizin üstünüzdə yeddi yol (göy) yaratdıq. Biz məxluqatdan da xəbərsiz deyilik.."*

*(əl-Muminun surəsi, 23:17)*

*De: "Yeddi (qat) göyün Rəbbi, o (böyük) əzəmətli ərşin Rəbbi (sahibi) kimdir?"*

*(əl-Muminun surəsi, 23:86)*

*"Allah onları yeddi göy (səməvət) olaraq iki gündə əmələ gətirdi. O, hər bir göyün işini özünə vəhy edib bildirdi. Biz aşağı göyü (dünya səmasını) qəndillərlə (ulduzlarla) bəzədik və (onu şeytanlardan, hər cür bəladan) hifz etdik. Bu, yenilməz qüvvət sahibi olan, (hər şeyi) bilən Allahın təqdiridir (əzəli hökmü, qanunudur)!"*

*(Fussilət surəsi, 41:12)*

*“Yeddi (qat) göyü və bir o qədər də yeri yaradan Allahdır. Allahın hər şeyə qadir olduğunu, Allahın hər şeyi elm (Öz əzəli elmi) ilə ehtiva etdiyini biləsiniz deyə, (Allahın) əmri onların arasında (mövcud olan bütün məxluqata) nazil olar.”*

*(ət-Taləq surəsi, 65:12)*

*“Yeddi göyü (bir-birinin üstündə) qat-qat yaradan da Odur. (Ey insan!) Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb (səmaya) bax, heç orada bir yarıq (çatdaq, nöqsan) görə bilərsənmi?!”*

*(əl-Mülk surəsi, 67:3)*

*“Məgər görmürsünüz ki, Allah yeddi göyü (bir-birinin üstündə) qat-qat necə yaratdı?!”*

*(Nuh surəsi, 71:15)*

*“Üstünüzdə yeddi möhkəm (göy) qurduq. Sizin üçün çox parlaq bir çıxar (günəş) yaratdıq.”*

*(ən-Nəbə surəsi, 78:12-13)*

Bu yeddi cisim (göy cismi) adətən yeddi “səma” olaraq tanınır. Amma bunlar əsla səma deyillər. Onlar daha doğrusu yer ilə Uca Allahın Ərşi arasında dayanan yeddi müxtəlif zaman və məkan dünyası olaraq qəbul edilməlidirlər. Muhəmməd Peyğəmbər (sav) bunu növbəti hədisdə bundan bəhs etmişdir:

*“Abbas ibn Abdulmuttalib rəvayət etmişdir: “Mən Bathada, aralarında Rasulullahın (sav) da olduğu bir camaat içərisində idim. O zaman üstlərindən bir bulud keçti. Allah Rasulu (sav) ona baxmağa başladı və dedi: "Bunun adı nədir?", onlar da: "Səhab (bulud)." dediler. "Müzn də (deyərmisiniz)?" soruşdu. “Müzn də (bəli)” dedilər. "Anan da (deyərmisiniz)?" soruşdu. "Anan da (deyirik)” cevabını verdiler. ... . O: "Yerlə göy arasındakı uzaqlığı bilirsinizmi?" dedi. "(Xeyr) bilmirik” dedilər. O: "Bu ikisi arasındakı məsafə yetmiş bir, yetmiş iki yaxud da yetmiş üç ildir. Sonra (bu göyün) üstündə eynilə bunun kimi bir göy daha vardır." buyurdu. (Onun üstündə bir daha onun üstündə bir daha deyərək) nəhayət yeddi (qat) göy saydı ve: "Sonra yeddincinin üstündə üstü ilə altı arası (ndakı məsafə) iki göy arası qədər (olan) bir dəniz vardır. Sonra bu dənizin üstündə səkkiz dağ keçisi (şəklində səkkiz mələk) mövcuddur[3]. (Onların hər birinin) dırnaqlarıyla diz qapaqları arası iki göy arasındakı (məsafə) qədərdir. Sonra onların bellərində altı ilə üstü arası iki göy arası qədər olan Ərş mövcuddur. Sonra Mübarək və Ulu Allah onun üstündədir." (buyurdu).”*

*(Sünən Əbu Davud)*

Belə çıxır ki, bu yeddi Səməvətin (səma və ya daha doğrusu kosmik təbəqə) hər birində müxtəlif Aləm (dünya və ya kosmos) vardır. Quranda əl-Fatihə surəsi Uca Allahın Rab əl-Aələmin kimi (yəni bütün yeddi aləmin və ya dünyanın Rəbbi) vəsfi ilə başlayır:

*“Həmd (şükür və tərif) olsun Allaha – aləmlərin Rəbbinə,”*

*(əl-Fatihə surəsi, 1:2)*

Bu ona işarə edir ki, Allah bu dünyada (aləmdə) insanlığın Rəbbi olduğu kimi, digər Aləmələrdə yerləşənlərin də Rəbbidir və onlar da Ona ibadət edirlər:

---

[3] Burada ərşi daşıyan mələklər nəzərdə tutulmaqdadır. “Ərşi daşıyanlar və onun ətrafında olanlar (mələklər) öz Rəbbini həmd-səna ilə təqdis edir, ...” (əl-Mumin surəsi, 40:7)

*“Yeddi göy (səməvət), yer və onlarda olanlar Allahı təqdis edir. Elə bir şey yoxdur ki, Allaha tərif deyib Ona şükür etməsin, lakin siz onların təqdisini anlamazsınız. (Allah) həqiqətən, həlimdir, bağışlayandır!”*

*(əl-İsra surəsi, 17:44)*

Quran əslində bu yeddi dünyanı müxtəlif zaman və məkan ölçüləri olaraq ayırd edir. Misal üçün, bu, elə zaman ölçülü dünyadan bəhs edir ki, orada:

- Bir “gün” əlli min ilə bərabərdir:

*“Mələklər və ruh (Cəbrail) Onun dərgahına müddəti əlli min il olan bir gündə qalxarlar.”*

*(əl-Məaric surəsi, 70:4)*

Daha sonra ikinci zaman ölçülü dünyadan bəhs edir ki, orada:

- Bir “gün” min ilə bərabərdir:

*“Onlar səni tələsdirib əzabın tez gəlməsini istəyirlər. Allah Öz vədinə əsla xilaf çıxmaz! Rəbbinin dərgahında bir gün sizin saydığınızın min ili kimidir!”*

*(əl-Həcc surəi, 22:47)*

*“O, göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra (həmin işlər) sizin saydığınızın (dünya ilinin) min ilinə bərabər olan bir gündə Ona doğru yüksələr.”*

*(əs-Səcdə surəsi, 32:5)*

- Bir “gün” üç yüz ilə bərabərdir:

Quranın əl-Kəhf surəsində Uca Allah cavanların uzun illər mağarada qalmağını hökm verdiyini bəyan etdikdə zamanın Dəccal mövzusu ilə bağlı çox mühüm əhəmiyyəti çarpıcı şəkildə vurğulanmışdır. Sonra O, onlardan hansının mağarada qaldıqları zaman müddətini daha dəqiq hesablaya biləcəyini müəyyənləşdirmək üçün onları oyatdı. Onlar əslində üç yüz il yatmalarına rəğmən düşündülər ki, sadəcə bir gün və ya yarım gün yatmışlar:

*“Beləcə Biz mağarada illərlə onların qulaqlarına pərdə vurduq (yuxuya verdik). Sonra iki tərəfdən hansının onların qaldıqları müddəti daha düzgün hesabladıqlarını bilmək üçün onları oyatdıq.”*

*(əl-Kəhf surəsi, 18:11-12)*

*“Beləcə də onları bir-birindən hal-əhval tutsunlar deyə, oyatdıq. Onların biri dedi: “(Burada) nə qədər qaldınız?” Onlar: “Bir gün və ya bir gündən az!” – deyə cavab verdilər. Onlardan (bəziləri isə) belə dedi: “Qaldığınız müddəti Rəbbiniz daha yaxşı bilir...”*

*(əl-Kəhf surəsi, 18:19)*

*“Üç yüz il qaldılar, üstünə bir doqquz il də artırdılar (üç yüz doqquz il)”*

*(əl-Kəhf surəsi, 18:25)*

Cavan oğlanlardan bəziləri cavab verdilər ki, onlar mağarada sadəcə bir gün və ya gün yarım qalmışlar. Digərləri isə bununla belə, ruhən sezə bilmişdilər ki, mağarada zamanın keçidi bəlkə də bəzi yoldaşlarının təklif etdikləri müddəti aşmışdır.

- Bir “gün” yüz ilə bərabərdir:

Quran həmçinin bir hadisə təsvir edir ki, orada bir kişi dağılmış şəhərin (yəni Yerusəlim) yanından keçdi və Uca Allahın bu şəhəri yenidən necə dirçəldə biləcəyinə təəccübləndi. Bunun üzərinə Uca Allah onu yüz illik öldürdü və orada nə qədər qaldığını ondan soruşmaq üçün onu yenidən diriltdi. Onun cavabı bir gün və ya günün yarısı oldu:

*“Yaxud o şəxs kimi birisini (görmədinmi) ki, divarları, damları üstünə çökmüş bir qəsəbənin yanından keçərkən: “Allah bu qəsəbəni ölümündən sonra necə diriləcək?” dedi. Belə olduqda Allah onu yüz il ölü halında saxladı, sonra dirildərək: “Nə qədər qaldın?" buyurdu. O: "Bir gün və ya günün bir qismi qədər." dedi. Buyurdu ki: "Xeyr! Yüz il qaldın; buna rəğmən yeməyinə ve içməyinə bax! Hələ də xarab olmayıb. Bir də eşşəyinə bax! Səni insanlar üçün ibrət dərsi olmaqdan ötrü (belə etdik). İndi sümüklərə (eşşəyin) bax! Onları necə bir-biri ilə birləşdirir, sonra da onların üzərini ətlə örtürük!” Artıq ona (bunlar) aydın olduqda dedi: "(Artıq) bilirəm ki, Allah hər şeyə qadirdir!”*

*(əl-Bəqərə surəsi, 2:259)*

Yeddi müxtəlif zaman və məkan ölçüləri görünür birincinin bitdiyi yerdən ikincinin başlamasından çox bir-birinə yanaşı yerləşirlər:

*“Yeddi göyü (bir-birinin üstündə) qat-qat yaradan da Odur. (Ey insan!) Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb (səmaya) bax, heç orada bir yarıq (çatdaq, nöqsan) görə bilərsənmi?!”*

*(əl-Mülk surəsi, 67:3)*

Quranın yuxarıda müraciət edilən bənzər hissəsində (əl-Bəqərə, 2:259) məhz burada – yerdə müxtəlif zaman ölçülərinin yaxınlığının gözəçarpan təsviri verilmişdir, hansında ki, Uca Allah, Babil təxribatından sonra Yerusəlimin yanından keçən və ölü şəhərin nə vaxtsa yenidən canlana biləcəyini ağlı almayan səyyahdan bəhs edir.

Səyyah yüz il ölü (yuxu ölümün bir şəklidir) olaraq saxlanıldı və sonra yenidən şüurlu hala canlandırıldı. Cavanlarda olduğu kimi (Kəhf əhli), səyyah da bir gün və ya yarım gün qaldığını düşünürdü. Amma Quran yer üzərində iki müxtəlif zaman ölçüsünün bir-biri ilə yanaşı mövcud olmasının canlı təsvirini verir. Burada ulağın əcəli bir ölçüdə və yeməyinki isə digər ölçüdə təsvir olunur. Ulaq bizim zaman ölçümüzdə acından öldüyü və bədəni hətta sümükləri toz halında dağılana qədər çürüdüyü halda, yemək hətta yüz il keçməsinə baxmayaraq bizim zaman ölçümüzdə təravətli qalmışdır. Bu hekayədən öyrənirik ki, hər iki zaman ölçüsü elə buradaca – yer üzərində yanaşı mövcuddurlar!

Tamamilə eyni fenomenə cavanların əhvalatında rast gəlirik, hansılar ki, mağarada yuxuya verilmiş və orada üç yüz il yatmışdılar. O hekayənin təhlili bizə göstərir ki, onların mağaradakı uzunmüddətli yuxusu boyunca bədənləri eyni zamanda iki zaman ölçüsündə yerləşmişdi. Birinci zaman ölçüsündə onların bədənləri günəşin hərəkəti ilə bərabər, yəni səhər və axşam sağa və sola fırladılırdı. İkinci zaman ölçüsündə onların bədənləri yüz illər keçməsinə baxmayaraq heç bir gözəçarpan bioloji inkişaf və yaşlanma əlamətləri göstərmirdi.

Müxtəlif zaman və məkan ölçülərinin hamısı “Tibəqa” (əl-Mülk, 67:3), yəni bir yerdə və

ya yanaşı yerləşə bilərlər.

İndi biz başa düşə bilərik başqa zaman və məkan ölçüsünə mövcud olan görünməyən yazan (əməlləri) mələklər necə biz yerdə yaşadığımız müddətdə daima bizim iki çiynimizin üzərində və görünməyən cinlər necə daima bizim ətrafımızda ola bilirlər. Onlar bizim ətrafımızda ikən, bizimlə eyni zaman və məkan ölçüsündə deyillər. Bu səbəblədir ki, biz onları görə bilmirik. Quranın aşağıdakı ayəsinə nəzər yetirin:

*"Ey Adəm oğulları! Ayıb yerlərini özlərinə göstərmək üçün libaslarını soyundurub valideyninizi (Adəm və Həvvanı) Cənnətdən qovdurduğu kimi, Şeytan sizi də aldadıb yoldan çıxartmasın. Şübhəsiz ki, o (Şeytan) və onun camaatı sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər. Biz şeytanları iman gətirməyənlərin dostları etdik."*

*(əl-Əraf surəsi, 7:27)*

"Yemək" və "ulaqla" bağlı yuxarıdakı əhvalatdan çıxarılan nəticə iki zaman dünyasının yer üzərində yanaşı yerləşəbilməsinin təsdiqini daha da gücləndirir. Yemək hələ də bu zaman dünyasında yerləşdiyi halda, həmçinin yüz il keçməsinə baxmayaraq ikinci zaman dünyasında da təravətli şəkildə saxlanılmışdı. Başqa sözlə, bu hadisədə iki zaman dünyaları arasında davamlı səyahət və ya keçid baş vermişdir.

Eyni şey əl-Kəhf surəsində göstərildiyi kimi mağaradakı cavanların halında da baş vermişdi. Onların bədənləri üç yüz il ərzində fiziki olaraq bu zaman dünyasında qaldıqları halda, hələ də digər zaman ölçüsündə saxlanmışdılar, harada ki, onlar onlar heç vaxt yaşlanmadılar. Daha sonra müxtəlif zaman dünyaları arasında eyni səyahət və ya keçid İsra gecəsində, Muhəmməd Peyğəmbərin (sav) Miracında[4] baş vermişdi.

Muhəmməd Peyğəmbərin (sav) "Səməvətə" (göyə) yüksəldilməsi üçün "Buraq" ilə Müqəddəs Torpaqlara gətirilməli olduğu ilə əlaqədar, indi aydın görünür ki, başqa zaman ölçüsü ilə bizim zaman ölçüsü arasındakı bu səyahət fenomeni, bəlkə də yalnız Müqəddəs Torpaqlardan mümkündür. Beləliklə ulaq və yeməklə bağlı möcüzəli hadisə Müqəddəs Torpaqda baş vermişdi, çünkü xaraba qalmış qəsəbə Yerusəlim olmalı idi. Kəhf surəsindəki mağara da hardasa Müqəddəs Torpaqlar ətrafında yerləşməli idi. Məhz Yerusəlimdən Məryəm oğlu İsa (as) qeybə çəkildi. Həmçinin, o qeybdən (Səməvətdən) zühur edəndə də, onun enəcəyi yer Yerusəlim ya da ətrafı olması gərəkir.

### əl-Fatihə surəsi və müxtəlif zaman dünyaları

Mübarək Peyğəmbərimiz bəyan etmişdir ki, əl-Fatihə surəsi Quranın ən önəmli surəsidir. Əvvəl nazil olmuş müqəddəs kitablarda bununla müqayisə edilə biləcək bir şey yoxdur və bu bütün xəstəlikləri müalicə edə bilər. Aşağıdakı hədislərə nəzər yetirin:

*Əbu Səid əl-Muəllə rəvayət emişdir: "İbadət edərkən Peyğəmbər məni çağırdı, amma mən onun çağırışına cavab vermədim. Sonra mən dedim: "Ey Alahın Rasulu! Mən namaz qılırdım." O dedi: "Allah buyurmamışmıdır ki: Ey inananlar! Allah və Rasulu çağırdıqda cavab verin? (8:24)*

---

[4] Hz. Peyğəmbərin (sav) əlli iki yaşında ikən, bədən və ruh ilə, hicrətdən altı ay öncə Rəcəb ayının iyirmi yeddinci gecəsi, Məkkə Məscid-i Haramdan Qüdsə (Yerusəlimə) ve oradan göylərə ve bilinməyən yerlərə götürülüb aparılması

*Sonra dedi: “Sənə Quranda ən üstün surəni öyrədimmi?” Dedi: “(Bu), Həmd olsun Allaha – aləmlərin Rəbbinə (yəni əl-Fatihə). Hansı ki, mənə vəhy olunan Möhtəşəm Quranın yeddi ayəsindən ibarətdir.”*

*(Səhih Buxari)*

*Abdullah ibn Abbas rəvayət etdi ki, Peyğəmbər (sav) demişdir: “Sizdən əvvəl heç bir Peyğəmbərə verilməmiş və sizə verilmişiki nura görə sevinin: əl-Fatihə surəsi və əl-Bəqərə surəsinin son iki ayəsi (2:285-286).”*

*(Səhih Müslim)*

*Əbu Hureyrə rəvayət etdi ki, Peyğəmbər (sav) demişdir : “Canım əlində olan Allaha and olsun ki, buna bənzər (yəni əl-Fatihə surəsi) bir şey nə Tövratda, nə İncildə, nə Zəburda, nə də Quranda (başqa ayələrində) nazil olmamışdır.”*

*(Sünən Tirmizi)*

*Əbd əl-Malik ibn Umeyr rəvayət etdi ki, Peyğəmbər (sav) demişdir ki, “əl-Fatihə surəsi hər xəstəliyin dərmanıdır”*

*(Sünən Tirmizi, Darimi və Bayhaqi)*

*İləqah ibn Səhər ət-Təmimi rəvayət etmişdir: “İləqah Allah Rasulunun (sav) yanına gəldi və İslamı qəbul etdi. O, onun yanından qayıtdı və içlərində zənrilənmiş bir dəli olan bəzi insanların yanından keçdi. Onlar dedilər: “Bizə dedilər ki, sənin dostun (Peyğəmbər) bir çox xeyirli şey gətirmişdir (din). Səndə bunu sağalda biləcək bir şey varmı?” Sonra mən əl-Fatihə surəsini oxudum və sağaldı. Onlar mənə yüz qoyun verdilər. Sonra Allah Rasulunun (sav) yanına gəldim və ona bu barədə xəbər verdim. Soruşdu: “Başqa bir şey demədinmi?”Mən dedim: “Xeyr” Dedi: “Vallah, batil bir şey oxuyub üfürmək qarşılığında (pul alıb) yeyən kimsə (şübhəsiz bunun cavabını alacaqdır. Sən isə) haqq olan duanı oxuyub üfürmək ilə müalicə qarşılığında (aldığın pulu) yeyirsən.”*

*(Sünən Əbu Davud)*

*Əbu Səid əl-Xudri rəvayət etdi: “Peyğəmbər (sav) əshabələrindən bir dəstə səyahətə səyahətə çıxdılar və (gecə ikən) Ərəb qəbilələrindən bir camaata rast gəldilər. Onlar ikincilərdən onları qonaq etmələrini xahiş etdilər, amma o birilər etdilər. Bu vaxtda qəbilə başçısını ilan (və ya əqrəb) sancmıışdı və onlar onu sağaltmaq üçün əllərindən gələni etdilər, amma əbəs yerə. Onlardan biri o birilərinə dedi: “Heç bir şeyin xeyri olmadı, bəlkə gecəni burada keçirən adamlara gedəsiniz, onlarda nə isə ola bilər (müalicə üçün).” Onlar Səhabələrə yaxınlaşıb soruşdular: “Bizim tayfa başçımızı ilan sancıb və biz əlimizdən gələni etdik, amma heç nəyin ona xeyri olmadı. Sizdə (yararlı) bir şey varmıdır? Onlardan biri cavab verdi: “Vallah vardır! Mən Ruqyə[5] bilirəm, amma siz bizi qonaq etməkdən imtina etdiyiniz üçün bizə bunun qarşılığında ödəniş təyin etməsəniz mən sizə Ruqyə oxumayacam.” Onlar bir sürü qoyun verməyə razı oldular. Onlardan biri getdi və oxudu (əl-Fatihəni): “Həmd olsun Allah – aləmlərin Rəbbinə.” Sonra onun üzərinə üfürdü və başçı yaxşılaşd, sanki ilan zəhərindən təmizləndi. Razı olduqlarını*

[5] Şəfa ayələri və dualarını yazmaq, oxuyub xəstə üzərinə üfürmək.

*ödədilər. Səhabələrdən bəziləri qazancı aralarında bölməyi təklif etdilər, amma Ruqyəni oxuyan dedi: "Peyğmbərin (sav) yanına gedənə, bütün hadisəni ona danışana qədər onları bölməyin və onun buyuruğunu gözləyin"Beləliklə onlar Allah Rasulunun (sav) yanına getdilər və bütün hadisəni danışdılar. Allah Rasulu (sav) soruşdu: "Hardan bildiniz ki, əl-Fatihə surəsi Ruqyə olaraq oxunur" Sonra əlavə etdi: "Siz doğru etmisiniz. Bölşüdürün (qazancınızı) və mən də bir pay ayırın." Bundan sonra Peyğəmbər (sav) gülümsədi.*

*(Səhih Buxari)*

Bizim fikrimizcə - ən doğrusunu Allah bilir – yuxarıdakı hədislər işarə edir ki, əl-Fatihə surəsinin yeddi ayəsinin həqiqi Allah qulunu hətta namaz vaxtında belə ruhən zaman və məkanın yeddi ölçüsündən keçirmək və onu zamansız dünyada ruhən Allaha xüsusi yaxınlığa götürmək gücü var. Bu fenomen möminlərin Miracını təşkil edir. Başqa sözlə, ruhani səyahət namazın başlanğıcında əl-Fatihə surəsinin oxunması ilə başlayır. Fatihə surəsinin yeddi ayəsinin hər biri namaz qılanı yeddi Səməvətin və ya zaman və məkan ölçüsünün birinə aparır və Fatihəni bitirib Amin deyəndə o ruhən Ərşə (Allah hüzuruna) daxil olur. Bundan sonra o, Allahın xüsusi hüzurunda olur və Rikətin (və ya namazın bir dövrü) qalanı xüsusi ilahi hüzur içində qılınır.

Bəlkə də, mübarək Allah Rasulunun (sav) əl-Fatihə surəsini hər dəfə oxuyanda hər ayəni ayrıca oxumasının və iki ayəni heç vaxt birləşdirməməsinin səbəbi də bu idi. Bu, həmçinin başqa cür düşünənləri Bismilləhi[6] əl-Fatihə surəsinin birinci ayəsi kimi qəbul etməyə və nəticədə Salat (namaz) zamanı onun qalan altı ayə ilə birlikdə ucadan oxumaq zəruriyyətini qəbul etməyə məcbur edir.

Biz indi aşağıdakı yeddi dünyanın və ya zaman ölçüsünün mövcudluğunu qəbul edərək yekunlaşa bilərik:

1. Bir günü 50.000 ilə bərabər
2. Bir günü 1.000 ilə bərabər
3. Bir günü 300 ilə bərabər
4. Bir günü 100 ilə bərabər
5. Bir günü bir ilə bərabər
6. Bir günü bir aya bərabər
7. Bir günü bir həftəyə bərabər

Nəhayət, biz indi Dəccal və onun yer üzərindəki qırx günlük ömürü ilə bağlı müəmmalı hədisi nəzərdən keçirə bilərik.

**Dəccalın Zamanda Mövcudluluğu**

Heç kəs ilk olaraq zaman mövzusunu anlamadan yalançı Məsih Dəccal (Anti-Xrist) mövzusunu görə bilməz. Çünkü Muhəmməd Peyğəmbər (sav) "zamanı" aşkar şəkildə Dəccalın missiyasının mərkəzində göstərmişdir: ".. *o yer üzərində (Allah onu yerə buraxdıqdan sonra) qırx gün müddətində qalacaqdır. Bir günü bir il kimi, bir günü bir ay kimi, bir günü bir həftə kimi və bütün günlərini (yəni qalan bütün günləri) isə sizin günləriniz kimi" (Səhih Müslim).*

[6] Bismilləhir Rahmənir Rahim

Bu aydın olmalıdır ki, Dəccal bizim dünyada həqiqi şəkildə bizim dünyada ortaya çıxana qədər, harada ki, biz onu həqiqi olaraq gözlə görə biləcəyik, o, üç zaman və məkan ölçüsündən keçəcək. Bizim “Quranda Yerusəlim” adlı (Jerusalem in the Quran) kitabımızda Dəccalın Yerusəlimdə fiziki olaraq ortaya çıxana qədər ömrünün bu əvvəlki üç dövründə yer üzərində olacağını məkanı müəyyənləşdirmiş və izah etmişik.

Amma daha sonra suallar çıxır:

- Bir il kimi olan bir gün neçə vaxt çəkəcək?
- Bir ay kimi olan bir gün neçə vaxt çəkəcək?
- Bir həftə kimi olan bir gün neçə vaxt çəkəcək?

Bizim zaman ölçümüzdən fərqli olan məkan və zaman ölçüləri müşahidə edilə bilmədiklərinə görə “bir il kimi olan günü” ölçə bilmək üçün dəqiq riyazi düsturumuz ola bilməz. Nə də müşahidə və ağıllı bir cəhd ilə “bir ay kimi bə bir hədtə kimi olan günləri” ölçə bilmərik. Amma biz dəqiqliklə qəbul edə bilərik ki, Dəccalın üç zaman ölçüsündən keçəcəyi üç zaman dövrü elədirki, birncisi ən uzundur, ikincisi daha qısadır və üçüncüsü isə ən qısadır. *Onun dünyamızda ortaya çıxmasında əvvəl birincidən ikinciyə və nəhayət üçüncü zaman ölçüsünə keçidini müəyyən etmək və ya tanımağın yeganə yolu onun “ayaq izləridir”. Demək istəyirəm ki, tarixda hadisələrin ortaya çıxmasını izləməliyik və sonra Peyğəmərin (sav) hədislərini diqqətlə istifadə etməklə biz onun hərəkətlərini günbəgün izləyə və hətta qabaqcadan söyləyə bilərik.*

Məhz, bu metoddan istifadə edərək belə nəticəyə gəlmişik ki, biz indi Dəccalın yerdəki ömrünün və tarixi prosesin elə bir vaxtında yerləşirik ki, *“bir ay kimi olan gün” bitmək və “bir həftə kimi olan gün” isə başlamaq üzrədir.*

Dəccal bir il kimi bir gündə olanda biz Britaniya adasının onun qərargahı olduğunu və Britaniyanın dünyada hegemon dövlət olmağını müşahidə etdik. Sonra biz Dəccalın bir aya kimi bir günə irəliləyəndə ABŞ onun qərargahı oldu və ABŞ hegemon dövlət olaraq Britaniyanın yerinə keçdi. Biz indi bir ay kimi gün bitib bir həftə kimi gün başlayanda hegemon dövlət olaraq başqa dövlətin ABŞ-ın yerinə keçəcəyini görə bilərik.

Yazar inanır ki, elə bunu yazarkən, Avro-Yəhudi Dövləti İsrail məqam gözləyir ki, Fərat çayı və ətrafındakı zəngin neft resursları üzərində (yəni İran, İraq, Səudiyə Ərəbistanı, Küveyt, Körfəz ölkələri və s.) tam nəzarəti əldə etmək üçün müharibə başlatsın. Britaniya və ABŞ əlbəttə ki, İsrailə bu hücumda yardım edəcəklər.

Muhəmməd Peyğəmbər (sav) bu müharibləri (İraq nefti uğrunda AbŞ və Amerika hücumu və başlamaq üzrə olan İsrail hücumu) qabaqcadan xəbər vermişdi:

*Əbu Hureyrə rəvayət etmişdir: “Allahın Rasulu dedi: “Tezliklə Fərat çayının qızıl (dağa kimi) xəzinəsi açılacaq. Hər kim o zaman orada olarsa ondan bir şey götürməsin.” Əl-Ərac Əbu Hureyrədən rəvayət etdi ki, Peyğəmbər (sav) eyni şeyi dedi, amma burada, “Bu (Fərat) qızıl dağını aşkara çıxaracaq” dedi.*

*(Səhih Buxari)*

*Ubəyy ibn Kəb rəvayət etmişdir: “Mən Allah rasulunun(sav), “Fərat çayı tezliklə qızıl dağını aşkara çıxaracaq və insanlar bu haqda eşidəndə axın ilə ora gedəcəklər, amma buna (xəzinəyə)*

*sahib olanlar (deyəcəklər): "Əgər bu insanlara budan bir az götürməyə icazə versək hamısını götürəcəklər." Beləliklə onlar savaşacaqlar və yüzündən doxsan doqquzu öldürüləcək."deyərkən eşitdim..."*

*(Səhih Müslim)*

Mən inanıram ki, Fərat çayında aşkara çıxan qızıl dağa nəzarət uğrunda aparılan müharibə nəticəsində qabaqcadan söylənilmiş kütləvi ölüm (hər 100 nəfərdən 99-u) İraqdakı hesablanmış dəhşətli sayda insan ölümü kimi anlaşıla bilər. Mən inanıram ki, bu, gələcəkdə nüvə silahı kimi kütləvi qırğın silahlarından mümkün istifadə kontexstində daha da yaxşı başa düşülə bilər.

İnanıram ki, İsrail ərazisni "Nil çayından Fərat çayına qədər" geişləndirmək üçün böyük müharibə imkanından yararlanacaq və beləliklə Bibliyada qeyd olunan əfsanəvi sərhədlərinə nail olaccaq. Mən həmçinin gözləyirəm ki, eyni zaman da Amerikan dollarının, iqtisadiyyatının və gücünün o dərəcədə məhv olacağını gözləyirəm ki, İsrail hegemon dövlət olaraq ABŞ-ı əvəz edəcək! Nəhayət, İsrailin Peyğəmbərimizin (sav) "qızıl dağı" olaraq təsir ediyi neftə nəzarət uğrunda nüvə hücumu həm neftin və həm də qızılın qiymətində elə yüksəlişə səbəb olacaq ki, aldadıcı dolların əriməsini sürətləndirəcək. Neftin qiyməti onsuz da elə həddə çatmışdır ki, hər hansı növbəti yüksək artış İsrailə bütün dünyanı enerji girovunda saxlamaq imkanı verəcək. Beləliklə enerji hədəsi, Tanrının "seçilmiş qövmünə" dünyada yeni hegemon dövlət olaraq öz sözdə Müqəddəs İsrail dövlətini qurmaq üçün istifadə olunacaq.

Bəlkə də bu təvazökar yazar Dəccalla bağlı hədisi bu yolla şərh edən ilk şəxsdir, buna görə bu, şərhin qüvvəsini azaltmalı deyil, nə də İsrail zülmünə qarşı müqavimətimizi zəiflətməli deyil. Hadisələr aşkara çıxaraq davam etdikcə mübarək Peyğəmbərin (sav) hədisinə verdiyimiz şərhi təsdiqləyəcəyinə inanırıq, belə ki, bunlar sonda haqq və ədalətin qələbəsi ilə bitəcək. Madam ki, bizə aid olan şəxsi görüşdür, biz Quran və hədislərdə olan simvolizmlə bağlı şərhlərimizi "ən doğrusunu Allah bilir" ifadəsi ilə məhdudlaşdırmalıyıq.

Əgər biz nəhayət Dəccalın "bir ilə bərabər gündə" və "bir aya bərabər gündə" olduğu müddəti hesablaya bilsək, onda "bir həfətyə bərabər gündə" bitəcək təxmini müddəti, yəni əvvəlki günə nisbətən daha qısa olan günü hesablamaq üçün anlayışa sahib ola bilərik. "Bir həftəyə bərabər olan günün" sonunda biz mübarək Peyğəmbər (sav) tərəfindən qabaqcadan söyləndiyi kimi Dəccalın Yəhudi valideynlərdən düyaya gəlməyini və hələ cavan ikən İsraildə və dünyada idarəni ələ keçirməyini gözləyə bilərik. O zaman o, özünün Məsih olduğunu bəyan edəcək. Yəhudilər onun (yalan) iddiasını tam qəbul etdikdən sonra Dəccalın missiyası uğurla tamamlanmış olacaq.

Oxucular, Dəccalın müxtəlif zaman ölçüləri ilə əlaqəli olan üç mərhələli missiyasını – hansı ki, onun Yerusəlimdən dünyanı idarə etməsi və müzəffər kimi özünü vəd edilmiş Məsih elan etməsi ilə sona çatacaq – təsvir etdiyimiz kitabı oxumaq istəyə bilərlər.

*Uzun zaman çəkən birinci mərhələdə* Britaniya hegemoniyası qalan dünya üzərində görünməmiş müstəmləkə müharibələri elan etdi və nəticədə Müqəddəs Torpaqları "azad etməyə" nail oldu...

*Sonra əsas planın ikinci mərhələsində* – hansı ki, hələ də davam edir və birincisindən daha qısa müddətdə bitəcək – Amerika hegemoniyası Britaniya hegemoniyasını əvəz etdi və BMT-

nin Təhlükəsizlik Şurasının saysız vetoları ilə heç bir ölkəyə məhəl qoymayan, təcavüzkar və ekspansionist (işğalçı) Avro-Yəhudi Dövlətini sirli bir şəkildə müdafiə edərərək irəlilədi...

*Nəhayət, əsas planın üçüncü, son və ən qısa mərhələsində* ümumdünya məsihi (yalançı Məsih Dəccal) diktatorluğu olan Yəhudi dünya hegemoniyası Amerikanın dünya hegemoniyasını əvəz edəcək...

Quranda Yerusəlim kitabında qeyd etdiyimiz ən mühüm məsələ dünyanın indi elə bir zamanda yerləşməsidir ki, əsas planın ikinci mərhələsi bitmək və üçüncü mərhələ ilə əvəz olunmaq üzrədir.

İndi isə sevgili Peyğəmbərimizin (sav) Dəccalın "bir il, ay və həftə kimi olan günündə" necə ibadət etməli olduğumuzu izah etdiyi hədisin şərhini verməyə çalışacağıq. O bəyan etmişdir ki, biz gündəlik namazalar üçün zamanı hesablamalı olacağıq:

*Nəvvəs ibn Səmən rəvayət etmişdir: "Allahın Rasulu (sav) bir gün səhər Dəccaldan bəhs etdi. O, bəzən Dəccalı əhəmiyyətsizo olaraq, bəzən isə çox mühüm bir məsələ olaraq təsvir edirdi, (biz zənn etdik ki) sanki o, xurma bağında ağacların arasındadır.......Biz soruşduq: "Ey Allah Rasulu, o yer üzərində nə qədər qalacaq?" O cavab verdi: "Qırx gün, bir gün bir il kimi, bir gün bir ay kimi, bir gün bir həftə kimi and (qalan) bütün günləri sizin günləriniz kimi." Biz soruşduq: "Ey Allah Rasulu, bir günlük ibadətimiz bir ilə bənzər olan gün üçün bəs edərmi?" O dedi: "Xeyr, amma siz zamanın hesabını aparmalısınız....."*

*(Səhih Muslim)*

Uca Allah yeri yaratdıqdan sonra bizimkindən fərqli olan daha yeddi məkan və zaman dünyasını (səbəə səməvət) yaratdı. Bu dünyalar bizim dünya ilə Allahın Ərşi arasında yerləşir.

Mübarək Peyğəmbər (sav) dedi ki, Dəccal yerə buraxılanda o, üç müxtəlif məkan və zaman ölçüsündən keçərək yaşayaq. Bu üç ölçüdən keçidinin sonunda o, bu məkan və zaman dünyasına gələcək və onda onun günləri bizim günlərimiz kimi olacaq.

Əgər bir müsəlman bu Səbəəh Səməvətin (yəni yeddi məkan və zaman ölçüsünün) istənilən biriniə səyahət edə və daxil ola bilsəydi (mübarək Peyğımbərin (sav) Miracda etdiyi kimi), onda o hər bir Səmada Namazın vaxtlarını hesablamalı olardı. Eyni şey qəbirdə namaz qılmağa da aiddir. Mübarək Peyğımbər (sav) qəbirdə namazın mümkünlüyü haqqında bəhs etmişdir:

*Ənəs ibn Malik rəvayət etmişdir: "Allah Rasulu (sav) dedi: "Mirac səyahəti zamanı mən qırmızı qum təpəsinin yanında, qəbrində namaz qılarkən Musanın yanından keçdim."*

*(Səhih Müslim)*

*Cabir ibn Abdullah rəvayət etmişdir: "Allah Rasulu (sav) dedi: "Ölünün cəsədi qəbirə dəfn olunduğu zaman ona günəşin batması (mənzərəsi) ona göstərilir. Sonra o oturur və gözlərini ovur və deyir, "Mən elə qoyun ki, ibadətimi edə bilim"*

*(Sünən İbn Macə)*

**Muhəmməd Peyğəmbər, böyük plan və 666**

Mən inanıram ki, Muhəmməd Peyğəmbər (sav) yalançı məsih Dəccalın həqiqi Məsihi təqlid etmək və beləliklə Müqəddəs Torpaqlarda saxtakar İsrail Dövlətindən dünyanı idarə

etməklə nəhayət öz missiyasını başa vuracağı üç mərhələli böyük planı qabaqcadan xəbər verib. Peyğəmbər deyib ki, *"Dəccal buraxılanda o, yerdə qırx gün ömür sürəcək – bir gün bir il kimi, bir gün bir ay kimi, bir gün bir hədtə kimi və (qalan) bütün günləri sizin günləriniz kimi (səhih müslim).* O, həmçinin xəbər verib (Təmim Dari kimi tanınan hədisdə) ki, *Ərəbistandan bir aylıq məsafədə yerləşən, casusluqda ixtisaslaşmış ada Dəccalın çıxış yeri olacaq, yəni onun missiyasının "bir ilə bərabər olan gün" qədər çəkəcək birinci mərhələsində.* Mən inanıram ki, o Britaniyadan başqa hər hansı bir ada ola bilməzdi.

Bibliya yeni beynəlxalq elektron pul sistemini və Dəccalın Yerusəlimdən dünyanı edarə etməsi ilə nəticələnəcək eynilə bənzər üç mərhələli prosesi təsvir etmişdir. Bu orada belə bəyan edilir:

*"... və o, kiçiklərin və böyüklərin, zənginlərin və yoxsulların, azadların və qulların hamısının sağ əlinə, yaxud alnına damğa vurdurur. Belə ki, bu işarəni, yəni canavarın adını və ya onun adını işarələyən rəqəmi daşımayan şəxs nə bir şey sata bilsin, nə də satın ala bilsin. Belə vəziyyətdə hikmətli olmaq lazımdır. Anlaya bilən canavarın rəqəmini tapsın, çünkü bu, insanın rəqəmidir (işarə edir). O rəqəm altı yüz altmış altıdır."*

*(Bibiliya, Vəhy, 13:16-18)*

Bibliyanın dini simvolizmi aydınlaşdırıldıqda aşkar olur ki, Dəccalla bağlı olaraq altı yüz rəqəmi böyük planın birinci mərhələsinə aiddir, hansı ki, uzun müddət davam etdi və Bibliyadan sonraı dövürdə ilk hegemon dövlətin – Britaniya imperializminin yaranmasına səhnə oldu. Altmış rəqəmi indiki daha az müddət davam və ikinci hegemon dövlətin – Amerika hegemoniyasının yaranmasına səhnə olan mərhələyə aiddir. Nəhayət, altı rəqəmi böyük planın Dəccalın missiyasını bitirəcəyi və Yerusəlimdən – saxtakar İsrail dövlətindən (yəni Yəhudi hegemoniyası) dünyanı idarə etmək üçün insan şəklində meydana çıxacağı üçüncü və sonuncu mərhələsinə aiddir.

Aşkara çıxmaqda olan böyük planın Avro-Xristian xaç yürüşləri ilə lap başlanğıcından ən səciyyəvi xüsusiyyəti onun tanrısızlığı, düşkünlüyü, aldadıcılığı və vəhşi zülmü olmuşdur.

# FƏSİL 3

# SURƏ və SÜNNƏ

Quranın əl-Kəhf surəsi (18.Mağara surəsi) ilə bağlı Muhəmməd Peyğəmbərin (sav) sünnəsini müəyyən etməyə çalışarkən biz mübarək Peyğəmbərin (sav) həyatında və əshabələri ilə əlaqəli iki hadisəni nəzərdən keçiririk.

**Birinci hadisə**

Birinci hadisədən öyrənirik ki, Peyğəmbərin (sav) əshabələrindən biri olan Əbbəd ibn Bəşirə bütün surəni yadda saxlamağı buyurur.

Əgər Peyğəmbər (sav) hətta bir əshabəyə belə bunu buyurursa, onda Surənin yadda saxlanılmasını Peyğəmbərin (sav) Sunnəsi kimi qəbul oluna bilər. Biz çox ümüd və dua edirik ki, məhz bu hədis bizim oxuyucuları böyük şövqlə bu Sünnəni mənimsəməyə təşviq edəcək. Yəni əl-Kəhf surəsini əzbərdən yadda saxlamağa və sonra onu mümkün qədər çox namazda oxumağa cəhd göstərəcək. Əbbəd ibn Bəşirlə bağlı rəvayət olunan hadisə budur:

*"Əbbəd, soyuqqanlı şəkildə oxu bəədənindən çıxartdı və bütün diqqətini namaza verərək oxumağına (surəni) davam etdi. Hücumçular ikinci və üçüncü oxu atdılar və hər ikisi nişana dəydi. Əbbəd əvvəlcə birini, sonra ikincisini çıxardı. O qiyamı bitirib rukuya, sonra da səcdəyə getdi. Hələ də səcdədə ikən ağrı ilə yavaşca əlini uzatdı və öz yatan yoldaşını oyatdı. Əmmər oyandı. Əbbəd yavaşca namazını sona qədər qıldı və sonra dedi: "Oyan və mənim yerimdə gözətçi dayan. Mən yaralanmışam." Əmmər tullanıb qalxdı və səslənməyə başladı. Hücumçu onların ikisini bir yerdə görüb qaranlıqda gözdən itdi. Əmmər yerdə uzanan və yarasından qan axan Əbbədə tərəf döndü: "Yə Sübhənəllah! Oxla birinci dəfə vurulanda məni niyə oyatmadın?" "Mən Quranın ayələrini oxumağımın ortasında idim, hansı ki, qəlbimi sitayiş (Allaha) ilə doldurmuşdu və mən qiyamı yarımçıq kəsmək istəmədim. Peyğəmbər (sav) mənə bu Surəni yadda saxlamağı buyurmuşdu. Beləliklə, ölüm mənə bu Surəni yarımçıq saxlamaqdan daha yüngül gələrdi.": deyərək Əbbəd yoldaşına cavab verdi.*

*(Xalid Muhəmməd Xalid, "Riccal həvlə əl-Rasul"; "Men around the Messenger[7]" adı ilə nəşr olunub, İslamic Book Trust, Kuala Lumpur (www.ibtbooks.com). 2005, s.440)*

Əgər mübarək Peyğəmbər (sav) öz əshabələrindən birinə Quranın bir Surəsini əzbərləməyi buyurursa, bu o deməк deyil ki, bu bütün Müsəlmanlar üçün məcburidir, amma bu Sünnəyə çevrilir. Yuxarıdakından, eləcə də bir azdan deyəcəyimizdən belə nəticəyə gəlirik ki, əl-Kəhf Surəsinin əzbərlənməsi Sünnətdir. Hər kim Sünnə olan əməli yerinə yetirərsə və Allah onu qəbul etsə, onun qarşılığında səvab qazanacaq.

Bu yazar hicri təqvimlə 1424-cü ilin *Ramazanında* bu kitabı yazdığı müddətdə ruhani inziva olan "*İttikafa*" çəkilərkən əl-Kəhf Surəsini əzbərdən yadda saxlamaqla lütf olunmuşdur. O, Əbbəd ibn Bəşirin izi ilə gedərək namaza durub birinci dəfə namazda əl-Kəhf Surəsini başdan

---

[7] Peyğəmbərin ətrafındakı adamlar

ayağa oxuyanda dünyanın ona verə biləcəyi heç bir şeyə bənzər olmayan, tərif edilə bilməyən bir fərəh hissi keçirdi. Yazar dua edir ki, bu kitabı oxuyan da bənzər şəkildə bu surəni yadda saxlamağa və İnşa Allah namazda oxumağa ruhlansın.

**İkinci hadisə**

Peyğəbərin (sav) əshabəsi və əl-Kəhf surəsinin oxunması barədə olan ikinci hadisə Səhih əl-Buxaridən götürülmüşdür. Hədis əl-Kəhf surəsini oxuyan və Allah tərəfindən ilahi Səkinə (qəlbə daxil olan ruhani sükunət) ilə mükafatlanan (hansı ki, onun üzərinə bir bulud kimi endi və atını da qorxuzdu) əshabədən bəhs edir. Hədis aydın deyil ki, ilahi olaraq bəxş edilən Səkinə Quranın məxsusi Surəsini oxumağa görə ehsan edildi, yoxsa heç bir Surəyə isnad etmədən sadəcə Quranın özünü oxumağa görə bəxş edildi. Bizim fikrimizcə hər iki ehtimal doğrudur:

*Bəra ibn Azib rəvayət etmişdir: " (Əshəbələrdən) Biri atı qoşa kəndir ilə yanında bağlı ikən əl-Kəhf Surəsini oxuyurdu. Bulud və ya duman ona yaxınlaşdı, başının üstünü aldı və at (təşviş içində) vurnuxanadək yaxınlaşmağa davam etdi. Səhər olanda o, Peyğəmbərin (sav) yanına gəldi və hadisəni ona danışdı. Peyğəmbər dedi: "Oxumağına davam et, ey filankəs! Çünki o, Qurana görə nazil olmuş Səkinədir (sükunət)"*

*(Səhih Buxari)*

**Peyğəmbər və əl-Kəhf Surəsi**

Yuxarıdakı gözəl hədisdən müəyyən etdik ki, əl-Kəhf Surəsinin yadda saxlanması Sünnətdir. Həqiqətən, Peyğmbğər (sav) bu Surəni əzbərləməsini belə anmışdır:

*Abdullah rəvayət etmişdir: "Peyğəmbər (sav) dedi: "Bəni İsrail, əl-Kəhf, Məryəm, Taha və əl-Ənbiyə Surələri əzbərlədiyim ilk Surələrdir. Onlar mənim ilk mülkiyyətimdir."*

*(Səhih Buxari)*

İndi isə əl-Kəhf surəsinin təqdimatını Peyğəmbərin (sav) son dərəcə mühüm olan ifadəsi ilə davam etdirək, belə ki, inananların (möminlər) Surənin nurunu qazanmaq və yalançı Məsih Dəccalın fitnəsindən (aldatma, sınaq) qorunmaq üçün hər Cümə günü Kəhf Surəsini oxumaları zəruridir:

*Əbu Səid əl-Xudri rəvayət edir ki, Peyğəmbər (sav) demişdir: "Kim əl-Kəhf surəsini Cümə günü oxuyarsa, o Cümədən növbəti Cüməyə qədər nurdan (Surənin nurundan) aydınlıq qazanacaq."*

*(Nəsai, Bayhaqi, Hakim)*

*İbn Ömər rəvayət edir ki, Peyğəmbər (sav) buyurmuşdur: "Hər kim əl-Kəhf Surəsini Cümə günü oxusa, ona ayaqlarının altından səmanın zirvəsinə qədər nur bəxş olunacaq. Bu Haqq-hesab günü üçün ona nur olacaq və onun Cümə günləri, yəni camaat namazı günləri arasında olan günahları bağışlanacaq.*

*(Seyyid Səqib: "Fiqh əs-Sünnə" bəyan edir ki, bu hədis İbn Mərdviyə vasitəsilə nöqsansız zəncirlə rəvayət edilmişdir)*

Biz beşinci günə “Friday”[8] deməkdənsə ona mübarək Qurandakı təbiri ilə “Yum əl-Cumuə” deməyi üstünlük veririk. “Friday” adı Avropa Papası tərəfindən təsdiq edilməsinə rəğmən, bu ad bütpərəst mənşəyi olan ad olaraq qalmışdır. “Friday” bütpərəst tanrıçası olan “Fria” və gün (day) mənasını verən “daeg” sözlərinin birləşməsindən törəmişdir. Deməli, “Friday” sözünün mənası “tanrıça Frianın günü” deməkdir. Friday sözünün mənası ilə bağlı Encarta Ensiklopediyasının verdiyi məlumat budur: Friday (Anqlo-Sakson frigedaeg; qədim yuxarı german dilindən Fria, tanrıça; qədim İngilis dilindən Daeg, day), İngiliscə həftənin beşinci gününün adıdır...

Beləliklə, əl-Kəhf Surəsini sadəcə əzbərləmək deyil, həm də hər Cümə oxumaq Sünnətdir. Bizim ən xoş duamız budur ki, kitabı oxuyanlar həm Surəni əzbərləmək, həm də onu hər Cümə oxumaq Sünnəsi səylə təqib etsinlər.

Peyğəmbər (sav) həmçinin demişdir ki, mömin Dəccalla qarşılaşarsa bu Surənin ilk on ayəsini onun üzərinə oxusun və beləliklə Dəccal ona zərər yetirə bilmyəcək:

*Əbu Dərda rəvayət etmişdir ki, Allahın Rasulu dedi: “Hər kim əl-Kəhf surəsinin ilk on ayəsini əzbərləyərsə, o Dəccalın fitnəsindən qorunmuş olacaq.”* (Kitabın sonrakı fəslində əl-Kəhf Surəsinin bu on ayəsini göstərməyə və təhlil etəyə çalışmışıq.)

*(Səhih Müslim)*

*“Kim aranızda uzun yaşayıb onu (Dəccalı) görə bilsə, əl-Kəhf surəsinin başlanğıc ayələrini onun üzərinə oxusun” .”*

*(Səhih Müslim)*

*“Kim əl-Kəhf surəsinin başlanğıc üç ayəsini əzbərdən oxuyarsa Dəccal sınağından qorunmuş olar”*

*(Sünən Tirmizi)*

Surəni izah edərkən oxuyucuya İslamda yalançı Məsih Dəccal mövzusunu təqdim etməlikyik.

Dəccal haqqında ilk bildiyimiz şey odur ki, onun adı ilə aşkara çıxır. Peyğəmbər (sav) onu ad olaraq “əl-Məsih əl-Dəccal” tanıtmışdır. Əl-Məsih “qurtarıcı” deməkdir, Dəccal isə “yalançı, aldadıcı” deməkdir. Belə ki, o, Yəhudiləri onu Vəd Olunmuş Qurtarıcı kimi qəbul etmələri üçün aldadacaqdır, əslində isə o yalançı Məsihdir.

Uca Allah İsrail qövmünə əl-Məsih kimi tanınacaq, Müqəddəs İsrail Dövlətinin dünyanı Müqəddəs Torpaqlardan idarə etdiyi Qızıl Dövrü (yəni Süleyman (as) və Davud (as) zamanını) geri qaytaracaq xüsusi bir Peyğəmbər göndərəcəyini vəd vernişdi. Allah, Bakirə Məryəmin oğlu İsanın (as) şəxsində əl-Məsihi göndərək öz vədini yerinə yetirdi.

Bununla belə İsraillilərin çoxu İsanın (as) Məsih olmasını inkar etdilər. Həm də onun anasına iftira atdılar və onu nigahsız uşaq hesab etdilər. Beləliklə onlar onu Məsih olaraq qəbul edə bilmədilər. Nəticədə ona çarmıxa çəkilmə ilə sui-qəsd təşkil etdikdən və onun Yerusəlimdən dünyanı idarə etməmiş gözlərinin qabağında öldüyünü gördükdən sonra öz inkarlarını

[8] Bu kitabın əsli İngilis dilində olduğundan, yazar ingiliscə “Friday” deyil Cümə işlətməyi üstünlük verir.

qüvvətləndirdilər. Bundan əlavə, onun çarmıxa çəkilmə ilə ölümü onların gözünün qabağında onu Tövrata uyğun olaraq “Tanrının lənətə gəlmişi” kimi təsdiqlədi.

Yalançı Məsih hesab etdikləri birini öldürdükləri zamandan bəri onlar, İlahi vədi tamam edəcək həqiqi Məsihi gözləyirlər.

İsaya (as) inanmamaları və onu inkar etmələri, onu öldürmək üçün ona sui-qəsd hazırlamalaqla zalım olmaları və sonra da onu öldürməkləri ilə fəxr etmələri səbəbilə Uca Allah yaratdığı məxluqu, yəni Dəccalı – yalançı Məsihi dünyaya buraxmaqla cavab verdi. Onun missiyası onların onu həqiqi Məsih olaraq qəbul etmələri üçün aldatmaq olacaqdır. Hadisələrin gedişatında o, mükəmməl yalan ilə onları aşağı Cəhənnəmə gedən yola yuvarlayacaqdır. Buna görə də əl-Kəhf Surəsi, Dəccal və Yəhudilər qarşılıqlı olaraq bir-biri ilə bağlıdırlar.

Dəccal mövzusuna giriş eyni zamanda olan Yəcuc (Gog) və Məcucun (Magog) dünyaya buraxılması mövzularına girişi də ehtiva etməlidir. Bu, Quranda verilmiş bir işarədir ki, onların buraxılması da Yəhudilərlə bağlı olan bir işarədir. Digər əlaqəli mövzu zülmkar və saxtakar İsrail Dövlətini məhv edən Müsəlman ordusuna rəhbərlik edəcək olan İmam əl-Mehdinin gəlişidir. Nəhayət, İsanın (as) qayıdışındakı etiqadı nəzərdən keçirmədən mövzu anlaşıla və sona çatdırıla bilməz. Onun qayıdışı İudaizim və Xristianlığın sonuna və Haqq din İslamın qələbəsinə şahid olacaq.

İndi isə əl-Kəhf surəsinin nazil olmasındakı tarixi səhnəyə baxaq, çünki bu, Yəhudilər haqqında daha dərin məlumat verir.

# FƏSİL 4

# KƏHF SURƏSİNİN NAZİL OLMASINDA TARİXİ SƏHNƏ

## İslam təhlükəsi

Muhəmməd Peyğəmbərin (sav) doğulmasından min illər əvvəl, İsmail Peyğəmbər (as) zamanından bəri bütpərəst ərəblərin arasında Uca Allahın Peyğəmbəri yaşamamışdı. İbrahimin və oğlu İsmailin (as) dini təhrif olunmuşdu, belə ki, görünməyən Allaha ibadət etməklə yanaşı onlar bütlərə də ibadət edirdilər. Onlar Allahı ibadət etdikləri digər çoxlu tanrılardan biri hesab edirdilər. Çöllükdə uzun müddət ilahi vəhydən və peyğəmbər təlimindən məhrum qalamlarına rəğmən onlar hələ də İbrahimin həqiqi dininin bəzi ünsürlərini saxlamışdılar.

Misal üçün, İbrahim (sav) Məkkədə Allahın Evi və ya Məbədi olan Kəbəni tikmişdi və o Müqəddəs Evə illik Həcc (zəvvarlıq) mərasiminin əsasını qoymuşdu. Bütün ərəblər o Məbədə ehtiram göstərirdilər və İbrahimin (sav) onu tikməsindən min illər sonra da Həcc mərasimini yerinə yetirməyə davam edirdilər. İsmailin (as) nəsil şəcərəsi olan Qureyş qəbiləsi bütün ərəblər tərəfindən Kəbənin qoruyucuları olaraq tanınırdılar və bu onlara sadəcə ərəblər arsında şöhrət gətirmədi, eləcə də imtiyaz və var-dövlətə çevrildi.

Birdən Qureyş qəbiləsində doğulan və onların arasında böyüyən bir nəfər özünün İbrahim və İsmail (as) kimi Uca Allahın Peyğəmbəri olduğunu bəyan etdi. Muhəmməd (sav) bütlərə və ərəblərin büt tanrılarına ibadət etməydən imtina etdi. O, bütpərəstliyin və çox tanrılığın yalnış olduğunu bəyan etdi. O, bəyan etdi ki, Allahdan başqa ilah yoxdur, İbrahimin, İshaqın, İsmailin, Musanın, Davudun, Süleymanın, İsanın (as) Rəbbi olan, görünməyən tək Tanrı. O bəyan etdi ki, Allahın nə qızları var, nə də onun heç vaxt oğlu olmamışdır. O, heç vaxt insan simasında görünməmişdir (nə Misirdə, nə Hindistanda, nə Ərəbistanda, nə Bətləhəmdə, nə də Çikaqoda). Allah heç vaxt heç bir formada ortaya çıxmamışdır – nə taxta, nə də mərmər, daş. Allah bütün insanların Rəbbidir – ərəblərin, eləcə də qeyri ərəblərin, ağların, eləcə də qaraların. O, Məkkənin və Qureyşin, eləcə də bütün digər şəhərlərin, bütün digər qəbilələrin və bütün digər irqlərin Rəbbidir.

Muhəmməd (sav) bəyan etdi ki, Allah bütün insanları “darağın dişləri kimi bərabər” qəbul edir. O, azad kişi və qadınların, eləcə də kölələrin Rəbbidir. Muhəmməd (sav) zəiflərə, kasıblara, əcnəbilərə, yolçulara, kölələrə, qadına və uşaqlara zülm daxil olmaqla zülmün bütün növlərinin günah olduğunu bəyan etdi. O, həmçinin, heyvanlara qarşı pis davranmağı da qadağan etdi.

Onun moizə verərək nəsihət etdiyi İslam dini Ərəb cəmiyyətinin üzərində qurulduğu bütün hegemonluq və zülm sistemini təhlükə altına qoyurdu. Ona görədə bu, mövcud nizama qarşı mühüm təhdid idi. Bu gün də İslam müasir Yəhudi-Xristian Avro-dünya-nizamına olan tanrısızlığa, əxlaqsızlığa, düşkünlüyə və amansız barbarik zülmə qarşı təhlükə olaraq qalır. Əslində, bu, birlikdə misilsiz barbarik zülmü ilə seçilən Avro-dünya-nizamını qurmuş və onu saxlamaqda olan qüdrətli Avropalı (ağ) zülmkarlar və onların təsiri altında olanlara qarşı təhdid oyadan dünyada yeganə qüvvədir.

Qureyş Muhəmmədin (sav) bəyanlarından və moizələrindən dəhşətə dəlirdi. O, onların dini, sosial, iqtisadi və siyasi nizamlarının lap təməlini sarsıdırdı. Əslində təhlükə ondan da böyük idi! Ərəblər özlərinin ədəbi qabiliyyətlərinə görə fəxr edirdilər.

Baxmayaraq ki, ərəblərin əksəriyyəti nə yaza, nə də oxuya bilirdi, onların çox inkişaf etmiş dilləri (Ərəb dili) və şeriyyətə çox böyük ehtiramları var idi. Onlar öz şairlərinə ehtiram göstərirdilər və onları cəmiyyətdə yüksək mövqeyə qoyurdular. Ona görə də bu ərəblərə çox sarsıdıcı idi ki, Muhəmmədin (sav) dilindən mükəmməlikdə Ərəbistanın görə bildiyi ən yaxşı şeriyyəti geridə qoyan Quran (hərfi mənada "oxumaq") axacaqdı. O Quran özünü hamıdan güclü hesab edən şübhəli ərəbləri döyüş meydanına çağırırdı və onlar özlərini onun ictimai çağırışına cavab verməkdə aciz görürdülər. Quran həmçinin, onun tək olan Allahın kitabı olduğuna şübhə edən bütün insanları onun bir surəsinə bənzər bir fəsil yazmağa dəvət edirdi. İslam təhlükəsi bütpərəst Ərəbistanın o vaxta qədər heç vaxt yaşamadığı bir təhlükə idi. Bu onlar üçün ağır vəziyyət idi.

Bütpərəst Ərəbistan o çağırışa necə cavab verəcəkdi? Onlar nə edə bilərdilər? Onların sınadıqları hər şey İslamı dayandırmaqda iflasa uğradı. Onlar öz aralarında məsləhətləşdilər və qərara gəldilər ki, şimal şəhəri olan Yəsribdə (indiki Mədinə) yaşayan yəhudilərdən kömək istəsinlər. Onlar Ravvindən (yəhudi ruhanisi, xaxam) soruşdular ki, "Biz necə deyə bilərik ki, Muhəmməd (sav), hıqiqətən də İbrahim və Musa (as) kimi həqiqi peyğəmbərdir? Yəhudinin bu suala cavabı nəticəsində Uca Allah Quranın əl-Kəhf Surəsini endirdi. Quran Ravvin tərəfindən cavab olaraq qoyulan sualları xatırlatmaqla Surə ilə Yəsrib missiyası arasındakı əlaqəni özündə saxlayır:

*"(Ya Rəsulum!) Səndən Zülqərneyn barəsində soruşarlar (yəni Yəsrib Ravvini). ..."*

*(əl-Kəhf surəsi, 18:83)*

*(Ya Rəsulum!) Səndən ruh haqqında soruşarlar (yəni Yəsrib Ravvini). ..."*

*(Bəni İsrail surəsi, 17:85)*

Bizim indi baxdığımız Yəsrib missiyasının tarixi Surə ilə Yəhudilər arasındakı əlaqəni izah edir.

**Yəsrib (Mədinə) missiyası**

Qureyş yəhudilərlə məsləhətləşmək məqsədilə Məkkədən 300 kilometr şimalda yerləşən Yəsrib şəhərinə (indi adı Mədinə əl-Nəbi və ya qısaca Mədinədir) içlərində Nədr ibn Haris və Uqbə ibn Əbu Muaytın olduğu nümayəndə heyəti göndərmək qərarına gəldi. Onlar nümayəndə heyətini aşağıdakı kimi təlimatlandırdılar:

*"Onlardan Muhəmməd haqqında soruşun; onu onlara təsvir edin və nə dediyini onlara söyləyin, çünki onlar müqəddəs kitablara sahib ilk millətdirlər və Peyğəmbərlər haqqında bizim sahib olmadığımız biliklərə sahibdirlər."*

*("The Life of Muhammad[9]" – İbn İshaqın "Sirat Rasul Allah" əsərinin tərcüməsi. Tərcümə etmişdir A.Guillaume, Oxford University Press, Qaraçı, 1982, s.136)*

[9] Muhəmmədin həyatı

Mədinədə böyük yəhudi icması var idi və Peyğəmbərlərinin hər zaman aralarında yaşaması ilə tanınırdılar. Muhəmməd (sav) bəyan etmişdir ki, Musanın (as) dövründən İsaya (as) qədər Yəhudilərin aralarında Peyğəmbərlərinin yaşamadığı dövr olmamışdır! Qureyş düşündü ki, madam Yəhudilərin Peyğəmbərlər haqqında belə yaxın təcrübəsi və geniş biliyi var, Muhəmmədin (sav) Peyğəmbərlik barədə iddiasının doğruluğu ilə bağlı ən yaxşı məsləhəti onlar verə bilərlər.

Əslində Ərəbistan da bilirdi ki, Yəhudilərin ərəb şəhəri olan Yəsribə köç etmələrinin səbəbi onların Peyğəmbərin Yəsribdə gəlməsini gözləmələri idi. Həqiqətən də illər ərzində belə elan edirdilər (dağların təpəsindən qışqıraraq): "Peyğəmbər gəlir! Peyğəmbər gəlir! O, gələndə bizim Peyğəmbərimiz olacaq. O, bizi gücləndirəcək və biz düşmənlərimizə qalib gələcəyik." Yəhudilər daha çox onlara İlahi bir vəd olan və əl-Məsih kimi tanınacaq Peyğəmbərin gəlişini gözləyirdilər. Onlar Peyğəmbərin dünyaya və məhz Yəsribə gəlməsinin ruhani əlamətlərini görəndə onlar təbii olaraq nəticəyə gəldilər ki, bu Məsih olmalıdır. Əgər o, Məsih deyildisə, yəhudilərə qardaş qövmdən "Musaya bənzər" bir Peyğəmbər ola bilərdi ya da İlyas ola bilərdi. Xalqı İlyasa əziyyət vermişdi və sirli bir şəkildə göylərə qalxmışdı. Ona görə belə bir inam formalaşmışdı ki, o, bir gün qayıdacaq.

Qureyş nümayəndə heyəti Peyğəmbəri gözləyən və onu tanımaq və ayırd edə bilmək üçün müvafiq vasitələrə sahib olan yəhudi Ravvinlərinə yaxınlaşdı. Yəhudilərin çoxdan gözlənilən Peyğəmbəri tanımaq üçün meyarları nə idi? Onlar heyətə nə məsləhət gördülər?

**Üç Sual**

Yəsribli yəhudi Ravvinləri Muhəmmədə (sav) üç sual verməyi Qureyşə məsləhət gördü:

*"Ondan bizim sizə təlimatlandıracağımız üç şey haqqında soruşun. Əgər sizə doğru cavab versə, deməli o, həqiqi Peyğəmbərdir, amma əgər verməsə, deməli o fırıldaqçıdır, onun haqqında istədiyiniz fikri şəkilləndirə bilərsiniz:*

*Ondan keçmişdə yoxa çıxmış cavanların başına nə gəldiyi barədə soruşun, çünki onların heyrətamiz bir əhvalatı var;*

*Ondan həm Şərqin, həm də Qərbin hüdudlarına çatmış böyük səyyah barədə soruşun;*

*Bir də, ondan soruşun ki, ruh nədir.*

*Əgər o, suallara düzgün cavab verə bilsə, onun arxasınca gedin, çünki o həqiqi Peyğımbərdir. Əgər bacarmasa, onda o saxtakardır və onunla istədiyiniz kimi davrana bilərsiniz."*

*("The Life of Muhammad" – İbn İshaqın "Sirat Rasul Allah" əsərinin tərcüməsi. Tərcümə etmişdir A.Guillaume, Oxford University Press, Qaraçı, 1982, s.136)*

Şübhəsiz ki, Ravvinlər Muhəmmədlə (sav) qarşıdurmanın nəticəsi ilə çox maraqlı olmalı idilər. Onlar həqiqətən də, bu üç suala cavabı bilmək istəyirdilər. Əgər o, doğrudan da, Peyğəmbər olsaydı onlar şübhəsiz təəccüblənərdilər, çünki onlara görə Peyğəmbərlik ancaq onların müstəsna üstünlüyü idi. Onlar bu gün də inanırlar ki, İbrahimdən (sav) sonra heç kəs yəhudi olmadıqca Peyğəmbər ola bilməz. Nəyə görə bu belə idi?

Baxmayaraq ki, İsmail (as) da İbrahimin (sav) oğlu idi, Tövratın təhrif edilməsi ilə orada bəyan edilir ki, o "insanlığın vəhşi eşşəyidir" və Uca Allahın İbrahim (sav) nəsli ilə bağladığı

əhddən istisna edilir. Yəhudilər təhrif edilimiş Tövrata inanırlar və Peyğəmbərin İsmail (as) nəslindən çıxa bilməsini qeyri-mümkün hesab edirdilər. Muhəmməd (sav) ərəb idi və bu səbəblə İsmailin (as) nəslindən idi. Ancaq bu, onların qarşıdurmanın nəticəsinə maraq göstərmələrinin önünü almadı. Hər halda, əgər Muhəmməd (sav) suallara cavab versəydi, Qureyş cavabların doğruluğunu yoxlamaq üçün onların yanına qayıtmalı idi.

Nəhayət, suallara cavab Quranda nazil oldu, amma təccüblü deyil ki, Səhih Buxaridəki hədisdə açıq qeyd edilir ki, Ravvinlər bu cavabları öz xalqlarından gizlətmiş olmalı idilər, çünki onların bəziləri hələ də cavablarla bağlı çox cahil (xəbərsiz) idi. İllər sonra, Peyğəmbər (sav) Mədinəyə hicrət edəndə bəzi yəhudilər ona yaxınlaşırdı və eyni üçüncü sualı soruşurdu (yəni ruhla bağlı). O, Uca Allahın ona vəhy etdiyi kimi Qurandan oxumaqla onlara cavab verirdi. Amma hədisdə qəribə şəkildə göstərilir ki, bu, o vaxt nazil olmuşdur:

*Abdullah rəvayət etmişdir: "Mən Peğəmbər (sav) ilə Mədinənin xarabalıqları ilə gəzəndə o, xurma ağacının yarpaq sapına söykənərkən bir neçə yəhudi yaxınlıqdan keçirdi. Bəziləri o birilərinə dedilər: "Ondan ruh haqqında soruşun." Digərləri isə dedilər ki, ondan o sualı soruşmayın, çünki o, bizi məmnun etməyən cavab verə bilər. Amma onlardan bir neçəsi soruşmaqda təkid etdi və biri soruşdu: "Ey Əbul-Qasım[10]! Ruh nədir?" Peyğəmbər (sav) sakit dayandı. Mən düşündüm ki, o, İlahi vəhy alır. Beləcə mən Peyğəmbər (sav) dayandığı müddətdə dayandım. Sonra Peyğəmbər (sav) oxudu:*
*"(Ya Rəsulum!) Səndən ruh haqqında soruşarlar. De: "Ruh Rəbbimin əmrindədir. (Allahın əmri ilə yaradılmışdır). Sizə (bu barədə) yalnız cüzi bir bilik verilmişdir!" (Quran, Bəni İsrail, 17:85)*

*(Səhih Buxari)*

Bu, şübhəli hədis bizə elə gəlir ki, yanlış məlumat verir, nəticədə çaşdırıcı səciyyə daşıyır. İbn İshaq bu hədisəni bir az fərqli olaraq belə rəvayət edir ki, məhz Yəsribli yəhudi Ravvinləri Peyğəmbərin (sav) şəhərə (yəni Mədinəyə və ya Yəsribə) hicrətindən sonra ona yaxınlaşdılar və ondan soruşdular:

*İbn Abbasdan mənə rəvayət edildi ki, o demişdir: "Peyğəmbər (sav) Mədinəyə gələndə yəhudi Ravvinləri ondan soruşdular: "Sən deyəndə ki, "Sizə (bu barədə) yalnız cüzi bir bilik verilmişdir" bizi qəsd edirdin yoxsa öz camaatını?" O dedi: "Hər ikinizi."*

*(İbn İshaq, a.k.ə., s.139)*

Ravvinlərin Peyğəmbərin (sav) ruhla bağlı suala cavab ilə əlaqədar olaraq sual verməsi faktı, göstərir ki, suala cavabı ehtiva edən vəhy daha əvvəl nazil olmuşdur və bu, artıq Peyğəmbərin (sav) Mədinəyə hicrətindən qabaq şəhərə gəlib çatmışdır.

Nümayəndə heyətinin Məkkəyə qayıdışından sonra Qureyş Peyğəmbərə (sav) yaxınlaşdı, ona üç sualı verdilər və əgər həqiqi Peyğəmbərdirsə, onu bu suallar düzgün cavab verməyə dəvət etdilər! Peyğəmbər (sav) bir anlıq dayandı və sonra bəyan etdi ki, suallara növbəti gün cavab verəcək, fəqət "İnşə Allah" (yəni Allahın izniylə) deməyi unutdu (İbn İshaq, a.k.ə., s.136).

[10] Peyğəmbərin (sav) ləqəbi

Yazar bu fikirdədir ki, ola bilsin Uca Allah Peyğəmbərə (sav) “İnşə Allah” deməyi unutdurmuşdur və nəticədə “İnşə Allah” ifadəsi əl-Kəhf Surəsi və müasir zaman mövzusunda mühüm əhəmiyyət kəsb etmişdir. Bu əhəmiyyət nədən ibarətdir?

Fikrimizcə Alim (hər şeyi bilən) Allah diqqətimizi elə bir dövrə yönəltmişdir ki, o dövrdə “İnşə Allah” kimi müqəddəs (dini) sözlər müasir dildə istifadə olunan dilin lüğət tərkibindən yoxa çıxacaqdır və belə bir zaman gəlib çıxsa, bu, möminlərə işarə olacaqdır ki, insanlığın ən böyük sınaq dövrü gəlib çıxmışdır. Bu kitab xəbərdarlıq edir ki, “İnşə Allah” kəliməsi artıq müasir dövrün lüğət tərkibindən yoxa çıxmaqdadır!

Qureyş növbəti gün Peyğəmbərin (sav) vəd etdiyi cavablar üçün ona yaxınlaşdı. Cəbrayıl (as) ona cavabları çatdırmaq üçün varid olmadığına görə Peyğəmbərin (sav) cavabı yox idi. Bu bir neçə gün davam etdikcə Müsəlmanlar üçün utanc və Qureyş üçün sevinc mövzusu oldu. Həqiqətən də, Cəbrayıl (as) nəhayət varid olana qədər iki həftə çəkdi və Uca Allah əl-Kəhf Surəsini nazil etməklə suallara cavab göndərdi. Məsələ ilə bağlı İbn İshaq qeyd edir:

*“Bu gecikmə Peyğəmbərin (sav) böyük hüznünə səbəb oldu. Sonra Cəbrayıl (as) ona əl-Kəhf Surəsini gətirdi (hansında ki, onu hüznünə görə qınamaqdadır) və onların suallarının cavablarını söylədi”*

*(İbn İshaq, a.k.ə., s.137)*

İki sualın cavabı əl-Kəhf Surəsindədir. Ruhla bağlı üçüncü sualın cavabı isə Bəni İsrail (və ya əl-İsra, 17-ci surə) Surəsindədir.

İslamın görkəmli alimi Mövlanə Əbdül Alə Məvdudi Ruhla bağlı sualı istisna etmişdir və əvəzində iddia etmişdir ki, üç sualın üçüncüsü əl-Kəhf Surəsində Musa (as) ilə əhvalatı təsvir olunan Xızır (as) ilə bağlıdır:

*“Bu Surə Məkkə müşriklərinin Kitab əhli ilə məsləhətləşərək mübarək Peyğəmbəri (sav) sınamaq üçün verilən üç suala cavab olaraq göndərilmişdir. Bu suallar aşağıdakılardır: “Mağarada yatanlar kimlər idi?, Xızırın əhvalatı necə idi?, Zülqərneyn barədə nə bilrisən?.*

*(Məvdudi, “Təfiməl Quran”ın ingiliscə tərcüməsi, “Itroduction to Surah al-Kahf”[11])*

Belə görsənir ki, Mövlanə hər üç saualın cavabının əl-Kəhf Surəsində verilməsini istərdi və bəlkə də, onun Ruhla bağlı sualı istisna etməsi və onu Xızır və Musanın (as) əhvalatı ilə əvəz etməsinin səbəbi də budur. Amma Mövlanənin iddiası tamamilə mübahisəlidir, çünki yəhudilərin Xızırın (as) əhvalatı ilə bağlı biliyinin olmasını Muhəmmədin (as) peyğəmbərliyi üçün dəlil hesab etmələri həqiqətə uyğun olmazdı. Hər halda Xızır (as) göstərdi ki, Musa (as) əhvalatda rəvayət olunan üç hadisəni anlamaqda yanılmışdı. Həmçinin nəzərə alaq ki, Musa (as) yəhudilərin ən üstün Peyğəmbərlərindən biri hesab olunur. Əgər yəhudilər Xızır (as) barədə biliyin Peyğəmbərlik üçün dəlil olduğunu hesab etsəydilər, onlar daxili intuitiv ruhani biliyə malik Xızırın (as) yerini müəyyənləşdirə və onun arxasınca gedərdilər. Amma, bunun əvəzinə onlar tarix boyu həmişə yaşamağın və müvəffəqiyyətin əsas tələbi olaraq Tövratdan törəmiş zahiri qanuni biliyə sarılıb qalmışlar. Bu məsələdə Mövlanə Məvdudinin iddiası ilə razı deyilik.

---

[11] əl-Kəhf Surəsinə giriş

Alim Allahın iki suala cavabı əl-Kəhf Surəsində, üçüncü suala cavabı isə Bəni İsrail surəsində yerləşdirməsi faktı göstərir ki, Quranın bu iki Surəsi bir-birilə əlaqəlidir və onlar birlikdə tədqiq olunmalıdırlar. Biri digərini izah etməyə yardım edir. Biz qeyd etdik ki, əl-Kəhf Surəsi yalançı Məsih Dəccalın (hansı ki, yəhudiləri hədəf alaraq aldadacaq və onları son məhvə aparacaqdır) fitnəsindən qorunmaq üçün hər Cümə günü oxunmalıdır. Biz həmçinin qeyd etdik ki, əl-Kəhf Surəsi yəhudilərin Peyğəmbərliyi yoxlamaq üçün Ravvinllərin bütpərəst ərəblərə məsləhət gördüyü üç suala cavab olaraq göndərilmişdir. Beləliklə, təəccüblü deyil ki, əl-Kəhf Surəsi Quranın yəhudilərin adı ilə adlanan Susəri ilə əlaqəlidir. Əslində bu, əl-Kəhf Surəsi ilə yəhudilər arasında üçüncü əlaqəni təşkil edir.

Mədinəli yəhudi Ravvinlər bəyan etdilər ki, əgər üç suala düzgün cavab versə Muhəmmədi (sav) İbrahimin Allahının həqiqi Peyğəmbəri kimi qəbul edəcəklər. Yalnız xüsusi biliyə malik həqiqi Peyğəmbər belə sirli bilikdən xəbərdar ola bilər. Yəhudi Ravvinlər İsrail qövmünə gələn uzun və davamlı Peyğəmbər silsiləsinə görə belə biliyə sahib idilər. Onlar arxayın idilər ki, Muhəmməd (sav) bu suallara cavab verə bilməyəcək və bu səbəblə onlar ehtimal belə etmirdilər ki, yəhudi olmayan, yazı-pozu bilməyən bir ərəbi İbrahimin Allahının həqiqi Peyğəmbəri kimi qəbul etməli olarlar.

Sualların diqqətli tədqiqi göstərir ki, Ravvinlər Peyğəmbəri (sav) sınayırdılar və onlar sualların sadə cavabı ilə maraqlı deyildilər. Daha doğrusu onlar həqiqi sulları verdikləri sualların arxasında gizlətmişdilər. Həqiqi suallar hansılar idi?

Biz inanırıq ki, onlar sualı elə məharətlə qoymuşdular ki, Muhəmməd Peyğəmbərin (sav) Dəccal, Yəcuc vəə Məcuc barədə biliyinin olub olmadığını yoxlasınlar. Bunlar Uca Allahın yaratdığı güclü və təhlükəli varlıqlar idi ki, onları Axır Zamanda dünyaya buraxacaqdı. Uca Allah bu varlıqları dünyaya buraxanda onları insalığı sınamaq, eləcə də cəzalandırmaq üçün istifadə edəcəkdi. Bu sınaqlardan və fitnələrdən müvəffəqiyyətlə keçə biləcək yeganə insanlar Uca Allaha və İbrahimin (sav) həqiqi dininə imanı olanlar və Muhəmməd Peyğəmbəri (sav) imanla izləyənlər olacaq. Qalan bütün insanlar aldanacaq, yaxud başqa cür desək imanlarını itirəcəklər. Axır Zamanın "Qloballaşması" nəticəsində yaranmış fundamental tanrısız cəmiyyət belə insanları udacaq və onları cəhənnəm alovuna daşıyıb aparacaq! Peyğəmbər (sav) xəbərdarlıq etmişdirk ki, Yəcuc və Məcuc insanların hər 1000 nəfərindən 999-nu özlərinin tanrısız surətinə çevirəcək (Əhlu Yəcuc və Məcuc) və onların hamısı cəhənnəm alovuna girəcəklər (Səhih Buxari).

Ravvin birbaşa Dəccal haqqında soruşmaq əvəzinə qədimdə mağaraya qaçaraq xilas olmuş və möcüzəli sınaq yaşamış bir neçə gənc haqqında soruşur. Sonra birbaşa Yəcuc və Məcuc haqqında soruşmaq əvəzinə onlar yerin uzaq kənarlarına qədər səyahət etmiş səyyah barədə soruşdular. Ruhla bağlı olan üçüncü sual isə digər ikisindən strateji olaraq fərqlidir. O birbaşa sualdır, bu səbəblə görünür onun strateji funksiyası çaşqınlıq yaradan ünsürlərdən biri olmuşdur.

**Suallara üç cavab**

**Ruh**

Ruhla bağlı sual olduqca hiyləgər idi. İnsanın qəlbi yaxud canı Ruh olaraq bilinir. Ruh ul-Quddus və ya Mələk Cəbrayıl da. Nəhayət, Allah insana Öz Ruhunu üfürdüyünü bəyan edərkən

düşünmək olar ki, O da İlahi Ruha sahibdir. Uca Allah üçüncü suala cavabı Quranda belə nazil etmişdir:

*“(Ya Rəsulum!) Səndən ruh haqqında soruşarlar. De: “Ruh Rəbbimin əmrindədir. (Allahın əmri ilə yaradılmışdır). Sizə (bu barədə) yalnız cüzi bir bilik verilmişdir!”*

*(Quran, Bəni İsrail, 17:85)*

Sual birbaşa olduğuna görə cavab da bənzər şəkildə birbaşa idi. Amma yuxarıda qeyd olunan ehtimallar bu qısa cavabda eyni zamanda ünvanlanmışdır. Qısaca sual ötürülmüşdür. Bu cavab Mədinədə yəhudilərə çatdı. Peyğəmbər (sav) özü Mədinəyə köçəndə yəhudilər ona cavab barədə sual verdilər. Onlar bilmək istəyirdilər ki, “*Sizə yalnız cüzi bir bilik verilmişdir*” ayəsində kimə istinad edilir? Az bilik verilənlər yəhudilərdir yoxsa ərəblər? “Hər ikisi” deyə Peyğəmbər (sav) cavab verdi.

Bu əhmiyyətlidir ki, yuxarıdakı suala cavab İlahi iradə ilə Bəni İsrail Surəsində, digər iki suala cavab isə yenə də İlahi iradə ilə növbəti, yəni əl-Kəhf Surəsində yerləşdirilmişdir.

Beləliklə ilahi iradə təsdiq edir ki, birinci sualla digər iki sual arasında strateji fərq var və bu sadə üsulla strateji fərqi yəhudilərə, eləcə də başqalarına bildirmişdir. Bu hansı fərqdir?

**Böyük səyyah**

Surə böyük səyyahla bağlı ikinci suala onu Zülqərneyn adlandıraraq birbaşa və dərhal cavab verdi. Surə sadəcə onun Şərqə və Qərbə səyahətlərini təsvir etmir, heyrətamiz bir şəkildə, verilən sualın arxasında gizlənən həqiqi sualı, yəni Yəcuc və Məcucu ünvanlamaqla davam etdi. Bunu, üçüncü səyahəti təsvir edərkən etdi. Bu kifayət qədər aydındır ki, sualın həqiqi hədəfi Qiyamətin əsas əlamətlərindən biri olan Yəcuc və Məcuc idi. Şübhəsiz bu, elə bir sual idi ki, o barədə yalnız Peyğəmbərin xəbəri ola bilərdi. Sual elə bir sual idi ki, hədəfinə bilavasitə çatdı. Bu mənada Ruhla bağlı sualdan fərqlənirdi.

**Cavanlar və mağara**

Kəhf Surəsi yuxarıdakı suala cavabla başlayır. Cavab elə ifadə edildi ki, məxsusi olaraq verilən sualı birbaşa və təfərrüatıyla ünvanladı, eyni zamanda onun arxasında gizlənən həqiqi suala bilavasitə cavab verdi. Bu sual ancaq Yəcuc və Məcuc kimi, yalnız Peyğəmbərin bilə biləcəyi mövzuda ola bilərdi.

İkincisi, bu, böyük ehtimalla Qiyamətin əlamətləri ilə bağlı sual ola bilərdi. Sualın həqiqi hədəfi nə idi?

Kəhf Surəsindəki cavab mağarada gizlənən gənclər haqqında təfərrüatlı məlumat verir. Cavabın yalançı Məsih Dəccalı nəzərdə tutmasına açıq dəlillərin olmasına rəğmən, bu cavab birbaşa Dəccalı ünvanlamır. Onu adıyla adlandırmaqdan birdən dayanır. Ravvinlər bunu tapmaq üçün fürsət verildilər. Həqiqətən də Dəccal Quranın heç bir yerində birbaşa adlandırılmamışdır, İlahi hikmət yəhudilər yəhudiləri düşünməyə sərbəst buraxmaq idi. Əslində bu zərif strategiya baxımından sual cavaba uyğu gəlirdi.

Peyğəmbərin (sav) Mədinəyə köçündən (hicrətindən) illər sonra o, Dəccal mövzusunda kifayət qədər təfərrüatıyla söhbət açmışdır və sonra möminlərin Dəccalın dəhşətli fitnəsindən və sınağından qurtulmaları üçün əl-Kəhf Surəsinin ilk on ayəsini oxunmalarını bəyan edərək

yəhudiləri heyrətə salmışdır. İlk on ayə cavanlar və mağara əhvalatının açılış ayələrini təşkil edir. Muhəmməd Peyğəmbər (sav) həmçinin, açıq şəkildə təsdiq etmişdir ki, Dəccal yəhudi olaraq ortaya çıxacaq və o, artıq dünyaya buraxılmışdır. O, bunu Mədinədəki cavan yəhudinin (İbn Səyyad) Dəccal olduğundan şübhələndiyini camaat içində ifadə etməklə etmişdir.

Suala belə bir şəkildə cavab verməklə Quran xəbərdarlıq edir ki, böyük səyyah barədə suala qısa amma dəqiq cavab verən (O), həmçinin, cavanlar və mağara barədə sualın həqiqi hədəfini, yəni Dəccal barədə də bilir.

İndi isə qısaca suallar və cavablar arasındakı fərqləri yenidən ifadə edək:

1. Sual: Sualın əsil hədəfi (Ruh) birbaşa ifadə olunur, buna baxmayaraq bu çox hiyləgər bir sualdır. Suala cavabda Uca Allah həm suala, həm də sual verənlərə istinad edir: “*Səndən ruh haqqında soruşarlar...”*. Cavab Bəni İsrail Surəsində verilmişdir.
2. Sual : Sualın əsil hədəfi (Yəcuc və Məcuc) birbaşa ifadə olunmur. Bu gizlədilir. Bu səbəbdən cavab digər Surədə, yəni əl-Kəhf Surəsində verilir. Cavabda Uca Allah həm suala, həm də sual verənlərə istinad edir: “*Səndən Zülqərneyn haqqında soruşarlar...”* Baxmayaraq ki, sualın əsil hədəfi gizlədilmişdir, Uca Allah buna birbaşa xitab edir və dünyaya buraxılması Qiyamətin əsas əlamətlərindən olan Yəcuc və Məcucu hədəf olaraq müəyyən edir.
3. Üçüncü sual ikinci kimi əl-Kəhf Surəsində verilmişdir. Bu ikinci ilə bənzərliyə və birinci ilə bənzərsizliyə işarə edir. Beləliklə nəticəyə gəlirik ki, üçüncü sualın həqiqi hədəfi ikincidəki kimi gizlədilmişdişdir. Yəcuc və Məcucdan əlavə bu nə ola bilər?

   Üçüncü suala cavab verərəkən Uca Allah nə suala, nə də sualı verənlərə istinad edir. O demir, “*Səndən ... haqqında soruşarlar.”* Bu təsadüfən ola bilməz. Bu sualın cavabında Uca Allah sualın həqiqi hədəfinin (yəni yalançı Məsih Dəccal) adını qeyd olunmamış saxlayır. Bu hədəfi müəyyən etmək Allahın Rasuluna buraxılır ki, o, əl-Kəhf Surəsi ilə yalançı Məsih Dəccal arasında əlaqəni müəyyən etmişdir.

# FƏSİL 5

# CAVANLAR və MAĞARA ƏHVALATI

*"Ondan keçmişdə yoxa çıxmış cavanların başına nə gəldiyi barədə soruşun, çünki onların heyrətamiz bir əhvalatı var?"* Bu Mədinəli yəhudi Ravvinlərin verdiyi üç sualdan biridir. Onlar əminliklə Qureyşdən olan nümayəndə heyətinə bildirdilər ki, əgər o, bu üç suala düzgün cavab verə bilsə, onda onun həqiqətən, İbrahimin Allahının həqiqi Peyğəmbəri olduğu təsdiqlənəcək, çünki bu suallara yalnız Peyğəmbər düzgün cavab verə bilərdi.

Bu üç suala cavab Allah tərəfindən nazil olmuşdur və yuxarıdakı sualın cavabı Quranın əl-Kəhf Surəsinin 9-25-ci ayələrində verilir.

Aşağıda bu ayələrin ərəbcə mətni[12] və tərcüməsi, eləcə də mətnin ilkin olaraq başa düşülməsi üçün zəruri olan qısa izahlı şərhlər verilmişdir. Əhvalat 9-cu ayədə başlayır və 25-ci ayədə bitir. Muhəmməd Əsədin tərcüməsindən istifadə olunmuşdur[13]. Bizim qeydlərimiz kursivlə yazılmışdır:

### Ayə 9

*(Əgər dünya həyatı sınaqdan başqa bir şey deyilsə, həqiqətənmi)* sən mağara əhlinin *(əhvalatının, hansı ki, biz sənə Ravvinin sualına cavab olaraq söyləyirik)* və *(onların)* müqəddəs yazılara *(bağlılıqlarının, hansı ki, bəlkə də özləri ilə mağaraya aparmışdılar) (digər)* ayələrimizdən əcaib bir şey olduğunu güman edirsən? *(indi sənə nazil olan Quran böyük işarədir)*

### Ayə 10

Xatırla ki, o gənclər mağaraya sığındıqları zaman, "Ey Rəbbimiz! Bizə Öz dərgahından mərhəmət bəxş et və mövcud olduğumuz *(xarici)* şərtlər nə olursa olsun bizə doğruluq şüurunu bəxş et!" – demişdilər *(və bizə bu ateist dünyanın İslama qarşı elan etdiyi müharibədə sınaqdan çıxış yolu göstər).*

### Ayə 11-12

Biz də bundan sonra mağarada onların qulaqlarını illərlə *(bayır dünyaya)* qapalı tutduq *(onlar bayır dünyadan təcrid olundular),* sonra onları oyandırdıq *(və bunu belə etdik)* ki, keçən müddəti iki fikir sahiblərindən hansının düzgün hesabladığını *(insanlara)* göstərək. *(Həqiqətən də bu əhvalatda ilahi olaraq öyrədilən və bu yazıda aşkara çıxardılan dərsin məğzi budur ki, "zaman" sadə və bir ölçülü deyil, daha mürəkkəb və çox ölçülüdür. Dövr keçdikcə "zamanın" çox-ölçülü hərəkəti baş verir və zamanın bu keçidində yalnız Uca Allaha inananlar və doğru əməl sahibləri yaşayırlar, bütün qalanları tarixin dəyərsiz səhifəsində yox olurlar. Quranın əl-Əsr Surəsinə baxın, 103:1-3.)*

---

[12] Əsərin azərbaycan dilinə tərcüməsi zamanı ərəbcə mətn daxil edilməyib.

[13] Əsərin azərbaycan dilinə tərcüməsi zamanı Quranın Z.Bünyadov və V.Məmmədəliyevin tərcüməsindən də istifadə olunmuşdur.

**Ayə 13-15**

*(İndi)* Onların əhvalatını sənə tam gerçəkliklə nəql edəcəyik. Onlar, həqiqətən də, öz Rəblərinə ürəkdən iman gətirmiş gənclər idi. *(və dünyada İslam qarşı aparılan müharibə ilə imanları üçün sınaqda göstərdikləri davranışa görə)* Biz də onları doğru yolda dərin bir şüur və zəka ilə elə gücləndirmiş, qəlblərini elə möhkənləndirmişdik *(cəsarətlə)* ki, onlar durub *(bir-birilərinə, yəni ictimai şəkildə ateist dünyaya qarşı çıxaraq bəyan etdilər)*: "Rəbbimiz göylərin və yeri Rəbbidir" demişdilər, "Biz əsla ondan başqasına ibadət etməyəcəyik *(beləliklə onlar Allahdan başqasının ucalığını qəbul etmədilər)*, əgər *(belə bir iş)* etsək çox çirkin bir şey dilə gətirmiş olarıq *(bununla həqiqətən də küfr etmiş olarıq!)*. Fəqət bizim bu camaat inancları barəsində məntiqli bir dəlil gətirmədikləri halda Ondan başqa tanrılar qəbul etdilər. Allah haqqında yalan uyduran kəsdən daha zalım kim ola bilər *(yaxud, misal üçün, müasir dünyəvi unitar dövlətin hökumətinə tabe olmaqla bağlı əmri çıxarmaqla Allaha qarşı kim yalan uydurur)?*

**Ayə 16**

Madam ki, siz onlardan və Allahdan başqa tapındıqları batil şeylərdən uzaqlaşdınız, o halda bu mağaraya sığının ki, Rəbbiniz Öz rəhmətini sizə əta etsin və sizi *(xarici)* vəziyyətinizə görə ruhlarınızın ehtiyacda ola biləcəyi şeylərlə təmin etsin! *(Sonra cavanlar bir-birilərilə aşağıdakı kimi məsləhətləşdilər: Onlardan, yəni Şirk dünyasından və onların Allahdan başqa ibadət etdikləri hər şeydən qaçıb qurtulmaq qərarına gəldikdə sığınacaq mağaraya gedin. Allah sizə olan Rəhmət və İnayətini artıracaq və sizin işlərinizi elə şəfqətlə və xəfif həll edəcək ki, sizin rahatlıq və dinclik hiss edəcəksiniz.)*

**Ayə 17**

Və *(illərlə)* günəşin doğarkən onların mağarasının sağ tərəfinə meyl etdiyini, batdığı zaman isə onları tərk edib sol tərəfə yönəldiyini *(mağaranın içinə düşüb onları yandırmadığını)*, onların da mağaranın ortasında geniş bir yerdə olduqlarını görərdin. Bu, Allahın möcüzələrindəndir. Allahın doğru yola saldığı kəs doğru yoldadır. Allahın zəlalət içində buraxdığı kimsəyə isə əsla doğru yolu göstərən bir qoruyucu tapa bilməzsən!

**Ayə 18**

Onlar yuxuda ikən sən onları oyaq sanardın. *(Sən düşünərdin ki, onlar yatmışlar)* Belə ki, biz onları bir sağa çevirirdik, bir sola və itləri də qabaq pəncələrini uzadıb çıxışda *(yatmışdı)*. Onlarla *(hazırlıqsız)* rastlaşmış olsaydın, şübhəsiz ki, dönüb qaçardın və onlara görə dəhşət səni bürüyərdi.

**Ayə 19-20**

Beləcə də biz onları *(zamanın bir əsnasında)* oyandırdıq və onlar bir-biriləri ilə *(başlarına gələnləri)* sorğu-sual etməyə başladılar. Biri dedi: "Bu şəkildə nə qədər qaldınız?" *(Digərləri)* cavab verdilər: "Ya bir gün ya da günün bir qismi qədər." *(İçlərindən daha dərin qavrayışlı olanlar)*: "Nə qədər qaldığımızı daha yaxşı Rəbbiniz bilir" dedilər və *(ac olduqlarına görə sonra dedilər)*: "İndi içərinizdən birini bu gümüş pulla şəhərə göndərin ki, görsün ən təmiz təam

hansıdırsa, ondan sizə bir azuqə olaraq alıb gətirsin *(ki, aclığınızı ötürəsiniz).* Amma çox ehtiyatlı davransın, əsla sizdən heç kimə bəhs etməsin. Çünki, baxın, əgər sizin varlığınızı bilsələr ya sizi daşqalaq edəcək, ya da sizi məcburən öz dinlərinə döndərəcəklər ki, belə olduğu halda siz heç vaxt nicat tapa bilməzsiniz!

**Ayə 21**

Beləcə də bu yolla (insanların) diqqətini onların əhvalatına *(yəni bu tarixi hadisəyə)* yönəltdik, onların *(mağara əhlinin)* başına gələnlər barədə aralarında mübahisə etdikləri zaman *(hadisə barədə düşünəndə əminliklə)* bilsinlər ki, Allahın vədi *(yenidən dirilmə və böyük müsibətlər və fitnələr, yəni Dəccalın dünyaya buraxılacağı Fitan (fitnələr) dövrü barədə)* həqiqətdir və Son Saatın gəlib çıxacağına şübhə yoxdur. Beləliklə, bəziləri dedi: "Onların xatirəsinə bir bina tikin. Onların başına nə gəldiyini Rəbbi daha yaxşı bilir." Nəhayət mübahisədə qalib gələnlər dedilər: "Şübhəsiz ki, biz onların xatirəsinə Məscid tikməliyik!" *(Beləliklə Allahın mömin qullarının xatirəsinə bina tikmək caizdir, hətta birisi belə mömininin xatirəsinə Məscid də tikə bilər.)*

**Ayə 22**

*(Bu əhvalat yəhudi Ravvini, eləcə də gələcəkdə başqaları tərəfindən rəvayət olunduğu zaman)* Sanki qaranlıq yerə daş ataraq: "*(Onlar)* üçdür, dördüncüsü köpəkləridir!" – deyəcəklər. Bəziləri: "Beşdir, altıncısı köpəkləridir!" – deyəcəklər. Digərləri isə: "*(Onlar)* yeddidir, səkkizincisi köpəkləridir!" – söyləyəcəklər. *(Əgər onlar bu məsələdə sənə qarşı gəlsələr onlara)* De: "Onların sayını Rəbbim daha yaxşı bilir. Bunu bilən çox azdır! *(bu azlıq yəhudi Ravvinlərinə aid deyil)*" Onlar barəsində yalnız sənə açıq-aşkar nazil olan ayələrə əsaslanıb onlarla mübahisə et və (əhvalat danışanların) heç birindən onlar haqqında bir şey soruşma! *(çünki onlar əhvalatı artıq təhrif etmiş və dəyişdirmişlər)*

**Ayə 23-24**

Və heç bir şey barəsində: "Mən onu sabah edəcəyəm!" – demə! Ancaq: "İnşallah *(əgər Allah istəsə; Allah qoysa)* deyəcəyəm!" – de. *(İnşallah deməyi)* Unutduğun zaman *(sonra bunun fərqinə vardıqda, necə ki, bu halda Peyğəmbərin başına gəlmişdi)* Rəbbinin yada salıb: "Ola bilsin ki, Rəbbim məni bundan haqqa daha yaxın olan bir yola yönəltsin" – de.

**Ayə 25**

Və *(bəziləri iddia edir)* onlar mağarada üç yüz il və *(bəziləri)* doqquz il də artırdılar *(o rəqəmə, çünki 300 günəş il 309 ay ilinə bərabədir).*

**Ayə 26**

De: "Onların *(orada)* nə qədər qaldıqlarını Allah daha yaxşı bilir. Göylərin və yerin qeybini bilmək ancaq Ona məxsusdur. O, hər şeyi necə gözəl görür, necə də yaxşı eşidir! Onların Allahdan başqa heç bir hamisi yoxdur. O, heç kəsi öz hökmünə şərik etməz!"

(əl-Kəhf surəsi, 18:9-26)

Cavanlarla bağlı əl-Kəhf Surəsinin bu cavabı Mədinədə Ravvinlərə çatdırıldı. O, vaxtdan bu günə qədər 1400 ildən çox müddət keçmişdir, amma bildiyimiz qədər yəhudilər hələ də bu cavaba şərh verməlidirlər.

Bu kitab, yəhudi elm dünyasının Quranın əl-Kəhf surəsində onların sualına verilmiş cavabı şərh etməsi çağırışnı davam etdirir.

**Əhvalatın xülasəsi və bizim zaman baxımından əhəmiyyəti**

Muhəmməd Əsəd Surəyə şərhlər yazmışdır və onun şərhləri həm Surənin, həm də cavanlar və mağara əhvalatının mahiyyəti baxımından dərin anlayış verir. Bizim ona təfərrüatıyla istinad edirik ki, onun böyük işindən xəbəri olmayanlar bununla tanış olsunlar və sadəcə onun şərhlərindən deyil, bütün tərcümədən yaralana bilsinlər:

"Bu Surə (ən-Nəhl Surəsindən öncə nazil olmuşdur, yəni Məkkə dövrünün sonuncu ilində) demək olar ki, bütünlüklə Allaha imanla müqayisədə dünya həyatına hədsiz bağlılıq mövzusu ətrafında qurulan rəvayət və ibrətamiz hekayələr silsiləsinə həsr olunmuşdur və bütün Surənin əsas ifadəsi 7-ci ayədəki *"Biz yer üzündə olan bütün gözəlliyi, hansının daha gözəl əməl sahibi olduğunu ortaya qoymaq üçün, insanlara bir sınaq vasitəsi qıldıq"* cümləsidir ki, bu ideya daha çox zəngin adam və kasıb adam əhvalatında dəqiq ifadə edilmişdir (32-44-cü ayələr).
Surənin adını daşıdığı Mağara Əhli əhvalatı iman uğrunda dünyanı tərk etmə prinsipini təsvir edir (13-20-ci ayələr) və ölüm, yenidən dirilmə və ruhani oyanma alleqoriyasına çevrilmişdir. Musa və adı anılmayan müdrik əhvalatında (60-82-ci ayələr) ruhani oyanma mövzusu mühüm dəyişikliyə məruz qalır: bu adi insanların intellektual həyatına və onun ən yüksək həqiqəti arayışına doğru dəyişdirilir. Zahiri görünüş və həqiqətin əslində fərqli olduğu göstərilir – o qədər fərqli ki, yalnız daxili intutitiv ruhani idrak tərzi nəyin zahiri, nəyin isə həqiqi olduğunu bizə açıqlaya bilər. Nəhayət, Zülqərneyn (iki buynuzlu) ibrətamiz hekayəsi bizə bildirir ki, dünyadan üz döndərmək birinin Allaha olan imanın zəruri tələbatı deyil, başqa sözlə, insanların bütün işlərinin təbiətcə ötəri olduğunun və zaman və məkanın fövqündə olan Allaha qarşı olan son məsuliyyətimizin fərqində olduğumuz müddətdə dünya həyatı və gücün mənəvi dürüstlüklə ziddiyyət təşkil etməsi zəruri deyil. Beləcə, Surə bu sözlərlə qurtarır, *"Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın!*"
.... Mağara əhli əhvalatına gəlincə, şərhçilərin əksəriyyəti bu fikirə yönəlirlər ki, əhvalat Xristianlığın erkən dövrünə, yəni Xristianların üçüncü əsrdə İmperator Desius tərəfindən təqib olunduqları dövrə aiddir. Əfsanəy görə Efesusdan (indiki Türkiyə ərazisindəki Səlcuq bölgəsi) bir neçə cavan xristian itlərinin müşayiətilə gözdən uzaq olan bir mağaraya çəkildilər ki, öz inanclarına görə yaşaya bilsinlər və möcüzəvi olaraq orada uzun müddət yatılı vəziyyətdə qaldılar (25-ci surəyə əsaslanan bəzi hesablamalara görə təxminən üç əsr). Nəhayət, onlar oyananda (orada uzun müddət qaldıqlarından bixəbər olaraq) yoldaşlarından birini şəhərə yemək almaq üçün göndərdilər. Bu müddətdə vəziyyət tamamilə dəyişmişdi: Xristianlıq daha təqib olunmurdu və Roma İmperiyasının rəsmi dininə çevrilmişdi. Desiusun zamanından qalma qədim sikkə (hansı ilə ki, cavan aldığı şeyin pulunu ödəmək istəyirdi) marağa səbəb oldu, insanlar

əcnəbini sorğu-suala tutmağa başladılar. Beləcə, Mağara əhlinin əhvalatı və onların möcüzəvi yatışı aşkara çıxdı.
Artıq qeyd olunduğu kimi klassik şərhçilərin əksəriyyəti Quranın Mağara əhlini xatırlamasını şərh etmək cəhdlərində bu xristian əfsanəsinə əsaslanmışlar. Bununla belə, görünür ki, bu mövzunun xristian veriyası əslində Xristianlıqdan öncəki, yəhudi qaynaqlarına gedib çıxan daha qədim əfsanənin sonrakı inkişaf etdirilmiş şəklidir. Bu, bir sıra səhih hədislərdən (bütün klassik şərhçilər tərəfindən qeyd olunan) aydın görsənir. Məhz bu hədislərə görə Mədinəli yəhudi Ravvinləri Muhəmmədin (sav) Məkkəli müxaliflərini onun doğruluğunu yoxlamaq üçün digər suallar arasında Mağara əhli barədə də sual verməyi təşviq etmişdilər. Bu hədisə istinad edərək İbn Kəsir Surənin 13-cü ayəsinə şərhində qeyd edir ki, "Belə deyirlər ki, onlar (Mağara əhli) Məryəm oğlu İsanın davamçılarıdır, amma ən doğrusunu Allah bilir, bu aşkardır ki, onlar Xristianlıq dövründən daha əvvəl yaşamışlar, çünki, əgər onlar xristian idilərsə, yəhudilər xristianlarla bütün dostyanə əlaqələrini kəsdikləri halda nəyə görə bu əhvalatı mühafizə etmək niyyətində idilər?" Ona görə biz əminliklə güman edə bilər ki, Mağara əhli əhvalatı əsaslı olaraq yəhudi qaynaqlıdır..."

(Muhammad Asad's Translation and Commentary of the Glorious Qur'an[14], ss.437-439)

Yuxarıda qeyd etdik ki, Quran şərhçisi İbn Kəsir Mağara əhlinin xristian olması haqqında ümumi qəbul olunan fikri təqzib edirdi və onların Xristianlq dövründən daha əvvəlki dövrdə yaşamsı görüşünü müdafiə edirdi. O sual vermişdir ki, əgər onlar xristian idilərsə nəyə görə yəhudi Ravvinləri bu hekayəni mühafizə etmək niyyətində idilər? Biz belə bir sual da əlavə edə bilərik ki, niyə onlar bu əhvalat barədə biliyin peyğəmbərlik iddiasının həqiqiliyi üçün meyar hesab edirdilər? Bununla bərabər İsanı həm Məsih olaraq, həm də Peyğəmbər olaraq inkar edirdilər. Onlar onu saxtakar, yalançı və nigahdan kanar uşaq hesab edirdilər (bu küfrlü ifadələrə görə Allaha sığınırıq). Ona görə də bəllidir ki, cavanlar Bəni İsrailə aid olmalı idilər.

Yəhudilər tarix boyu dəfələrcə Allaha qarşı küfr etməklə vədlərinə xilaf çıxmışlar. Bu cür günahlar Quranda "Şirk"[15] adllanır. Musa dağa Uca Allah ilə görüşmək üçün gedəndə də, onlar onun olmadığı müddətdə qızıl buzova sitayiş etdilər. Kəhf Surəsinin bu hekayəsi görünür digər buna bənzər dövr ilə bağlıdır, çünki cavanlar aşağıdakıları söyləyərkən "bizim bu camaata" istinad etdilər: *"...bizim bu camaat ... Ondan (yəni Allahdan) başqa tanrılar qəbul etdilər."* O dövr sadəcə geniş yayılmış Şirkə şahidlik etmirdi, həmçinin bu günaha qarşı çıxanları hədələyir və onları təqib edirdi. Bu, onların yanlarında it gəzdirmələrindən *("...itləri də qabaq pəncələrini uzadıb çıxışda (yatmışdı).")*, eyni zamanda şəhərə yemək almaq üçün göndərilən cavana edilən xəbərdarlıqdan *("..., amma çox ehtiyatlı davransın, əsla sizdən heç kimə bəhs etməsin. Çünki, baxın, əgər sizin varlığınızı bilsələr ya sizi daşqalaq edəcək, ya da məcburən sizi öz dinlərinə döndərəcəklər ki, belə olduğu halda siz heç vaxt nicat tapa bilməzsiniz!")* tamamilə aşkar görsənir.

Cavanlar Allaha qarşı möhkəm sədaqətlə cəmiyyətlərində Şirkin əleyhinə cavab verməkdə gözəl nümunə təşkil edirlər. Onlar imanlarında tərddüd etmədilər və təhdit və təqiblərə

[14] Muhəmməd Əsədin Müqəddəs Quranın tərcüməsi və şərhi
[15] Allaha şərik qoşmaq

baxmayaraq güzəştə getmədilər. Əvəzində onlar sadəcə bütün təhlükələrə qarşı öz imanlarını bəyan etməklə deyil, eyni zamanda ateist dünyaya çağırış etmək və onun tanrısızlığını qınamaqla möhkəm cəsarət göstərdilər: *"Biz də ..., qəlblərini elə möhkənləndirmişdik (cəsarətlə) ki, onlar durub (ateist dünyaya qarşı çıxaraq): "Rəbbimiz göylərin və yeri Rəbbidir" demişdilər, "Biz əsla ondan başqasına ibadət etməyəcəyik (beləliklə onlar Allahdan başqasının ucalığını qəbul etmədilər), əgər (belə bir iş) etsək çox çirkin bir şey dilə gətirmiş olarıq (bununla həqiqətən də küfr etmiş olarıq!). Fəqət bizim bu camaat inancları barəsində məntiqli bir dəlil gətirmədikləri halda Ondan başqa tanrılar qəbul etdilər. Allah haqqında (Ondan başqasına ibadət olunmaq haqqı istinad etməklə) yalan uyduran kəsdən daha zalım kim ola bilər."*

Nəhayət, təqib şiddətləndikdə onlar öz camaatını tərk etmək məcburiyyətini hiss etdilər. Onlar Hicrət (yəni təqib olunduqları ərazidən daha salamat yerə köçmə) etdilər. Beləliklə onlar öz şəhərlərindən və zülmdən qaçıb xilsa olmağı seçdilər, bu müddətdə bir mağarada dincəlmək üçün dayandılar: *"Madam ki, siz onlardan və Allahdan başqa tapındıqları batil şeylərdən uzaqlaşdınız, o halda bu mağaraya sığının..."* İbrahim Peyğəmbərə (sav) gəldikdə, o və ailəsi Babildən qaçdılar və Fələstinin Müqəddəs Torpaqlarına köç etmək üçün Allah tərəfindən yönləndirildilər. Muhəmməd Peyğəmbərin (sav) halında isə, o və onun əshabələri Məkkədən Mədinəyə köçdülər. Beləliklə, elə bir davranış nümunəsi göstərdilər ki, Peyğəmbərlərdən ən şöhrətlilərinin etdiklərinə bənzəyirdi, yəni evi, doğma şəhəri, rahatlığı, işi və s. tərk etmək və imanı qoruyub saxlamaq üçün qaçqın olaraq uzaq yerlərə səyahət etmək.

Peyğəmbər (sav) Müsəlmanları xəbərdarlıq etmişdir ki, elə bir zaman gələcək ki, onlar mağaraya qaçıb gizlənən cavanlara bənzəməyə çalışacaqlar. O, bunu aşağıdakı hədisdə belə ifadə etmişdir:

*Əbu Səid əl-Xudri rəvayt etmişdir ki, Peyğəmbər (sav) dedi: "Tezliklə elə bir zaman gələcək ki, Müsəlmanın ən xeyirli mülkü keçiləri olacaq, hansı ki, imanını qorumaq üçün onunla vadidə və ya təpələrdə sığınacaq axtaracaq."*

*(Səhih Buxari)*

Madam ki, Surə Dəccalın fitnəsindən qorunmaq üçün oxunmalıdır və Dəccalın dövrü axır zaman və ya Qiyanət dövrü olacaq, demək olar ki, bu Surə həmin dövrdə yuxarıda qeyd olunana bənzər şəkildə insanların ateizmi və bütpərəsliyi mənimsəyəcəklərindən xəbər verir. Surə həm də imanlarına sadiq qalacaq və ateist dünyanın bir hissəsi olmağa qarşı müqavimət göstərərəcək olan möminləri açıq şəkildə xəbərdarlıq edir ki, onlar cavanların olduğu kimi təhdidlərə, təqiblərə və zülmlərə məruz qalcaqlar. Bu, indi dünyada İslama qarşı getdikcə şiddətlənən müharibənin açıqlamasıdır.

Cavanlar mağaraya daxil olanda, bunu böyük mənəvi coşğu ilə etmişdilər, çünki dərhal sonra Allaha dua etdilər və Ondan yardım və mərhəmət istədilər: "Ey Rəbbimiz, bizə Öz dərgahından mərhəmət bəxş et..." Uca Allah imanın belə təzahüründən məmnun oldu. Həqiqətən də Uca Allah hər zaman imanın belə təzahüründən məmnun qalar. O, onlara yardımla cavab verdi. Kəhf Surəsi bizə çox mühüm bir vəd vermişdir ki, Uca Allah eynisini bizim üçün edər!

Cavanlarının imanlarını qorumaq üçün problemlərinin həlli özlərini ateist dünyadan təcrid etməkdə dururdu. Kəhf Surədində bu gün bizim üçün göstərilən yol aydındır: Əgər nə vaxtsa Allaha və İslama olan imanı saxlamaq məqsədilə özünü ateist dünyadan təcrid etmək, ondan uzaqlaşmaq və Hicrət etmək zərurəti meydana gələrsə, mömin bunu etməlidir. İslama qarşı müharibə artıq başlamışdır. Bu daha da şiddətlə azğınlaşcaqdır. Peyğəmbər (sav) aşağıdakı hədisdə Axır Zamanın əziyyətini və zülmünü xəbərdarlıq etmişdir:

*Yəhya mənə Malikdən, o da Əbu zinaddan, o da əl-Əracdan, o isə Əbu Hureyrədən rəvayət etmişdir ki, Peyğəmbər (sav) dedi: "Birisi digərinin qəbrinin yanından keçərkən, "Kaş onun yerində olaydım" demədikcə Qiyamət başlamaz."*

*(Muvatta - İmam Malik)*

Uca Allah onların duasına onları yatızdırmaqla və onların qulaqlarını bayır dünyanın bütün səslərini eşitmək üçün qapamaqla cavab verdi. Beləliklə, onlar illərlə yatdılar: "Biz də bundan sonra mağarada onların qulaqlarını illərlə qapalı tutduq..." (Beləcə onlar bayır dünyadan təcrid olundular.) Əgər başqalarının da belə bir yerə qaçmaq və özlərini ateist dünyadan təcrid etdikləri halda yaşaya bilmələri üçün tədarükləri varsa onda həmin məqsəd yerinə yetirilmiş olar!

Ortaya belə bir sual çıxır: Onların mağarada yatdığı illər ərzində Allah onların bədənlərini necə saxladı? İkincisi, Allah onların bədənlərinin yataq yarası almalarının qarşısını necə aldı (elə bir yara ki, xəstə uzun müddətli bir tərəf üstə yatdıqda onun bədənində baş verir)?

Kəhf Surəsində rəvayət olunan bu əhvalat günəş ernerjisinin qidalanma, eləcə də hərəkətə gətirmə baxımından faydasını son dərəcə xatırladır. Əgər günəş enerjisi bədəni hərəkətə gətirmək üçün istifadə oluna bilirsə, ventilyatorları, maşınları hərəkətə gətirmək, zavodları enerji ilə təmin etmək üçün də istifadə olunabilər. Burada ona işarə edilə bilər ki, bu dövrün möminləri Dəccal nefti son silah olaraq istifadə etdiyi zaman onlara üz verəcək uzun müddətli çətinlik dövrünü yaşaya bilmələri üçün özlərini günəş enerjisindən maksimum istifadə etməyə hazırlamalıdırlar. O, bütün dünyanı nəqliyyatda, səyahətdə, qida istehsalında, sənayedə və s. neftdən tam və dəyişilməz asılılığa sövq etməyə müvəffəq olduqdan və neftin qiymətlərini hədsiz dərəcədə yüksəltdikdən sonra bunu edəcək.

Onda bizim düşmənlərimiz dünyanın bütün neft ehtiyatı üzərində nəzarəti ələ keçirəcək və neftə görə qarşılıq ödəmək məcburiyyəti səbəbilə bütün insanları İsrailin dünya hegemoniyasına tabe olmaq üçün siyası şantajın hədəfi edəcək.

Elə bu kitabın çapa verildiyi zamanda görünür ki, Avro-Yəhudi dövləti İsrail Fərat çayı hövzəsində (yəni İran, İraq, Səudiyə Ərəbistanı, Küveyt, Körfəz ölkələri) yerləşən bütün nəhəng neft ehtiyatları üzərində nəzartə sahib ola bilmək üçün nüvə müharibəsinə hazır vəziyyətdədir. Peyğəmbər (sav) bu müharibələri (yəni İraq neftini ələ keçirmək üçün Amerika və İngiltərənin başlatdıqları müharibəni və İsrailin artıq başlamaq üzrə olan müharibəsini) qabaqcadan xəbər vermişdir:

*Əbu Hureyrə rəvayət etmişdir: "Allahın Rasulu dedi: "Tezliklə Fərat çayının qızıl (dağa kimi) xəzinəsi açılacaq. Hər kim o zaman orada olarsa ondan bir şey götürməsin." Əl-Ərac Əbu Hureyrədən rəvayət etdi ki, Peyğəmbər (sav) eyni şeyi dedi, amma burada, "Bu (Fərat) qızıl*

*dağını aşkara çıxaracaq" dedi.*

*(Səhih Buxari)*

*Ubəyy ibn Kəb rəvayət etmişdir: "Mən Allah rasulunun(sav), "Fərat çayı tezliklə qızıl dağını aşkara çıxaracaq və insanlar bu haqda eşidəndə axın ilə ora gedəcəklər, amma buna (xəzinəyə) sahib olanlar (deyəcəklər): "Əgər bu insanlara budan bir az götürməyə icazə versək hamısını götürəcəklər." Beləliklə onlar savaşacaqlar və yüzündən doxsan doqquzu öldürüləcək."deyərkən eşitdim..."*

*(Səhih Müslim)*

Quranın bu hekayəsindən görsənir ki, günəş işığı səhərlər mağaraya daxil olanda yatan cavanların bədənləri ona cəlb olunmaqda və ona tərəf döndərilməkdədirlər. Bu fenomen günümüzdə fototropizm (işığa meyl etmə) adlanır. Sonra, günəş axşamlar batanda – ki, yenidən süzülərək mağaraya düşməkdədir, ancaq əks istiqamətdən – bədənlər əks istiqamətdə fırlanlanmaqdadırlar: *"Və (illərlə) günəşin doğarkən onların mağarasının sağ tərəfinə meyl etdiyini, batdığı zaman isə onları tərk edib sol tərəfə yönəldiyini, onların da mağaranın ortasında geniş bir yerdə olduqlarını görərdin....Onlar yuxuda ikən sən onları oyaq sanardın. (Sən düşünərdin ki, onlar yatmışlar) Belə ki, biz onları bir sağa çevirirdik, bir sola..."* Bu davamlı olaraq, gündəlik bədənləri çevirmə fenomeni yataq yaralarının yaranmasının qarşısını aldı. İkincisi, görünür günəş işığı onların bədənlərini həyati orqanların yaşaması üşün zəruri olan minimum enerji miqdarı ilə təmin edirdi. Bu prosses fotosintez adlanır.

Quranın üç yüz (günəş ili) il qeyd etməsinə rəğmən yalnız Allah onların mağarada nə qədər qaldığını bilir. Sonra Allah onları yuxudan oyandırdı və onlar bir-birini yatdıqları müddət ilə bağlı sorğu-sual etməyə başladılar. Tezlilklə məlum oldu ki, onlar hadisələrin reallığını (zahirindən fərqli olduğuna görə) dərk etmək üçün fərqli bacarıqlara sahibdirlər. Bəziləri dedirlər ki, onlar bir gün ya da qismi qədər yatıblar. Bu, zahirən hiss olunan idi. Başqaları isə doğru olaraq nəticəyə gəldilər ki, onların nə qədər qaldığını Allah bilir: *"... sonra onları oyandırdıq ki, (oyanan cavanlardan) keçən müddəti iki fikir sahiblərindən hansının düzgün hesabladığını göstərək."* Birinci fikir sahibləri zaman müddəti ilə bağlı ruhani bir dərrakə göstərə bilmədikləri halda, digərləri bunun fərqinə vardılar. Beləliklə, insanlıq Fitnələr dövründə də "zamanın" ruhani həqiqəti ilə bağlı belə ziddiyyətli mövqelərə sahib olacaqlar. Bu, elə bir dövr olacaq ki, zaman sürətlə gedəcək. Peyğəmbər (sav) demişdir:

*Ənəs ibn Malik rəvayət etmişdir: "Peyğəmbər (sav) dedi: "Zaman daralmadıqca Qiyamət başlamaz, elə ki, bütün il bir ay kimi keçəcək, ay həftə kimi keçəcək, həftə gün kimi, gün saat kimi və saat isə ocağı yandırmağa çəkən vaxt qədər."*

*( Sünən Tirmizi)*

Burada açıq işarə vardır ki, Dəccal insanların sürətlənən zaman şüuruna uyğunlaşmasına cavabdeh olacaq. Peyğəmbər (sav) demişdir ki, *"Dəccal dünyada qırx gün yaşayacaq, bir gün bir il kimi, bir gün bir ay kimi, bir gün bir həftə kimi, qalan günləri isə sizin günləriniz kimi!"*

Kəhf Surəsi vasitəsilə Dəccalın fitnəsindən qorunmuş möminlər fitnələr (Fitan) dövründə "zamanı", "zamanın davamlılığını" və "zamanın keçidini" mağaradakı cavanların bəzilərinin

orada adi şəkildə bir gün və ya yarım gün yatmadıqlarının fərqinə vardıqları kimi dərk edə və anlaya biləcəklər.

Kitabın keçən fəslində “Quran və zaman” mövzusuna baxdıq və bizim zaman dünyamızın üzərində yerləşən İslamın yeddi müxtəlif zaman dünyası ilə tanış olduq. Cavanlar və mağara əhvalatında deyildi ki, onlar üç yüz il yatmışdılar, buna rəğmən onlar yuxudan oyananda və mağarada qaldıqları müddəti hesablamağa cəhd edəndə, bəziləri “bir gün və ya yarım günlük” təxmini hesab çıxardılar. Bu hesablama onu göstərir ki, elə uzun zaman müddətinin keçməsinə baxmayaraq aydın yaşlanma əlamətləri görsənmirdi. Başlarındakı tüklər, saqqalları, dırnaqları, üzlərinin dərisi və s. eyni qalmışdı. Bu, ona işarə edir ki, onlar eyni zamanda iki zaman dünyasında mövcud olmaqla yaşamışdılar. Birincisi, bizim öz bioloji zaman dünyamız, harda ki, onların bədənləri gündə iki dəfə, günbatanda və gün çıxanda, sağdan sola fırladılırdı, ikincisi, digər zaman dünyasında ki, bu bioloji deyildi və onlar üç yüz il keçməsinə baxmayaraq yaşlanmamışdılar.

Beləliklə, əhvalat bizə yer üzərində yan-yana yerləşən iki zaman dünyasını təqdim edir. Bu mövzunun anlaşılması məhz Dəccalın yer üzərindəki həyatına aid müəmmalı hədisin şərhi üçün açar rolunu oynayır. Məhz bu səbəblədir ki, biz kitabı zaman mövzusuna həsr olunmuş fəsil ilə başladıq.

Böyük ehtimalla onlar ac olduqları üçün qərara gəldilər ki, biri şəhərə gedib yeməyə bir şey almalıdır. O, bir nəfərə yeməyi ala bilmək üçün gümüş sikkə verilmişdi. Amma arxayın olmaq üçün ona bildirildi ki, ən təmiz yeməyi axtarıb tapsın: *“İndi içinizdən birini bu gümüş pulla şəhərə göndərin ki, görsün ən təmiz təam hansıdırsa, ondan sizə bir azuqə olaraq alıb gətirsin (ki, aclığınızı ötürəsiniz).”*

İkincisi, ona xəbərdarlıq etdilər ki, qalanlarının yerini heç kəsə bildirməsin, çünki sonra onlar ciddi təhlükəyə məruz qala bilərdilər: “*... amma çox ehtiyatlı davransın, əsla sizdən heç kimə bəhs etməsin. Çünki, baxın, əgər sizin varlığınızı bilsələr ya sizi daşqalaq edəcək, ya da sizi məcburən öz dinlərinə döndərəcəklər ki, belə olduğu halda siz heç vaxt nicat tapa bilməzsiniz!”*

Cavan mağaranı tərk edib şəhərə azuqə almağa gedəndə nələr olduğunu biz yalnız ehtimal edə bilərik. Dünya yəqin o qədər dəyişmişdi ki, yollar, evlər, insanların geyimi və s. çox fərqli görsənməli idi. Çox güman ki, o, şəhəri tərk etdikdən sonra orada baş vermiş kütləvi dəyişikliklərdən təəccüblənmiş, heyrətlənmiş və çaşqınlığa düşmüşdü. Quran bu təfərrüata, ümumiyyətlə hekayənin bu qisminə təmas etmir. O, daha çox cavanların mağarada yatdığı müddət ərzində  ateist dünyanın bütünlüklə dəyişərək ateizmin Allaha imanla əvəz olunduğunu bizə xəbər verir. Bu, insanların onların xatirəsini yad etmək üçün məscid tikməyə qərar vermələrindən aydın olur. Yalnız inananlar beəl qərar verə bilərlər.

Cavanları təqib edən ateist dünyanın yox olması və inananların dünyası ilə əvəz olunması faktı Məkkədə bütpərəst ərəblər tərəfindən təqib olunan Müsəlmanlara çox təsirli bir ümid ismarıcı olmalı idi. Yəqin ki, bu onları əmin edirdi ki, Haqq son nəticədə batil üzərində qələbə çalacaq.

Şübhəsiz, bu, bizi indiki dövrdə İslama qarşı aparılan müharibənin sonsuza qədər davam etməyəcəyi və son nəticədə İslamın qələbəsi ilə bitəcəyi ismarıcını çatdırır. Kəhf Surəsinin

oxunması Dəccalın fitnəsindən qurtulmağa vasitə olduğuna görə, bu əhvalatın Surəyə daxil edilməsi fitnələr dövründə möminlərə ümid vermək niyyətinə işarə edir. Bütün dünya İslama qarşı müharibəyə qoşulduqda və möminlər təzyiqə məruz qaldıqda – elə ki, birisi qəbirin yanından keçərkən qəbirdəkinin yerində olmağı arzulayacaq – bu əhvalat Müsəlmanlara davmalı olaraq əminlik oyadacaq ki, İslam ən sonda bütün rəqibləri üzərində qələbə çalacaq. Ona görə də onlar inamlarını itirməməli yaxud ümidsizlik hissinin onlara təsir etməsinə izn verməməlidirlər.

Cavanların alınacaq yeməklə bağlı xüsusi təlimatlar vermələri bu fitnələr dövründə bizə işarə edir ki, bizim qida məhsullarımız o dərəcədə korlanılacaq, çirkləndiriləcək, genetik olaraq dəyişdiriləcək və s. ediləcək ki, qida Uca Allahın ona təyin etdiyi vəzifələri artıq yerinə yetirə bilməyəcək. Misal üçün, süd və süd məhsulları insanın immun sistemini təmin etmək üçün rol aynaya bilər. Amma süd istehsalını artıqmaq məqsədilə inəklər hormonlarla inyeksiya edildikdə, belə istehsal edilmiş süd öz vəzifəsini yerinə yetirməyəcək yaxud digər ciddi təsirlər oyada biləcək dərəcədə korlana bilər.

Rəvayət edilir ki, İsa Peyğəmbər (as) öz israil qövmünə (Bəni İsrail) əl-Kəhf Surəsindəkinə bənzər məsləhət verirmiş:

*“Yəhya mənə Malikdən rəvayət etdi ki, o eşitmişdir ki, Məryəm oğlu İsa belə deyərdi:”Ey Bəni İsrail! Siz təmiz su içməli, torpağın yaşıl qidalarından və arpa çörəyindən yeməlisiniz. Buğda çörəyindən çəkinin, çünki siz ona görə kifayət qədər təşəkkür edən olmayacaqsınız.”*

*(Muvatta - İmam Malik)*

Nəhayət, əhəmiyyətlidir ki, Quran diqqəti cavanların qida almaq üçün istifadə etməli olduqları pula cəlb edir. Bu “variq” (gümüş sikkə) idi: “*İndi içinizdən birini bu gümüş pulla şəhərə göndərin ...*”. Kəhf Surəsinin xəbərdarlğı aydındır. Axır Zamanda möminlər pula çox diqqət yetirməlidirlər. Onlar real pul ilə saxta pulu ayıra bilməlidirlər. Real pul Uca Allahın Peyğəmbərlərinin bütün əsrlər boyu istifadə etdiyi kimi hər zaman qızıl və ya gümüş, yaxud buğda, arpa, xurma, duz və s. kimi məhsullar olmuşdur. Real pulun həqiqi dəyəri vardır (yəni pulun dəyəri onun özündə yerləşir). Saxta pulda isə əksinə, pulun dəyəri onu çıxaran tərəfindən əsassız olaraq (sərbəst) üzərində qeyd edilərək göstərilir. Bu, həqiqi pulun əvəzini ödəmir. Pulun dəyəri düşəndə sərvətin xalq kütlələrindən ölkə sərhədlərinin daxilində və xaricində yerləşən talançı elit təbəqəyə ötürülməsi ilə qanuniləşmiş oğurluq baş verir. Bu Ribadır[16].

Biz insanlığın saxta pul dünyasında tələyə salındığı və onların sərvətlərinin talan edildiyi bir dövrdə yaşayırıq. Çoxları da artıq kölə işçilərinə çevrilmişlər.

**Müasir dünyada yaşayan Müsəlmanlar üçün əsas nəticələr**

Biz əhvalatın ümumi əhəmiyyətini müəyyən etdik. İndi isə özümüzü cavanlarla yaşadıqları dünya arasındakı əsas ziddiyyət səbəbi üzərində məhdudlaşdıraq. Bu da odur ki, ətraflarındakı dünya Allahdan başqa tanrılar qəbul etmişdi: “.. *fəqət bizim bu camaat inancları barəsində məntiqli bir dəlil gətirmədikləri halda Ondan başqa tanrılar qəbul etdilər. Allah haqqında yalan*

---

[16] Bu islamda qadağan olunmuş mübadilə şəklidir (çoxlarının sələm və ya faiz olaraq tanıdığı terminləri də ehtiva edən daha geniş bir anlayışdır).

*uyduran (ondan başqa ibadətə layiq məbud olduğunu iddia etməklə) kəsdən daha zalım kim ola bilər.”* Bu şərik qoşma günahı (Şirk) idi, elə bir günah ki, Allah heç bir zaman bağışlamayacaq:

*“Şübhə yoxdur ki, Allah Özünə şərik qoşanları əfv etməz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlar. Allaha şərik qoşan şəxs, əlbəttə, böyük günah etmiş olur.”*

*(ən-Nisa surəsi, 4:48)*

Biz bugün elə bir dünyada yaşayırıq ki, o, tamamilə Şirkə bulaşmışdır. Həqiqətən də, Şirk bütün dünyanı nəzarət altına almışdır və bir çox İslam alimləri və tanınmış İslam təşkilatları ya bunun fərqinə vara bilmirlər, ya da bunu əl-Kəhf Surəsindəki cavanlar kimi açıq şəkildə bəyan etmək istəmirlər.

Müasir dünyanın Şirki Allahın ribanı (faiz ilə pul almaq və vermək), sərxoş edici maddələri, qumarı, kişi və qadın homoseksuallığını, uşaq salmanı və s. qadağan etməsi faktından asanlıqla ayırd edilə bilər. Artıq dünyada müasir dövlətlər – İslam dövlətləri kimi tanınanları da – bütün bunlara icazə vermiş və ya verirlər. Davamlı olaraq Allahın bütün o qadağan etdiklərinə icazə verən qanunlar çıxarılır.

Onlardan əlavə, çox arvadlılığa (maksimum dörd arvad) o halda icazə vermişdir ki, ər arvadlarını təmin edə bilsin və onlarla ədalətli davransın. Allah həmçinin bəyan etmişdir ki, Peyğəmbərin (sav) həyatı möminlər üçün ən yaxşı davranış nümunəsi təşkil edir. Peyğəmbərin (sav) çoxlu arvadı var idi.

Müasir dövrün Şirki bu faktdan aydın görsənə bilər ki, bugün dünyada hökumətlər Allahın icazə verdiklərini qadağan etmək üçün qanunlar çıxarırlar. Belə ki, qanun çox arvadlılığı və 16 (bəzən 18) yaşından kiçik yaşlı qızların evlənməsini qadağan edir.

Beləliklə, onlar Allahın izn verdiyini qadağan edir, qadağan etdiyini isə qanuniləşdirirlər!

İndi isə Allahın izn verdiyini qadağan edən, qadağan etdiyinə isə icazə verən birinin halı ilə bağlı aşağıdakı Quran ayələrinə nəzər yetirək. Həmçinin, Quran ayələrinin Peyğəmbər (sav) tərəfindən izahını nəzərdən keçirək:

*“Yoxsa (bu dünyadan başqa bir şeyə əhəmiyyət verməyənlərin) Allahın dində izin vermədiyi bir şeyi onlar üçün qanuni edən şərikləri vardır. Əgər (Allahın) qəti söz olmasaydı, aralarında hökm artıq icra edilmiş olardı (bu dünyada). Şübhəsiz ki, zalımları şiddətli bir əzab gözləyir!”*

*(əş-Şura surəsi, 42:21)*

*“Onlar Allahı qoyub alimlərini və rahiblərini, Məryəm oğlu Məsihi özlərinə tanrılar (rəblər) qəbul etdilər. Halbuki onlar ancaq bir olan Allaha ibadət etmək əmr olunmuşdu. Ondan başqa heç bir tanrı yoxdur. Allah pak və müqəddəsdir. Onların şərik qoşduqları hər şeydən tamamilə uzaqdır!*

*(ət-Tövbə surəsi, 9:31)*

*İslamı qəbul etməmişdən qabaq xristian olan Adiy ibn Xatim bir dəfə Peyğəmbərin (sav) yanına gəldi. Onun yuxarıdakı ayəni oxuduğunu eşitdikdə dedi: “Ey Allahın Rasulu, amma onlar (yəhudilər) onlara (rahiblərə) sitayiş etmirlər.” Peyğəmbər (sav) cavab verdi: “Doğrudur, amma onlar camaata halal olanı qadğan edir, haram olanı isə icazə verirlər və camaat da onlara tabe olur. Həqiqətən də bu onlara ibadət etməkdir.”*

*(Sünən Tirmizi)*

Xristianlar iddia edirlər ki, İsa (as) göylərə qalxmamışdan əvvəl öz ardıcıllarına icazə verilmiş və qadağan olunmuş şeyləri qanuniləşdirmək səlahiyyətini vermişdi. Onun belə dediyi xəbər verirlir:

"Mən sizə deyirəm: sizin yer üzündə qadağan etdiyiniz cənnətdə də qadağan ediləcək, sizin yer üzündə icazə verdiyiniz cənnətdə də icazə veriləcək."

(İncil, Matta, 18:18)

Aydındır ki, Mattanın bu misrası belə oxunmalıdır: göylərdə nə qadağan olunursa yer üzündə də qadağan olumalıdır, göylərdə nə icazə verirlisə yer üzündə də icazə verilməlidir!

Bugün bütün dünyada Müsəlmanlar Şirk günahına yol verən hökümətlərin hakimiyyətinə tabe olurlar. Seçkilərdə onların lehinə seçim edirlər. Onlar konstitusiyalarına and içirlər ki, öz hökumətlərinin Şirkə yol verməsinə səlahiyyət verirlər. Onlar bu hökumətlər tərəfindən işlədilməkdə və onlara sədaqətlə xidmət etməkdədirlər. Onlar belə hökumətlərə hörmət etməkdə, onları dəstəkləməkdə və onlara tabe olmaqdadırlar. Buna görə də şübhə yoxdur ki, biz hamımız həmçinin Şirk içindəyik! Hətta bir çox İslam alimləri belə dövlətlərə qarşı neytral mövqe durur, yaxud onların Şirk etməsinə göz yumur, ən pis halda isə belə hökumətlərin aktiv dəstəkləyicisinə çevrilirlər.

Mübarək Peyğəmbər (sav) xəbərdarlıq etmişdir ki, Dəccal insanları Şirk səddi ilə sınağa çəkəcək. Xəbərdarlığı davam etdirərək bildirmişdir ki, Şirkin hücumunun fərqinə varmaq "qaranlıq gecədə qara daşın üstündə qara qarışqanı" seçmək qədər çətin olacaq. Bu xəbərin yerinə yetməsini demək olar ki, bütün xalqlar tərəfindən ümumdünya olaraq qəbul edilən həftənin günlərinin, ilin aylarının adlarında görmək bizim üçün çox asan oldu.

Bazar günündən (Sunday) şənbə (Saturday) gününə, Yanvardan (January) Dekabra (December) qədər həftənin bütün günləri və ilin bütün aylarına bütpərəst tanrı və ya tanrıçaların adları verilmişdir! Biz bu adları istifadə etdikdə praktiki məqsədlər üçün Sünnəni tərk etdikdə Şirkə girmiş oluruq. Həqiqətən də, həftənin bəzi günlərinin və ilin bəzi aylarının adları Quranda verilmişdir. Bu adlara bağlı Sünnə belədir:

*Yəvməl Əhəd* (həftənin birinci günü)[17]; *Yəvməl İsnəyn* (ikinci gün); *Yəvməl Süləsəi* (üçüncü gün); *Yəvməl Ərbəi* (dördüncü gün); *Yəvməl Xamis* (beşinci gün); *Yəvməl Cüməh* (altıncı gün); *Yəvməl Səbt* (yeddinci gün[18]) (Həftənin günlərinin adlarından ən azı ikisi Quranda verilmişdir, yəni Yəvm əl-Cuməh və Yəvm əl-Səbt).

Həmçinin, ilin aylarının adları ilə bağlı Sünnə belədir:

*Muhərrəm; Səfər; Rəbiyül Əvvəl; Rəbiyəl Səni (Rəbiyül Axır); Cümədəl Əvvəl; Cumədəl Səni (Cümədəl Axır); Rəcəb; Şaban; Ramazan; Zül Qədə ; Zül Hiccə* (İlin aylarının adlarından ən azı biri, yəni Ramazan ayı Quranda verilmişdir).

Məhz mağara əhli əhvalatının mərkəzində duran Şirklə bağlı ciddi xəbərdarlıq səbəbilədir ki, Quran əhvlatı 26-cı ayədə Uca Allah və Onun Yüksək Hakimiyyəti ilə bağlı ifadə ilə bitirir.

---

[17] Bizdə bazar günü
[18] Bizdə şənbə günü

*"... O, heç kəsi öz hökmünə (və ya əmrinə) şərik etməz!"*

*(əl-Kəhf surəsi, 18:26)*

Quran bizə Şirkə bulaşmış və onu tərk etmək istəməyən camaatın arasında olan Musa Peyğəmbərin (as) duasını çatdırır. Dua belə idi:

*"Ey Rəbbim! Mənim yalnız özümə və qardaşıma gücüm çatar. Sən bizi bu günahkar və azğın camaatdan ayır!"*

*(əl-Maidə surəsi, 5:25)*

Müasir zamanın ümumdünya küfrünü (Şirki) aşkara çıxardıqdan və izah etdikdən, dünyada İslama qarşı getdikcə azğınlaşan müharibəyə diqqəti çəkdikdən sonra bizə Müqəddəs Quranın bu Surəsindəki Mağara əhlinin əhvalatından dərs çıxarmaq qalır. Uca Allaha imanı qoruyub saxlamaq üçün belə davranmaq zəruri hala gəldikdə, öz növbəmizdə, biz də eynilə onların İslama qarşı müharibə aparan ateist dünyanı tərk edib uzaqlaşdıqları kimi uzaqlaşmalıyıq.

Rəvayət edilir ki, görkəmli türk İslam alimi və mütəfəkkiri Bədiüzzaman Səid Nursi Xilafətdən sonrakı Türkiyədə Müsəlmanlara şəhərləri tərk edib kənd yerlərinə köçməyi və öz imanlarını on minlik Müsəlman kədlərində qorumağı nəsihət edirdi.

Biz də eyni görüşü müdafiə edirik. Biz möhkəm inanırıq ki, Yəcuc və Məcuc müasir dövründə Müsəlmanların imanlarının qorunub saxlanması müasir dünyanın şəhərlərini tərk edib mikro İslam cəmiyyətlərinin qurula biləcəyi ucqar Müsəlman kəndlərinə köçməkdən asılıdır. Ucqar Müsəlman kəndlərinin mərkəzində möminlərin ən müttəqiləri yerləşməlidirlər. Onlar, kəndin digər sakinlərinin təqlid etməyə çalışacaqları davranış nümunəsi (xüsusilə ibadətdə) göstərməlidirlər.

Kəhf Surəsi inananlara, xüsusilə, Dəccal və Yəcuc və Məcuc dövründə belə insanlardan ibarət çevrəni qorumağı və bu böyük davranış nümunələrindən üz çevirməkdən, müasir dünyanın çəkiciliyindən (ehtişam və təmtəraqından) qorunmağı tövsiyə etmişdir:

<u>Sadə tərcümə:</u>

*"Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona ibadət edənlərlə birlikdə özünü səbirli apar. Fani dünyanın bər-bəzəyini arzu edib nəzərlərini onlardan çevirmə. Qəlbini Bizi xatırlamaqdan qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və işində ifrata varan bir kimsəyə itaət etmə!"*

*(əl-Kəhf surəsi, 18:28)*

<u>İzahlı tərcümə:</u>

*(Haqq-hesab günü gələnə qədər)* Səhər-axşam Rəbbinin rizasını diləyərək *(ki, bu qeyri-süuri ibadətdən daha coşğuludur)* Ona *(cani qəlbdən)* ibadət edənlərlə birlikdə *(belə səmimi möminlərin çevrəsini arayaraq)* özünü səbirli apar. Fani dünyanın bər-bəzəyini arzu edib nəzərlərini onlardan çevirmə *(ateist dünya səni cazibələri ilə aldatmasın, yaxud rüşvət verməklə səni Uca Allahın belə səmimi qullarından döndərməsin)*. Qəlbini Bizi xatırlamaqdan *(yəni bizi davamlı xatırlamaqdan)* qafil etdiyimiz, *(yalnız)* nəfsinin istəklərinə *(yəni güc, şöhrət və var-dövlət üçün böyük arzularına)* uyan və işində ifrata varan *(və Allahın həqiqi qullarına müharibə açan)* bir kimsəyə itaət etmə *(və ya onların rəhbərliyini qəbul etmə)*!

Şərh:

Kəhf Surəsinin bu, unudulmayacaq dərəcədə gözəl ayəsi bizə əlavə nəsihət və xəbərdarlıqlar verir ki, bununla möminlər Dəccalın fitnəsi dövründə ateist dünyanın təhlükələrinə və Yəcuc və Məcuc dünya nizamının zülm və əxlaqsızlıqlarına cavab verə bilsinlər.

Bu nəsihətin mahiyyəti budur ki, onlar olduları çevrəni, əlaqə saxladıqları insanları və nəticə etibarı ilə məxsus olduqları camaatı və məskunlaşmaq üçün tərcih etdikləri ərazini diqqətlə seçməlidirlər. Onlar Uca Allahın öz şəxsiyyətlərində sürəkli olaraq təqva, təvazö, dindarlıq və möhkəm xasiyyət saçan qullarına bağlı qalmalıdırlar.

Belə möminlər dünyada İslama qarşı müharibə azğınlaşdığı müddətdə Allaha və onun mübarək Peyğəmbərinə (sav) imanlarında sadiq olmaq üçün qərarlarında səbat göstərəcəklər.

Bundan əlavə, onlar davranışlarında ateistlik, günahkarlıq, tamahkarlıq, dünya həvəsi, iftixar, qürur, təkəbbür, kinlilik və hiddət sərgiləyən və İslama qarşı müharibə aparanları dəstəkləyən şəxslərin çevrəsindən uzaq qaçmalıdırlar. Beləəri yalnız öz dünya işlərinin arxasınca gedən insanlardır ki, onların bütün işləri bihudə gedəcəkdir.

# FƏSİL 6

## VARLI və KASIB ADAMIN ƏHVALATI

Əvvəlki fəsildə Quranın ək-Kəhf Surəsində mağaraya qaçıb gizlənən cavanların əhvalatı nəql və təhlil edildi. Biz əhvalatdan məhz belə nəticəyə gəldik ki, cavanlar Şirkdən qaçaraq uzaqlaşdılar. Bu, günahlar arasında ən təhlükəlisidir, çünki Uca Allah belə bir günahı bağışlamayacağını bəyan etmişdir (əgər birisi bu günaha görə bağışlanmamış halda ölsə).

Amma əl-Kəhf Surəsi mağara əhlinin əhvalatını bitirdikdən bir az sonra Dəccalın dövründə geniş yayılacaq olan Şirkin digər şəklinə diqqəti cəlb etmək üçün eyni mövzuya qayıtmışdır. İki adamın əhvalatında – hansı ki, Uca Allah birinə iki münbit bağ şəklində sərvət vermiş, digəri isə kasıb idi, çünki ona var-dövlət verilməmişdi – varlı adam öz var-dövlətinə görə azmış və aldanmışdı və nəticədə onun imanı məhv olmuşdu. Guya ki, o da Allaha sitayiş edirdi. Əslində isə o, öz var-dövlətinə (yəni Dünya) sitayiş edirdi. Bu da Şirk idi. Allahım cəzası nəhayət onu yaxaladı və var-dövləti məhv edildi.

Amma kasıb adam varlının qəlbindəki azğınlığı günah (Şirk) olaraq qəbul etdi və onu hasil olacaq ilahi cəzalandırma ilə xəbərdarlıq etdi, yəni Uca Allah onun bağlarını məhv edə və var-dövlətini ala bilərdi.

Kasıb adam varlının var-dövlətinə həsəd aparmırdı. Əksinə o, zənginliyin Allahdan gəldiyini qəbul etməklə İlahinin ucalığı qarşısında baş əyməyi ona nəsihət edirdi. O, Uca Allaha var-dövləti bəxş etdiyinə görə şükr etməli idi. Kasıb adam həm də ümidini ifadə etdi ki, Uca Allah o biri dünyada ona varlının bağlarından daha yaxşısını və özünün bu dünyada yaşadığı kasıbçılıqdan daha yaxşısını verəcək.

Kəhf Surəsindəki bu əhvalat tam olaraq bugünkü dünyanı təsvir edir, hansı ki, ateist dünyəviliyə (sükyularizm) və materializmə bağlılıq yeni həyat tərzini əmələ gətirmişdir. Şöhrətpərəstlik, var-dövlətə hədsiz bağlılıq, maddiyyata bağlılıq və cinsəllik bütün dünyada insanların böyük əksəriyyətini azdırmaqdadırlar. Hətta bu, Müsəlmanları da ehtiva etmişdir.

Surə qalıcı bir şey təklif etməyən dünyaya həddən artıq bağlananları xəbərdarlıq edir. Hər şey məhv olur və yox olub gedir. Ona görə hər kəs də bu dünyada yaşayıb bu dünya üçün çalışmaq əvəzinə, bu dünyada yaşayıb o dünya üçün çalışmalıdır. Mömin Allah üçün yaşamaq missiyasını davam etdirmək məqsədilə bu dünyada mübarizə aparmalıdır. Əgər o kasıbdırsa, Allah üçün yaşayaraq və Allahın onun təslimiyyətini, ibadətini və səbrini qəbul etdikdən sonra onu o biri dünyada mükafatlandıracağına inanaraq bu sınaqlara səbrlə dözməlidir.

Bu ismarıc əl-Kəhf Surəsinin həqiqətən unuduımayan ayəsində qısaca ifadə edilmişdir:

*“Mal-dövlət, oğul-uşaq bu dünyanın bər-bəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında həm savab, həm də ümid etibarilə daha xeyirlidir!”*

*(əl-Kəhf surəsi, 18:46)*

Aşağıda “varlı və kasıb adam” əhvalatının Qurandakı mətni virilmişdir. Hekayə otuz ikinci ayədə başlayır və qırx altıncı ayədə bitir:

**Ayə 32**

Onlara iki adamı misal gətir. Onların birinə iki üzüm bağı verib onları xurmalıqlarla əhatə əhatə etdik və aralarında əkin saldıq.

**Ayə 33**

O bağların hər ikisi öz barını verdi və bu bardan heç bir şey əskilmədi. Biz də onların arasından bir irmaq axıtdıq.

**Ayə 34**

Başqa sərvəti *(gəliri)* də var idi. O, öz yoldaşı ilə söhbət edərkən ona dedi: "Mən səndən daha dövlətli və əşirətcə *(qəbilə, qohum-əqrəba, övlad, qulluqçu və s. cəhətdən)* səndən daha qüvvətliyəm!

**Ayə 35**

O, *(küfrə düşdüyü üçün)* özünə zülm edərək bağına girib dedi: "*(Bu bağın)* nə vaxtsa yox olacağını güman etmirəm.

**Ayə 36**

Qiyamətin *(saatının)* da *(nə vaxtsa)* gəlib çıxacağını zənn etmirəm. Əgər Rəbbimin hüzuruna qaytarılsam, özümə bundan da yaxşı bir məskən *(qayıdış yeri)* taparam!"

**Ayə 37**

Onunla söhbət edən yoldaşı isə belə dedi: "Əvvəlcə səni torpaqdan, sonra bir qətrə sudan *(mənidən)* yaratmış, daha sonra səni adam şəklinə salmış Allahı inkarmı edirsən?

**Ayə 38**

Lakin *(mən inanaraq deyirəm ki)* Allah mənim Rəbbimdir və mən heç kəsi Rəbbimə şərik qoşmaram!

**Ayə 39**

Bağına girdiyin zaman barı: "Maşallah *(Allahın istədiyi kimi oldu)*, qüvvət *(və qüdrət)* yalnız Allaha məxsusdur!" – deyəydin! Əgər məni özündən daha az mal-dövlət və övlad sahibi görürsənsə,

**Ayə 40**

Ola bilsin ki, Rəbbim *(sonda)* mənə sənin bağından daha yaxşısını versin və sənin bağına göydən bir bəla endirsin ki, o, hamar *(sürüşkən, ayaq basılası mümkün olmayan, heç bir şey bitməyən qupquru)* bir yer olsun!"

**Ayə 41**

Yaxud suyu *(tamamilə)* çəkilib getsin və bir də onu əsla axtarıb tapa bilməyəsən *(belə olduğu halda bağın da məhv olsun)!*

**Ayə 42**

Beləliklə, *(gecə göydən gələn bir ildırım vasitəsilə)* onun *(bağının)* meyvəsi *(bütün var-dövləti)* tələf edildi. Qoyduğu xərcə görə *(peşmançılıqdan)* əllərini ovuşdurmağa başladı. Bağın talvarları yerə çöküb viran qalmışdı. O: "Kaş Rəbbimə heç kəsi şərik qoşmayaydım!" – deyirdi.

**Ayə 43**

Allahdan başqa ona yardım edə biləcək kəslər yox idi və o da *(öz-özünə)* kömək edə biləcək bir halda deyildi.

**Ayə 44**

Belə bir vəziyyətdə kömək göstərmək ancaq haqq olan Allaha məxsusdur. Mükafat verməkdə də, aqibət qismət etməkdə də ən xeyirlisi Odur.

**Ayə 45**

Onlara dünyanı misal çək: *(Bu dünya)* göydən yağdırdığımız yağmura bənzər. Yerdəki bitkilər onunla qarışıb *(onu içib)* yetişər, sonra *(vaxtı gələndə)* isə dönüb küləyin sovurduğu quru çör-çöp *(həşəm)* olar. *(Yalnız)* Allah hər şeyə qadirdir!

**Ayə 46**

Mal-dövlət, oğul-uşaq dünya həyatının bər-bəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında həm savab, həm də ümid etibarilə daha xeyirlidir!"

(əl-Kəhf surəsi, 18:32-46)

Kəhf Sursəsində varlı və kasıb adamın əhvalatının bəhs olunduğu parça var-dövlətin imanı pozduğu və məhv etdiyi halda yaranan təhlükələrdən xəbərdarlıq edir. Bu hissə Qiyamət gününü və imanını itirənlərin aqibətini xatırlamaqla qurtarır.

**Əhvalatın əhəmiyyəti**

Bu əhvalat iki adam və onların həyat tərzi arasında zidiyyəti göstərir ki, bu da Dəccalın dövründəki həyat tərzini simvolizə edir.

Uca Allah bu həyatda var-dövləti bəzən əmanət və sınaq vasitəsi olaraq lütf edir. Bəzən də Allah var-dövlətlə cəzalandırır, belə ki, var-dövlət tənəzzülə aparan yola çevrilir. Əgər zənginlik qanuni qazanılmayıbsa, misal üçün, müasir sələmçi bankçılıq və sığorta ilə, bu haram olacaq və bu var-dövlət sahibinin cəhənnəmdə yanmasını yəqinləşdirəcək.

Tanrı və dindən imtina edən dünyəvilik (sekyularizm) və materializmin nəticəsi olan fəlsəfə qəlbi ölümcül xəstəliklərlə korlayır. Axır Zamanın ən öndə gələn xəstəliyi elə bir var-dövlət hərisliyi olacaq ki, insanları ruhani reallığa kor edəcək. Onlar nəşə ilə cəhənnəmə aparan yol ilə getdikləri halda, beyinləri yuyulmuş olacaq və aldadıcı təxəyyül dünyasında yaşayacaqlar. Kəhf Surəsindəki bu əhvalatın əhəmiyyəti onun bu xəstəliklə bağlı xəbərdarlıq verməsində yerləşir.

Müasir dünya var-dövlət və zəngin həyat tərzini gözə gözəl göstərir (ovsunlayır). Nəticədə kasıblar yoxsulluğa nifrət etməkdə və həqarətlə baxmaqdadırlar və özlərini kasıblığın lənətindən

qurtarmaq üçün qanuni və ya qanunsuz nə olursa olsun etməyə çalışırlar. Bu quldurluq, oğurluq, vəhşi soyğunçuluq cinayətləri, adam oğurluğu və s. ilə nəticələnir. Əslində bütün cəmiyyət azğınlaşmağa başlayır, çünki zənginlər də daima zənginliklərini artırmaq üçün qeyri-qanuni vasitələrə əl atmaqdadırlar.

Bu Surədə kasıb heç nəyə görə öyünmürdü. Onun təvəkkülü, ümidi Uca Allaha idi. Sonda Allah varlının sərvətini məhv etdi və kasıb isə yenə də xoşbəxt idi. Bu əhvalatda zənginləri “kimsə”, kasıbları isə “heç kim” kimi qəbul edən dünyada – elə bir dünya ki, kasıblığı yox edilməsi gərəkən bir pislik olaraq göstərir – yaşayan kasıb möminlər üçün güclü rahatlıq, ümid və dayaq ismarıcı vardır.

Abdullah Yusif Əli özünün (Quran) şərhində bu əhvalatın mahiyyətini yaxalamışdır:

“Təkəbbürlü olan öz mülkü, gəliri və böyük ailəsi və tərəfdarları ilə həddindən artıq öyündü və düşündü ki, bu həmişəlik davam edəcək. O, həmçinin yoldaşına (hansı ki, daha varlıqlı olmasına baxmayaraq ikisindən yaxşısı o idi) yuxarıdan baxmaqda yalnış idi. Onu var-dövlət deyil ağlının davranışı tənəzzülə uğratdı. O, ədalətsiz idi, sadəcə qonşusuna qarşı deyil, həm də öz ruhuna qarşı. Maddiyyata qarşı məhəbbəti ilə o, ruhaniliyini unutdu və ya ona meydan oxudu. 37-ci ayədən görsəndiyi kimi o, öz nüfuzu ilə yoldaşını təəsssüratlandırmaq üçün onu özü ilə apardı, amma yoldaşı təsirlənməmişdi. Burada materialistin tamahkar ruhu ortaya çıxmaqdadır. Onun zənnində “yaxşı” özünün də bu həyatda faydalandığı daha çox var-dövlət və daha çox güc demək idi. Buna rəğmən, əslində, onun sahib olduğu da saxta əsaslara dayanmışdı və məhviyyətə məhkum idi və onu da tənəzzülə apardı.
Yoldaşların müzakirəsi beş hissəyə bölünürdü. O, təkəbürrlü zənginin Allahı inkar etməsinə qarşı çıxdı. Sonra o, öz ruhani biliyinə əsaslanaraq bəyan etdi ki, Allah biridir və o Rəbbimizdir. O, həmçinin qeyd etdi ki, Allahın nemətlərindən zövq almağın ən yaxşı yolu Ona şükr etməkdir. O, Allahın ona qarşı münasibətdə razılığını və məmnuniyyətini ifadə etdi. Nəhayət o, dünya malının təbiətcə fani və hədsiz şöhrətpərəstliyə görə Allahın cəzasının yəqin olduğunu ifadə etdi.”

(Abdullah Y. Əli, Translation and Commentary of Surah al-Kahf of the Quran[19], qeyd 2376-80)

Möminlər insanlığa və dünyaya hökmranlıq edən sekyularizm və materializmə qarşı necə qarşılıq verməlidirlər. Kəhf Surəsi suala açarını təmin edir. Abdullah Yusif Əli davam edir:

“Təkəbbürlü zəngini yaxalayan cəza ildırım (husbanan – Qurandakı ifadə ilə) oldu, ancaq sözün ümumi mənası hesab çəkməklə (hisab) verilən istənilən cəzanı ehtiva edir. Bəlkə zəlzələyə də işarə edilir, çünki su axarlarını dəyişdirir, kanalları alt-üst edir, lil və qumları bayıra tullayır və geniş əraziləri dağıntılarla örtür. “Meyvələr”, “xərc”, “əllərini ovuşdurma” kimi bütün sözlər həm məcazi, həm də hərfi mənada qəbul edilməlidir. Onun böyük gəliri və rahatlığı var idi ki, hamısı yox edildi. O, öz mülkiyyətinə kifayət qədər xərc qoymuşdu. Onun bütün düşüncələri malı üzərinə dalmışdı, ümidləri onun üzərində qurulmuşdu, bu, onun həyatının əyləncəli məşğuliyyətinə çevrilmişdi. Kaş o, bu dünyanın keçici həvəsinə dalmaq əvəzinə bir dəfə də olsa Allah baxardı!

[19] Quranın əl-Kəhf Surəsinin Şərhi və Tərcüməsi

Bu halda onun ağlında öz Nəfsi və Maddi sərvəti (maddiyyat həvəsi) Allaha rəqib idi! O əlaqələr qurmuşdu və özünə tabe olanları məcbur etmişdi, bundan məmnun idi. Amma haqq-hesab zamanı gələndə bütün bunlar harada idi? O, özünə yardım edə bilmirdi, başqalarının ona yardım etməyini necə gözləmək olardı? Qalan hər şey fani, qeyri-müəyyən və Zaman oyunu idi. Yeganə ümid və həqiqət isə Allahdandır. Başqa mükafatlar və müvəffəqiyyətlər aldadıcıdır, ən gözəl Mükafat və ən yaxşı Uğur Allahdandır."

(Abdullah Y. Əli, Translation and Commentary of Surah al-Kahf of the Quran, qeyd 2380-85)

Müasir ateist dünya Uca Allahdan üz çevirmişdir və bunu çox sirli bir şəkildə etmişdir. O, hələ də iddia edir ki, Allah inanır, fəqət həqiqətdə bu belə deyil!

İki adamın əhvalatı xüsusilə Dəccalın dövrünə istinad edərək insanlığın gələcəyinə də işarə edir. Şirk və Küfr dünyası varlı adamın bağının məhv olduğu kimi məhv olacaq, yəni təbii fəlakətlər və içməli su təchizatının daima azalması:

*"Ola bilsin ki, Rəbbim ... sənin bağına göydən bir bəla endirsin ki, o, hamar bir yer olsun! Yaxud suyu çəkilib getsin və bir də onu əsla axtarıb tapa bilməyəsən (belə olduğu halda bağın da məhv olsun)!"*

*(əl-Kəhf surəsi, 18:40-41)*

İçməli suyun azalması artıq başlamışdır. Geriyə doğru sayma artıq başlamışdır.

**Bu günün İslam dünyasında varlı və kasıb adam**

Kəhf Surəsi dünya malı ilə bağlı çox mühüm dərs verir. O, dünya malının əhəmiyyət və faydasını təqdir edir və var-dövlətin aldadıcılığını qəbul edir. Amma var-dövlət məhv ola bilər və birisi bunu həyatın ən önəmli şeyi olaraq qəbul etməməlidir. Əksinə, əl-Kəhf Surəsi deyir ki, yalnız yaxşı əməllər zaman səddində yaşaya bilər, bu səbəbdən də biz var-dövlət dalınca qaçmaqdan daha çox yaxşı davranışa diqqət yetirməliyik:

*"Mal-dövlət, oğul-uşaq bu dünyanın bər-bəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında həm savab, həm də ümid etibarilə daha xeyirlidir!"*

*(əl-Kəhf surəsi, 18:46)*

Dünya malı və oğul-uşaq insanların dünyada arzuladığı keçici şeylərdir, amma elə bir şey vardır ki, zaman səddini aşa bildiyinə görə daha yaxşıdır ki, bu yaxşı əməllərdir. Beləcə, Axır Zamanda dünya daha da azğınlaşdıqca, qaranlıq bütün dünyanı bürüdükcə mömin davranışda düzgün olmaq üçün böyük səylə mübarizə aparmalıdır.

Dəccalın insanlığı dünya malı ilə azğınlaşdırmaq və idarə etmək strategiyası varlı və kasıb adam əhvalatında açıq-aydın anlaşıla bilər. O, Ribanı (sələmçilik) bir yandan ona qarşı çıxmayanları varlandırmaq, digər yandan da ona qarşı çıxanları yoxsul həddinə gətirib çıxarmaq üçün istifadə edir. Bu, Dəccalın iqtisadi strategiyasıdır ki, bununla o, dünyanı Avro-Yəhudi dövləti İsrailin xeyrinə idarə etsin. Görünür strategiya çox müvəffəqiyyətlidir. Bu gün dünyada gücə və idarəetməyə sahib olanlar zəngindirlər və daima zənginləşməkdədirlər, amma dünyanı idarə edənlərə qarşı çıxanlar isə yoxsulluq həddinə çatdırılmışlar və sürəkli şəkildə daha da yoxsullaşmaqdadırlar.

Bu gün İslam dünyasında zənginlər o hökümətləri dəstəkləyirlər ki, öz növbəsində, dünya hegemonlarının müvəkkilinə (asılı ölkə) çevrilmişlər. Kasıb kütlə isə təsirli bir şəkildə güc və

qərar vermə prosesindən kənar edilmişlər. Bu, İsrailin olduqca xeyrinə işləmişdir. Muhəmməd Peyğəmbər (sav) xəbər vermişdir ki, Dəccal eynilə belə edəcəkdir:

*Nəvvas ibn Səmən rəvayət etmişdir ki, bir gün səhər Peyğəmbər (sav) Dəccaldan bəhs etdi.... O dedi: "O (Dəccal), insanlara gələcək və onları (yanlış dinə) dəvət edəcək; onlar ona inamlarını təsdiq edəcəklər və ona cavab verəcəklər. Sonra o, səmaya əmr edəcək: yer üzərinə güclü yağış yağacaq və əkin bitirəcək. Sonra axşam onların otlayan heyvanları donqarları iri, əmcəkləri südlə dolu və böyürləri şişmiş vəziyyətdə yanlarına gələcək. Sonra o, başqa bir topluluğa gələcək və onları dəvət edəcək. Amma onlar onu inkar edəcək və o çıxıb gedəcək; onda onlar susuzluqdan əziyyət çəkəcəklər və onların yanında var-dövlət şəklində heç bir şey qalmayacaq."*

*(Səhih Müslim)*

Həqiqətən də bu qəribədir ki, sələmçiliyin (Riba) İslamda qadağan olması (hansı ki, bu çox böyük əhəmiyyətə malikdir) hələ də etina edilməməkdədir. Yazara görə bu gün çox az müsəlman mövzu ilə bağlı yetərli biliyə sahibdir və bu əsas etibarı ilə ona görədir ki, İslam alimləri mövzunu tədris etməkdən çəkinirlər. Ümid edirik ki, bizim Riba mövzusunda iki kitabımız (yəni "İslamda və Sünnədə Riba Qadağası"[20] və "İslamda Riba Qadağasının Əhəmiyyəti"[21]) oxuculara bu mövzunu anlamağa kömək edəcək. Bundan əlavə bizim "İslam və Pul" mövzusunda seminarımızın video yazısı internet səhifəmizdən baxıla bilər: www.imranhosein.org

Var-dövlət o kəsləri azdırır ki, materializmi qucaqlayır və mal düşkünü olur, həmçinin var-dövləti haqsız olaraq qazanan şəxsləri azdırır. Belə insanlar seçkin idarəedici təbəqəyə çevrildikdə onlar gücü zülm kasıblara vermək üçün istifadə edirlər. Bütün dünya üzrə gücsüzləşdirilmiş Müsəlman kütlələri Avro-Yəhudi Dövləti İsrailin getdikcə artan zülmünə qarşı əzmlə müqavimət göstərirlər və onlara hesablaşılması vacib olan bir qüvvəyə çevrilmək təqdir edilmişdir. Kəhf Surəsində rəvayət olunan əhvalatın mahiyyəti bundan ibarətdir. Uca Allaha iman elə sarsılmaz bir qüvvəyə çevriləcək ki, ən sonda İsrailin güc və qüdrətini məhv edəcək. Beləcə, güc sahibi olan elit təbəqə ilə yoxsullaşmış kütlələr arasında toquşma nəhayət baş verəcək. Muhəmməd Peyğəmbər (sav) artıq xəbər vermişdir ki, Müsəlmanlar silahlı mübarizə ilə Müqəddəs Torpaqlarda zülmə qalib gələcəklər.

Siyasi gücü, hərbi və digər belə dövlət qurumlarını daima əlində tutan soyğunçu elit təbəqə İsrail ilə kompromisə (barışığa) gedirlər ki, öz şəxsi mənafelərini qoruya bilsinlər. Bu, "sülh prosesi" (peace process) olaraq tərif edilir. Özlərinin çox güclü və imtiyazlı olmalarına alışmış elit təbəqə kasıb kütlələrin gözlənilən üsyançı İslam inqilabının qələbə çalmasından və sonra da onlarla İran İslam İnqilabının soyğunçu elitə qarşı davrandıqları kimi davranacaqlarından qorxurlar. Beləliklə, İsrail ilə kompromis təzyiqi yoxsullaşdırlmış Müsəlman kütlələrindən və İsalmın sərt və kompromisə getməyən ədalətindən dəhşətli qorxu içində yaşayan zəngin Müsəlman elit təbəqəsindən gəlir.

Tamamilə aydındır ki, öz var-dövlətləri ilə azğınlaşmış soyğunçu zənginlər Müqəddəs Torpaqlarda zülmə məruz qalanları azad etmək üçün mübarizəyə qoşulmayacaqlar. Eynilə aydındır ki, onların kasıb qardaşları böyük şövqlə bu silahlı mübarizəyə qoşulacaqlar. Kəhf Surəsindəki varlı və kasıb adam əhvalatının bu yönü bu yaxınlarda Fələstindəki seçkilərdə çarpıcı və açıq-aşkar şəkildə biruzə verdi, harda ki, kasıb kütlələr İslami müqavimət təşkilatı olan Həmasa səs verməklə İsrailə qarşı müqavimət göstərmək üçün barışmaz mövqelərini nümayiş etdirdilər.

[20] Orijinal kitabın adı "The Prohibition of Riba in the Quran and Sunnah"
[21] Orijinal kitabın adı "The Importance of the Prohibition of Riba in Islam"

O kasıblar öz güc və ümidlərini əl-Kəhf Surəsinin aşağıdakı ayəsində kasıb adamın varlıya ünvanladığı ifadəsindən götürürlər:

*"... Əgər məni özündən daha az mal-dövlət və övlad sahibi görürsənsə, ola bilsin ki, Rəbbim (sonda) mənə sənin bağından daha yaxşısını versin və (haqq-hesab çəkməklə) sənin bağına göydən bir bəla endirsin ki, o, hamar bir yer olsun (yəni məhv olsun)!"*

*(əl-Kəhf surəsi, 18:39-40)*

Nəhayət, dünya malı qəlbi azdırdıqda digər bir xəstəlik də yaranır. Belə bir şəxs daxilən kor olur və bunun nəticəsi olaraq Qurandakı həqiqəti dərk edə bilmir. Kəhf Surəsi Uca Allahın belə insanlara necə davrandığını göstərir:

*"Rəbbinin ayələri özünə xatırlandırılarkən onlardan üz döndərən, etdiyi günahları unudan adamdan daha zalım kim ola bilər?! Onu (Quranı) anlamasınlar deyə, Biz onların qəlblərinə pərdə çəkib, qulaqlarına ağırlıq verdik. Sən onları doğru yola dəvət etsən belə, onlar əsla haqq yola gəlməzlər."*

*(əl-Kəhf surəsi, 18:57)*

Bu kitabı oxuyanlar doğru yola yövəldilmiş İslam alimlərinin və Allahın sənin qullarının dəvətini rədd edən "ümidsizcə kor insanları" ayırd edə bilmək üçün qavrayışa sahib olmalıdırlar. Belə insanlar (ki, adətən "soyğunçu" elit təbəqəyə aid olurlar) Müsəlman icmasının simasına girirlər və yuxarı qalxmaq üçün Müsəlman cəmiyyətinin lideri kimi tanınana qədər ikiüzlü, yalançı və hiyləgər yollarla irəliləyirlər. Onlar adətən dünyanı idarə edən Avropa Yəhudi-Xristian ittifaqının bugün İslama qarşı apardığı müharibəyə hərarətli dəstəklərinə görə seçilirlər. Baxmayaraq ki, onlar özlərinin Müsəlman cəmiyyətinin lideri olduqlarını elan edirlər, onlar həqiqətdə artıq İslamı tərk etmişlər və bunun yerinə Yəhudi-Xristian ittifaqına qoşulmuşlar. Quranın aşağıdakı ayəsinə nəzər yetirin:

*"Ey iman (Qurana) gətirənlər! Yəhudi və xaçpərəstləri (özünüzə) dost (havadar, himayədar) tutmayın! Onlar bir-birinin dostudurlar. Sizdən kim onlarla dostluq edərsə, o da onlardandır. Allah zalım tayfanı düz yola yönəltməz!"*

*(əl-Maidə surəsi, 5:51)*

# FƏSİL 7

## MUSA və XIZIRIN ƏHVALATI

Musa və Xızırın (as) qarşılaşması əhvalatında Quranın əl-Kəhf Surəsi Dəccalın "tək gözlü" olduğunu izah etdərkən çox mühüm bir qnoseoloji (idrak tərzi ilə bağlı) dərs verir ki, bilik iki mənbədən gəlir. Birinci mənbədən gələn bilik "ilm əl-Zahir" (yəni zahiri elm) olaraq tanınır və bu, praktiki biliyə və rasional tədqiqata əsaslanır. Elmi biliyi də ehtiva edən bu növ bilik məhdud bilikdir. İkinci bilik isə "ilm əl-Batin" (batini və ya daxili elm) olaraq tanınır və bu, daxili intuitiv ruhani bilikdir ki, dini bilik olaraq da adlanır. Bu, bir şəxsə ruhən ötürülür və material reallığın fövqündə olan reallıqdan qaynaqlanır, amma bu, Allahdan nemət olaraq həqiqi yuxu və ya görmə yolu ilə də ötürülə bilər. Belə bilik qeyri-məhdud, tükənməz və zamansızdır.

Peyğəmbər (sav) bəyan etmişdir ki, həqiqi və ya peyğəbər yuxuları ilə ötürülən belə bilik ondan sonra dünyada peyğəmbərlikdən qalan sonuncu hissə olacaq. Peyğəmbərin (sav) bir neçə əshabəsi vasitəsilə ötürülən hədislər bunlardır:

*Übadə ibn əs-Sabit rəvayət etmişdir ki, Peyğəmbər (sav) dedi: "Həqiqi möminin (gözəl) yuxuları peyğəmbərliyin qırx altı hissəsindən biridir."*

*(Səhih Buxari)*

*Ənəs ibn Malik rəvayət etmişdir ki, Allahın Rasulu (sav) dedi: "Dindar adamın gözəl yuxusu peyğəmbərliyin qırx altı hissəsindən biridir."*

*(Səhih Buxari)*

*Əbu Hureyrə rəvayət etmişdir ki, Allah Rasulu (sav) dedi: "Mömin adamın (gözəl) yuxuları peyğəmbərliyin qırx altı hissəsindən biridir."*

*(Səhih Buxari)*

*Əbu Səid əl-Xudri: Mən Allah Rasulunun belə dediyini eşitdim, "Yaxşı yuxu Peyğəmbərliyin qırx altı hissəsindən biridir."*

*(Səhih Buxari)*

*Yəhya mənə Malikdən, o da Zeyd ibn Əsləmdən, o da Ata ibn Yasərdən rəvayət etdi ki, Allah Rasulu dedi: "Məndən sonra peyğəmbərlikdən qalan tək şey Mübəşşirat olacaq." Onlar dedilər: "Mübəşşirat nədir, yə Rasulallah?" O dedi: "Mömininin gördüyü və ya ona göstərilən həqiqi yuxu peyğəmbərliyin qırx altıncı hissədir."*

*(Muvatta - İmam Malik)*

*Əbu Hureyrə rəvayət etmişdir: "Mən Allah Rasulunun, "Peyğəmbərlikdən Mübəşşiratdan başqa heç bir şey qalmamışdır" dediyini eşitdim. Onlar soruşdular: "Mübəşşirat nədir?" O, "Həqiqi (yaxşı) yuxular" deyə cavab verdi."*

*(Səhih Buxari)*

Ruhani bilik ilahi kitablar kimi vəhy yoluyla da ola bilər. İlahi vəhy olunmuş kitablar Tövrat, Zəbur, İncil və Qurandır.

Biz indi elə bir dövrdə yaşayırıq ki, əksərən batini elmi bilik olaraq tanımağı inkar edir. Bu barədə bizim "İslamda Yuxu"[22] kitabızın girişində maraqlı bəhs verilmişdir...

Kəhf Surəsində Musa və Xızırın əhvalatı "İlm əl-Batin"in (batini elmin) Dəccal (".. o, çay və atəşlə gələcək, amma onun çayı atəş olacaq, atəşi isə çay") dövründəki mühüm əhəmiyyətini izah edir.

---

[22] Dreams in Islam, Imran N. Hosein

*Subəy ibn Xalid dedi: “Tüstər fəth edildiyi zaman mən Kufəyə gəlmişdim. Oradan qatır gətirmişdim. Məscidə girdim, bir də nə gördüm: insanlardan bir grup və aralarında bir adam oturub. Onu görən kimi Hicazlılardan biri olduğunu anladım. “Bu zat kimdir?” dedim. İnsanlar qaşları çatılmış vəziyyətdə mənə baxdılar və “Sən bunu tanımırsan? Bu Rasulallahın (sav) yoldaşı Hüzeyfə ibn əl-Yəməndir” dedilər. Hüzeyfə ibn əl-Yəmən: “İnsanlar Rasulallahdan (sav) xeyirli olan şeyləri soruşardılar. Mən isə şərri soruşardım” dedi. Camaat gözlərini ona dikdi. O, davam edərək dedi: “Mən sizin xoşlanmayacağınız şeyləri xəbər verəcəyəm. Mən Rasulallaha (sav) “Yə Rasulallah, Allahın bizə verdiyi xeyirdən sonra yenə əvvəlki kimi şər olacaqmı?” O, “Bəli” deyə cavab verdi. “Ondan necə qorunum?” “Qılınc” (yəni zülmə qarşı silahlı mübarizə) dedi. Mən: “Sonra nə olacaq yə Rasulallah?” Yer üzərində Allahın bir xəlifəsi olarsa, arxandan vurub malını alsa belə ona tabe ol, amma əgər Allahın xəlifəsi olmazsa, o zaman ağac kökündən yapışaraq öl.” Mən: “Sonra nə olacaq?” O cavab verdi: “Sonra Dəccal çıxacaq. Onunla birlikdə çay və atəş olacaq. Onun atəşinə düşənə savabı veriləcək, günahı silinəcək, çayına düşənə isə günahı veriləcək və savabı silinəcək.” Mən: “Daha sonra nə var?” soruşdum. O: “Son Saat gəlib çıxacaq” dedi.”*

*(Sünən Əbu Davud)*

Hədis ona işarə edir ki, Dəccalın dövründə “zahiri görünüş” ilə “reallıq” bir-birindən əhəmiyyətli dərəcədə fərqlənəcək. “Çay” ilə simvolizə edilən Cənnətə aparan yol aldadıcı şəkildə “atəş” kimi görsəndiyi halda, “atəş” ilə simvolizə edilən cəhənnəmə aparan yol isə “çay” kimi görsənəcək. Yalnız Uca Allahın daxili intuitiv ruhani biliklə lütf etdiyi şəxslər “çayın”, “atəşin” reallığını və Dəccalın dövründə dünyanın həqiqi təbiətini dərk edə biləcəklər. Sadəcə onlar Dəccalın hücumlarını dərhal qavraya biləcək və beləliklə aldanmayacaqlar. Bu səbəbdən idi ki, Peyğəmbər (sav) daima belə dua edərdi: “Allahım, mənə olanları olduğu kimi göstər (elə ki, mən görüntüyə aldanmayım)”.

Bu dövrdə ruhani bilik birbaşa olaraq mömінin qəlbinə ötürülməkdədir. Mömin özünü Quranın öyrənilməsinə həsr etdikdə və İlahi Sözün daxili həqiqətini dərk etməyə çalışdıqda o, nəhayət tükənməz elm olan Qurandan daima aşkara çıxan biliyə sahib ola bilər. Kəhf Surəsi insanlığın Quranın tükənməz biliyinə sahib ola biləcəkləri yol ilə getməyə meylsizliklərindən təəssüflənir:

*“Biz bu Quranda insanlar (mənfəəti) üçün (hazırlanmış) cürbəcür məsəllər çəkdik. İnsan isə (bütün məxluqat içərisində) ən çox mübahisə edəndir. (Haqqa boyun qoymaz, öyüd-nəsihət qəbul etməyib batilə uyar).”*

*(əl-Kəhf surəsi, 18:54)*

Uca Allahdan bu xəbərdarlıq Quranda bir çox yerdə verilmişdir. Amma inadkarlıq, təkəbbür, lovğalıq, bəhscillik və başqa bir sıra insan zəiflikləri insanların ya Quranı birdəfəlik inkar etmələrinə, ya da ona daima aşkara çıxan biliyin tükənməz mənbəyi kimi yanaşmaqdan imtina etmələrinə səbəb olur.

Müti təslimiyyət və Haqqı tanıya bilmək üçün cidd səy göstərmək əvəzinə insan təkrar-təkrar Quranın Allahın sözü və biliyin tükənməz mənbəyi olduğunu inkar etməklə inadkar mübahisə aparır. Zahiri biliyi (yəni elmi-praktiki) ilahi vəhy olunuş biliyi dərk etmək üçün istifadə etmək əvəzinə, bugün insan tükənməz kimi görünən www.external-knowledge.com-un (yəni internetdəki infromasoya kütləsinin) şiddətli hücumuna məruz qalmışdır. Bu daxili ruhani biliyin insan qəlbindən çəkilməsinə səbəb olur.

Kəhf Surəsindəki Musa və Xızırın (as) əhvalatı tək gözlə görən və beləcə də yalnız zahiri görməyə qabil olan şəxs ilə iki gözlə görən və beləcə də həm zahiri həm də daxili görməyə qabil olan şəxs arasındakı əyani fərqi təsvir edir.

Xızır yaşıl deməkdir və Xızırın (as) bu adı almasını izah edən hədis mövcuddur:

*Əbu Hureyrə: Peyğəmbər (sav) dedi: "əl-Xızır belə adlandı, çünki o, yararsız ağ torpağa gəldi və ondan sonra torpaq yaşıl əkinə çevrildi."*

*(Səhih Buxari)*

Mənim fikrimcə Xızıra (as) verilən bu ad işarə edir ki, onun kimi iki gözlə görməklə lütf edilmiş hər kəs yeni və həmişəyaşıl (fani olmayan) və nəticə etibarı ilə ruhən cavanlaşdıran biliyə sahib olacaq. Belə bilik ölü qəlbləri yenidən həyata gətirmək üçün inanlara təsir edəcək. Belə bilik davamlı bahar olan ağıl və qəlbdə həmişəyaşıl bitki kimi daima tərəqqi edəcək. Bu növ bilik heç vaxt tükənə bilməz.

Musa və Xızırın (as) əhvalatı Hədislərdə rəvayət edilmişdir. Quranın əl-Kəhf Surəsindəki əhvalatı anlamaq baxımından bu rəvayətlər mühüm olduğuna görə bunları tamamilə təqdim etməklə başlayırıq:

*Ubəyy ibn Kəb bizə dedi ki, Peyğəmbər (sav) buyurdu: "Bir dəfə Musa dayandı və Bəni İsrailə (İsrail qövmünə) müraciət etdi. Ondan soruşuldu: "İnsanlar arasında ən bilikli insan kimdir?" O acavab verdi: "Mən". Allah mütləq biliyin mənbəyi olaraq Ona isnad etmədiyinə görə onu tənbeh etdi. Beləliklə Allah ona dedi: "İki dənizin birləşdiyi yerdə Mənim bir qulum var ki, səndən daha biliklidir." Musa soruşdu: "Mənim Rəbbim! Mən onunla necə görüşə bilərəm?" Allah cavab verdi: "Balıq götür, onu böyük bir səbətin içinə qoy və onu balığı itirəcəyin yerdə tapacaqsan."*
*Musa bir balıq götürdü, onu səbətin içinə qoydu və Yuşa ibn Nun (nökəri) ilə qayalığa çatana qədər uzun yol getdilər, başlarını yerə qoydular. Musa yatdı və o, yatan müddətdə balıq səbətdən çıxaraq dənizə girdi...*
*Oyandıqdan sonra gecənin qalanını bütün günü yeridilər. Nəhayət səhər açılan kimi Musa xidmətçisinə dedi: "Yeməyimizi gətir, çünki həqiqətən də biz bu səfərimizdə çox əldən düşdük." Xidmətçi ona dedi: "Gördünmü, qayanın yanında dincəldiymiz zaman balığı unutdum (və bunu xəbər verməyi mənə yalnız şeytan unutdurdu) və o, qəribə bir şəkildə özünə yol açıb getdi. Balığın girməsi üçün suda bir oyuq yarandı." Dənizin içində belə bir yolun açılması Musa ilə xidmətçisini təəccübləndirdi. Musa dedi: "Elə axtardığımız da bu idi."*
*Bundan sonra onlar öz izləri ilə gedərək geriyə döndülər. Qayaya çatanda əbasına bürünmüş bir adam gördülər. Musa (as) ona salam verdi. O da salamı aldı və : "Sənin olduğun ölkədə insanlar salamı necə verirlər." Musa dedi: "Mən Musaya." O soruşdu: "Bəni İsrailin Musası?" "Bəli", dedi. Sonra Musa sözünə davam etdi: "Allahın sənə öyrətdiklərindən mənə öyrətməyin üçün gəlmişəm." O, "Yə Musa! Mən Allahın mənə öyrətdiyi elə bir elmin üzərindəyəm ki, sən onu bilməzsən. Sən də Allahın sənə öyrətdiyi elə bir elmi üzərindəsən ki, mən onu bilmərəm" cavabını verdi. Musa dedi: "Sənə öyrədilən mənə öyrətməyin üçün sənə tabe olummu?" O da, "Doğrusu sən mənimlə birlikdə olsan səbr edə bilməzsən. Daxilini qavrayamayacağın bir biliyə necə səbr də bilərsən?" dedi. Musa dedi: "Allahın izni ilə mənim səbrli olduğumu görəcəksən və heç bir işdə sənə qarşı gəlməyəcəm."*
*Hər ikisi dənizin kənarı ilə yeriyərək yola çıxdılar. Yanlarından bir gəmi keçdi və onlar gəminin içindəkilərdən onları göyərtəyə minməyə icazə vermələri üçün xahiş etdilər. Gəmiçilər Xızırı tanıdılar və onları pulsuz gəmiyə qəbul etdilər. Onlar gəmidə ikən bir sərçə gəldi və gəminin*

*kənarında durdu. Dənizdən iki dimdik su aldı. Xızır Musaya dedi: “Yə Musa! Mənim elmimlə sənin elmin Allahın elmindən bu sərçənin dimdiyi ilə dənizdən aldığı su qədər belə əksiltməz.” Elə bu zaman Xızır əlinə bir balta aldı və onunla gəmi taxtalarından birini sökdü. Xızır balta ilə taxtanı söküb çıxarana qədər bunun fərqinə varmadı. Musa ona dedi: “Sən nə etdin? Adamlar bizi pulsuz gəmilərinə qəbul etdikləri halda sən içindəkiləri batırmaq üçün qəsdənmi gəmini deşdin? Həqiqətən də sən dəhşətli bir iş gördün.” Xızır cavab verdi: “Sənə demədimmi ki, mənimlə bir yerdə olsan səbr edə bilməzsən?” Musa dedi: “Unutduğum bir şeyə görə məni günahlandırma və yoldaşlığımızda məni çətinə salma.” Həqiqətən Musanın bu ilk müxalifəti onun unutmağı olmuşdur.*

*Dənizdən quruya çıxdıqları zaman digər uşaqların yanında oynamaqda olan bir oölanın yanından keçdilər. Xızır dərhal uşağın başından tutdu və onu əliylə qopardı.” (Rəvayət edən Sufayan barmaqlarının ucu ilə sanki meyvə qoparır kimi işarə edib göstərdi.) Musa ona: “Heç bir adamı öldürməmiş günasız bir canamı qəsd etdin? Həqiqətən də dəhşətli bir iş gördün” dedi. O, “Sənə demədimmi ki, mənimlə bir yerdə olsan səbr edə bilməzsən?” deyə cavab verdi. Musa dedi: “Əgər bundan sonra səndən bir şey haqqında soruşsam mənimlə yoldaşlıq etmə, artıq mənim tərəfimdən üzrlü olarsan.”*

*Yenə getdilər. Nəhayət bir məmləkət əhlinə vardılar və onlardan yemək istədilər, amma sakinlər onları qonaq etməkdən imtina etdilər. Sonra onlar yıxılmaqda olan bir divar gördülər və Xızır əliylə toxunmaqla onu düzəltdi. (Rəvayət edən Sufyan əliylə bir şeyi məsh edir kimi işarə etdi.) Musa dedi: “Bu bizim yanlarına gəldiyimiz və bizə yemək verməyən, bizi qonaq etməyən xalqdır. Sən onların yıxılmaqda olan divarına yaxınlaşdın və onu düzəltdin. İstəsəydin bunun əvəzində haqq alardın.” O: “Artıq bu mənimlə sənin ayrılmaq vaxtımızdır. Sənə səbr edə bilmədiyin şeylərin mənasını xəbər verəcəyəm” dedi.”*

*Peyğəmbər (sav) əhvalatı bura qədər hekayə etdikdən sonra, “Kaş səbr edəydi, Allah aralarında baş verəcək əhvalatı bizə bildirərdi” buyurmuşdur. (Rəvayət edən Sufyan dedi ki, Peyğəmbər (sav): “Allah Musaya rəhmət etsin. Kaş o, səbr edəydi, Allah onların əhvaltının davamını bizə bildirəydi” buyurdu, demişdir.)”*

*(Səhih Buxari)*

İndi isə Musa və Xızır (as) əhvalatının əl-Kəhf Surəsindəki rəvayətinə qayıdaq. Əhvalatın mətni altmışıncı ayədə başlayır və səksən ikinci ayədə bitir:

**Ayə 60**

*(Yadına sal ki)* bir zaman Musa öz gənc dostuna *(xidmətində olan Yuşə ibn Nuna)* belə demişdi: “Mən iki dənizin qovuşduğu yerə çatmayınca və uzun müddət gəzib dolanmayınca *(bu səfərdən)* geri dönməyəcəyəm!”

**Ayə 61**

Onlar iki dənizin qovuşduğu yerə gəlib çatdıqda balığı unutmuşdular, balıq isə dənizdə bir yarğana tərəf üz tutmuşdu.

**Ayə 62**

Onlar *(iki dənizin qovuşduğu yerdən)* keçib getdikləri zaman *(Musa)* gənc dostuna dedi: “Nahar yeməyimizi gətir. Bu səfərimiz bizi lap əldən saldı!”

**Ayə 63**

O isə: “Görürsənmi, biz qayanın yanında gizləndiyimiz zaman mən balığı *(əcaib şəkildə dənizə yol tutmağını)* unutdum. Doğrusu, onu xatırlamağı mənə yalnız Şeytan unutdurdu. *(Balıq dirilib)* əcaib bir şəkildə dənizə yollanmışdır!” – deyə cavab verdi.

**Ayə 64**

*(Musa:)* “Elə axtardığımız da budur!” – dedi və onlar öz ləpirlərinin izinə düşüb gəldikləri yolla geri *(iki dənizin qovuşduğu yerə)* qayıtdılar.

**Ayə 65**

Öz dərgahımızdan mərhəmət əta etdiyimiz və Öz tərəfimizdən elm *(qeybə dair bəzi biliklər)* öyrətdiyimiz bəndələrimizdən birini *(Xızırı)* tapdılar.

**Ayə 66**

Musa ondan soruşdu: “Öyrədildiyin doğru yolu göstərən elmdən mənə öyrətmək şərtilə sənə tabe olummu?”

**Ayə 67**

Belə cavab verdi: “Sən mənimlə bir yerdə olsan əsla dözə bilməzsən!

**Ayə 68**

Axı sən bilmədiyin bir şeyə necə dözə bilərsən?”

**Ayə 69**

*(Musa)* dedi: “İnşallah, səbirli olduğumu görəcəksən. Sənin heç bir əmrindən çıxmayacağam!”

**Ayə 70**

*(Xızır)*: “Əgər mənə tabe olacaqsansa, səbəbini sənə izah etməyincə məndən heç bir şey haqqında soruşma!” – dedi.

**Ayə 71**

Bundan sonra onlar durub yola düşdülər. Gəmiyə mindikləri zaman *(Xızır)* onu deşdi. *(Musa)* dedi: “Sən gəmidə olanları suya qərq etmək üçünmü gəmini deşdin? Doğrusu, (günahı) böyük bir şey etdin *(olduqca çirkin bir iş gördün)*”

**Ayə 72**

*(Xızır)* belə cavab verdi: “Sənə demədimmi ki, mənimlə bir yerdə olanda əsla dözə bilməzsən?”

**Ayə 73**

*(Musa)* dedi: “Unutduğum bir şeyə görə məni danlama və məni öz işimdə çətinliyə salma!”

**Ayə 74**

Yenə getdilər, nəhayət, bir oğlan uşağı ilə rastlaşdıqda *(Xızır)* dərhal onu öldürdü. *(Musa)* dedi: “Bir can qarşılığı olmadığı halda *(heç kəsi öldürmədiyi halda)* məsum bir canamı qıydın? Doğrudan da, çox pis bir şey etdin!”

**Ayə 75**

*(Xızır)* dedi: “Sənə demədimmi ki, mənimlə birlikdə olanda əsla dözə bilməzsən?”

**Ayə 76**

*(Musa)* dedi: "Əgər bundan sonra səndən bir şey barəsində xəbər alsam, bir daha mənimlə yoldaşlıq etmə. Sən artıq mənim tərəfimdən üzrlüsən"

**Ayə 77**

Sonra yenə yola düzəlib getdilər. Axırda bir məmləkət əhlinə yetişib onlardan yeməyə bir şey istədilər. Əhali onları qonaq etmək istəmədi. Onlar orada yıxılmaq üzrə olan bir divar gördülər. *(Xızır)* onu düzəltdi. *(Musa)* dedi: "Əgər istəsəydin, sözsüz ki, bunun müqabilində bir muzd alardın!"

**Ayə 78**

*(Xızır)* dedi: "Bu artıq mənimlə sənin aranda ayrılıq vaxtıdır. Dözə bilmədiyin şeylərin yozumunu sənə xəbər verəcəyəm!

**Ayə 79**

Belə ki, gəmi dənizdə çalışıb-vuruşan bir dəstə yoxsula mənsub idi. Mən onu xarab etmək istədim, çünki onların arxasında hər bir saz gəmini zorla ələ keçirən bir padşah var idi.

**Ayə 80**

Oğlana gəldikdə, onun ata-anası mömin kimsələr idi. Buna görə də biz onun ata-anasını da və küfrə sürükləməsindən qorxduq.

**Ayə 81**

Və Rəbbinin onun əvəzində onlara daha təmiz və daha mərhəmətli olan başqa bir övlad verməsini istədik.

**Ayə 82**

Divara gəldikdə isə, o, şəhərdə olan iki yetim oğlanın idi. Altında onlara çatası *(gizlədilmiş)* bir xəzinə vardı. Onların atası əməlisaleh idi. Rəbbin onların həddi-buluğa çatmalarını və Rəbbindən bir mərhəmət olaraq öz xəzinələrini tapıb çıxartmalarını istədi. Mən bunları öz-özümdən etmədim. Sənin səbr edib dözə bilmədiyin şeylərin yozumu *(batini mənası)* budur!"

(əl-Kəhf surəsi, 18:60-82)

**Mənəvi korluğa işarə və Xızırın bu dövrki Müsəlmanlara ismarıcı**

Kəhf Surəsindəki (elə bir Surə ki, bizi Dəccalın Fitnəsindən qoruyur) bu əhvalat işarə edir ki, Dəccalın dövründə biliyi yalnız xarici müşahidə etmədən qəbul edən idrak tərzinin şahidi olacayıq. Bu dünyəvi (və ya dinsiz, sekyular) biliyə əsaslanan idrak tərzini kimi qəbul edərsə daxilən və ruhən kor olacaq. İnsanlar yalnız bir – xarici və müşahidə edilə bilən – bilik mənbəyini qəbul etdikdə, son nəticədə onlar yalnız bir gözlə görən insana çevrilirlər (zahiri gözlər) və daxilən yaxud ruhən kor olurlar. İnsanlar daxilən yaxud ruhən kor olduqda, həmçinin ruhən kar olurlar və Allahın zikri (xatırlanması) onların qəlblərindən uzaqlaşır. Din sadəcə bir rəsmiyyətə (formallığa) çevrilir, amma daxili mahiyyətindən məhrum qalır. Quran bu hadisə haqqında qeyd edir ki, bu, Dəccalın dövrünü səciyyələndirir.

*"Biz cinlərdən və insanlardan bir çoxunu Cəhənnəm üçün yaratdıq. Onların* ***qəlbləri*** *vardır, lakin onunla (Allahın birliyini sübut edən dəlilləri, özlərinin dini borc və vəzifələrini)*

***anlamazlar**. Onların **gözləri** vardır, lakin onunla (Allahın möcüzələrini) **görməzlər**. Onların **qulaqları** vardır, lakin onunla (öyüd-nəsihət) **eşitməzlər**. Onlar **heyvan** kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər. **Qafil olanlar da məhz onlardır!**”*

*(əl-Əraf surəsi, 7:179)*

*“Biz onların ürəklərini və gözlərini əvvəlcə ona (Qurana və ya göndərdiyimiz hər hansı ayəyə) iman gətirmədikləri kimi tərsinə (çaşqınlığa tərəf) çevirər və onları öz azğınlıqları içində şaşqın bir vəziyyətdə qoyarıq.”*

*(əl-Ənam surəsi, 6:110)*

*“Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir!”*

*(əl-Bəqərə surəsi, 2:7)*

*“O kəslər ki, gözləri Məni anmaqdan qapalı (pərdəli) idi və eşitməyə də qadir deyildilər.”*

*(əl-Kəhf surəsi, 18:101)*

Dəccalın dövrü elmi praktiki, yəni xarici müşahidə yoluyla əldə olunan biliyin dövrü olacaq. Bu dövr biliyi o qədər dünyəviləşdirəcək ki, yekunda material dünyadan başqa bir dünya yoxdur nəticəsinə gəlinəcək. Bu, materializmin Küfrünü bağrına basacaq. Bu bizim sabit qənaətimizdir ki, biz indi Küfr dövründə, böyük Kafir Dəccalın zamanında yaşayırıq.

Musa (as) əhvalatda hər üç hadisədə xarici müşahidəyə əsasən mühakimə yürüdürdü. Hər üç halda da o yalnış idi. O, gəmiyə ziyan vurulmasını qınadı. Amma həqitət bu idi ki, gəminin zədələnməsi onun padşah tərəfindən zəbt edilməsinin qarşısını aldı. Burdan belə nəticəyə gəlmək olar ki, insanlar da mühakimə yürütmədə yalnış ola bilər və bu xətaya görə dəhşətli hesab verə bilərlər. Müsəlmanlar Xızır kimi daxili bilik ilə lütf olunmuş bir rəhbər arayıb tapmalı və belə rəhbəri tapdıqda onun ardınca getməlidirlər.

Xızır (as) bu hadisədə kasıb qayıqçıların mülkiyyətini sadəcə qorumaqdan daha çox şey etdi. *O, müasir yalançı Məsih Dəccal zamanında yaşayan möminlərə güclü ismarıc göndərdi ki, əgər onlar mülkiyyətlərinin (yəni qayığın) soyğunçular üçün qeyri-cazibliyini təmin etsələr, öz var-dövlətlərini, mülkiyyətlərini və hətta canlarını o soyğunçulardan, quldurlardan, adam oğrularından və idarəçilərinin zülmündən qorumuş olarlar. O, həmçinin əxlaq qaydası ilə bağlı mühüm ibrət verir. Ona görə birisi əxlaqi qaydaya sadiq qalmaq üçün məkanın qayda və qanununa məhəl qoymamalıdır, yəni mömin əxlaqi qaydaya üstünlük verеməlidir (həmin məkanın qaydası nə olusa olsun).*

Musa (as) uşağın öldürülməsini pislədi, əslində isə Kafir olaraq böyüyəcəkdi və onun Küfrü valideynlərinin imanını təhlükə altına qoyacaqdı. Xızır (as) oğlanı öldürərək kafirdən qurtulmaqla valideynlərinin imanını xilas etdi və dua etdi ki, Uca Allah əvəzində onlara təskinlik və xoşbəxtlik mənbəyi olacaq başqa oğlan uşağı versin.

Xızır bu hadisədə sadəcə oğlanın valideynlərinin imanını qorumaqdan daha çox şey etdi. *O, möminlərə güclü ismarıc göndərdi ki, yalançı Məsih Dəccalın səbəb olduğu bu ateist dünyanın Küfrü ilə qarşılaşdıqda özlərini Küfr dünyasından ayırmaq və Uca Allaha bunu imanlarını qoruya biləcəkləri daha yaxşı məkanla əvəz etməsini dua etməklə oğlanı öldürən Xızırın (as) etdiyi hərəkəti təqib etməlidirlər. Oğlanı öldüməyin ikinci ismarıcı bu ola bilər ki, onlar Küfrün zərərini hələ böyüyüb tam bir Küfr olmamış dəf etməlidirlər.*

Musa (as) yıxılan divarın tikilməsini məmləkət əhli üçün xeyirxahlıq olaraq qəbul etdi, elə bi xeyirxahlıq ki, iki ac və yorğun yolçuya soyuq davranışı səbəbilə layiq deyildilər. Buna görə onların bunun qarşılığında ödəniş etməli olduqları qənaətində idi. Həqiqət bu idi ki, o, divarı təmir etməklə onun altında dəfn olunmuş sərvətin məmləkət əhli tərəfindən ələ keçirilməsinin

qarşısını aldı. Beləliklə o, bu xəzinəni iki yetim üçün mühafizə etdi ki, onlar həddi-buluğa çatanda onu tapıb istifadə edə bilsinlər.

Bu hadisədə də Xızır (as) sadəcə yetimlərin xəzinəsini qorumaq üçün divarı təmir etməkdən daha çox şey etdi. *O, Dəccalın səbəb olduğu "İslama qarşı müharibəyə" məruz qalan möminlərə güclü bir ismarıc göndərdi. İslam yurdunun dağıldılması cəhdlərinə şahid olduqları zaman, onlar Xızırı (as) təqlid edərək həmin yurdu yenidən tikməlidirlər, elə ki, İslam həqiqətini gələcək nəsillərə mühafizə edə bilsinlər. Mənim fikrimcə müasir dünyada İslamın sürətlə dağıdılmaqda olan binasını yenidən tikməyin və ya təmir etməyin ən yaxşı yolu ucqar kənd yerlərində minlərlə kiçik Müsəlman kəndlərinin qurulmasıdır. Belə Müsəlman kəndi divarın altında dəfn olunmuş xəzinəyə bənzər status qazanacaq. Burada qeyd olunmalı ən mühüm məqam isə odur ki, əl-Kəhf Surəsinin bu əhvalatında xəzinəni qoruduğu kimi Uca Allah Özü belə kəndləri zərərdən qoruyacaq.*

**Dəccal, Musa və Xızır**

Dəccal kimdir? Dəccal mövzusu İslamda nə qədər əhəmiyyətlidir? Nə üçün o, əl-Məsih əl-Dəccal (yalançı Məsih və ya anti-Xrist) kimi tanınır? Və əl-Kəhf Surəsindəki Musa və Xızırın əhvalatı Dəccal mövzusu ilə necə əlaqəlidir? Bu maraqlı və diqqət çəkici suallara biz indi cavab verməyə çalışacağıq.

İslamda Dəccal mövzusunun əhəmiyyəti Peyğəmbərin (sav) möminlərə öz namazlarında Dəccalın fitnəsindən qorunmaq üçün dua oxumalarını buyurması faktından aşkardır. Aişə, Əbu Hureyrə və Ənəs ibn Malikdən rəvayət olunan aşağıdakı hədisləri nəzərdən keçirək:

*Peyğəmbərin (sav) zövcəsi Aişə rəvayət etmişdir: "Allahın Rasulu namzında "Əllahummə inni əuuzu bikə min azəbil qabri, və əuuzu bikə min fitnətil Məsihid Dəccəəl, və əuzu bikə min fitnətil məhyə və fitnətil məməti. Əllahummə inni əuzu bikə minəl mə səmi vəl məğrami"[23] deyərək Allaha dua edərdi."*

*(Səhih Buxari)*

*Əbu Hüreyrə rəvayət etmişdir: "Allahın Rasulu (Allaha belə) dua edərdi: Əllahummə inni əuuzu bikə min azəbil qabri, və min azəbin nər, və min fitnətil məhyə və fitnətil məməti, və min fitnətil Məsihid Dəccəəl.[24]"*

*(Səhih Buxari)*

*Ənəs ibn Malik rəvayət etmişdir ki, Allahın Rasulu (sav) belə dua edərdi: "Allahım, xəsislikdən, qocalığın ən düşkün çağına çatmaqdan, qəbr əzabından, Dəccalın fitnəsindən, həyatın və ölümün fitnəsindən Sənə sığınıram."*

*(Səhih Buxari)*

*Aişə rəvayət etmişdir: "Mən Allah Rasulunun duasında Dəccalın fitnəsindən Allaha sığındığını eşitdim."*

*(Səhih Buxari)*

*Əbu Hureyrə rəvayət etmişdir ki, Allah Rasulu buyurmuşdur: "Biriniz sonuncu Təşəhhüdü bitirəndə (bununla namaz tamamlanır), dörd şeydən Allaha sığınsın, yəni Cəhənnəm əzabından, qəbr əzabından, həyatın və ölümün fitnəsindən və əl-Məsih əl-Dəccalın fitnəsindən."*

*(Səhih Müslim)*

[23] Allahım, qəbr əzabından, əl-Məsih əl-Dəccalın fitnəsindən, həyatın və ölümün fitnəsindən sənə sığınıram. Allahım günahdan və borcdan sənə sığınıram.

[24] Allahım, qəbr əzabından, cəhənnəm əzabından, həyatın və ölümün fitnəsindən , əl-Məsih əl-Dəccalın fitnəsindən sənə sığınıram.

Qəribədir ki, Müsəlmanlar namazlarınada Dəccalın fitnəsindən qorunmaq üçün Uca Allaha dua etməli olduqları halda, Quran və Sünnənin Dəccal barəsində öyrətməsinə baxmayaraq bu məsələdə hələ də dərin cəhalət içindədirlər. Bugün bu, tamamilə Müsəlman cəmiyyətinin ümumi vəziyyətidir, yəni cəhalət yaxud Dəccal mövzusu ilə bağlı dolaşıqlıq.

Peyğəmbər (sav) möminlərə sadəcə Dəccalın fitnəsindən qorunmaq üçün Allaha dua etməyi deyil, həmçinin Dəccal çox təhlükəli olduğu üçün ondan uzaq qalmağı da buyurmuşdur. O, həmiçinin Dəccalın səbəb olduğu böyük təhlükənin dəqiq xüsusiyyətlərini xəbər vermişdir. Əsas məqsədi insanların "həqiqəti" və "haqq dini" tanımaq qabiliyyətini azdırmaq olan Dəccalın dövründə dünyanın reallığını başa düşməsək, bu, bizim qailiyyətsizliyimiz olar. İnsanlar korcasına və inadla yalana, eləcə də azmış həqiqətə bağlı qaldıqları halda Qurandakı doğru həqiqəti inkar edəcəklər. Peyğəmbər (sav) açıqlamışdır ki, Dəccalın hücumu həcminə görə dünyəvi olacaq və beləliklə bütün insanlıq hədəf alınacaqlar:

*İmran ibn Husayn rəvayət etmişdir ki, Peyğəmbər (sav) dedi: "Hər kim Dəccaldan xəbər tutsa ondan uzaq getsin, çünki Allaha and olsun birisi onun mömin olduğunu zənn edərək yanına gələcək və onun (Dəccal) tərəfindən içinə düşürüldüyü şübhələr səbəbilə ona tabe olacaq."*

*(Sünən Əbu Davud)*

*Ənəs ibn Malik rəvayət etmişdir ki, Peyğəmbər (sav) dedi: "Məkkə və Mədinədən savayı Dəccalın daxil olmadığı şəhər olmayacaq. Mələklərin ondan qorumaq üçün düzülmədikləri giriş (Məkkə və Mədinənin) olmayacaq və sonra Mədinə sakinləri ilə birlikdə üç dəfə silkələnəcək (yəni üç zəlzələ olacaq) və Allah bütün imansızları və münafiqləri oradan çıxardacaq."*

*(Səhih Buxari)*

Dəccalın fitnəsinin mahiyyətilə əlaqədar olaraq Peyğəmbər (sav) xəbərdarlıq etmişdir ki, bu, insanlığın Adəmin (as) dövründən qiyamətə qədər gördüyü ən böyük fitnə olacaq.

Daha sonra o, xəbər vermişdir ki, Dəccalın missiyyası sona yaxınlaşanda, Uca Allah Peyğəmbərin (sav) nəslindən İmam əl-Mehdini ortaya çıxaracaq. Dəccal onu məhv etmək üçün hücun edəcək. Amma sonra Uca Allah səmadan İsanı (as) endirəcək və o, Dəccalı öldürəcək. Yalnız o zaman uzun və dəhşətli günah və pislik sona çatacaq.

Biz "Quranda Yerusəlim" adlı kitabımızda iddia edirik ki, Məryəm oğlu İsanın geri qayıtmasına çox yaxın zamandayıq. Bu ona işarə edir ki, Dəccal yer üzərinə bir müddət əvvəl buraxılmışdır.

Müəllif həmçinin inanır ki, dünyəvi maddiyyatçı Qərb sivilizasiyasının, onun düşüncə müasir tərzinin və daha da tənəzzülə doğru şəkil dəyişdirən və yenidən şəkil dəyişdirən həyat tərzinin arxasında Dəccal dayanır. Bu elə bir sivilizasiyadır ki, insanlığı Peyğəmbərin (sav) xəbər verdiyi ən yüksək sınağın (fitnənin) obyekti edir. Bu kitabın əsas xüsusiyyəti belə bir isrardır ki, əl-Kəhf Surəsi sadəcə oxunmalı deyil, həmçinin – əgər möminlər Dəccalın fitnəsindən qorunmaq istəyirlərsə – tədqiq edilməlidir.

Bu kitab xəbərdalıq edir ki, müasir Avro-Xristian və Avro-Yəhudi üsullu həyat tərzi – hansı ki, insanlığın əksəriyyəti, eləcə də əksər Müsəlmanlar tərəfindən şərtsiz qəbul edilməkdədir – çox hiyləgərcəsinə aldadıcıdır və möminlərin ən yaxşısını belə yolundan azdıra bilər. Biz elə bir dövrdə yaşayırıq ki, Müsəlman kütlələrinin imanı artıq aşındırılmışdır. Şübhəsiz bu fəlakətə reaksiya göstərməyin üsullarından biri Quranın əl-Kəhf Surəsinə yenidən diqqət yetirmək və Surədən istifadə edərək bu günükü dünyanı anlamağa çalışmaqdır.

**Dəccalın mənəvi korluğu – o, yalnız tək gözlə görür**

Peyğəmbər (sav) bizə Dəccalın xüsusiyyətlərindən ən vacibi ilə bağlı mühüm bir məlumat vermişdir. O, yalnız bir gözlə görür, bu səbəbdən də yalnız "İlm əl-Zahir", yəni empirik elmə nail ola bilir. O, sağ gözündən kordur və bu daxili (mənəvi) korluğu simvolizə edir. Bu səbəblə də o, "İlm əl-Batin" və ya daxili mənəvi biliyin mövcudluğunu inkar edir:

*İbn Ömər dedi: "Bir dəfə Allahın Rasulu insanların arasında dayanıb Allaha layiq olduğu kimi şükr və tərif etdi, sonra o, belə söyləməklə Dəccaldan bəhs etdi: "Mən sizi ona (Dəccala) qarşı xəbərdarlıq edirəm və elə bir Peyğəmbər olmamışdır ki, öz xalqını ondan xəbərdar etməsin. Şübhəsiz ki, Nuh öz qövmünü ondan xəbərdar etmişdir, amma mən sizə onun haqqında elə bir şey deyəcəyəm ki, məndən qabaq heç bir Peyğəmbər bunu öz ümmətinə söyləməmişdir. Siz bilməlisiniz ki, o tək gözlüdür, Allah isə tək gözlü deyil."*

*(Səhih Buxari)*

*Abdullah ibn Ömər rəvayət etmişdir: "Allahın Rasulu insanların arasında dayandı, sonra da Allah layiqincə şükr və tərif etdi, sonra o, Dəccaldan bəhs etdi: "Mən sizi ondan xəbərdar edirəm və elə bir Peyğəmbər olmamışdır ki, öz davamçılarını ondan xəbərdar etməsin. Amma mən sizə onun barəsində elə şey deyəcəyəm ki, heç bir Peyğəmbər bunu öz davamçılarına söyləməmişdir: Dəccal tək gözlüdür, Allah isə tək gözlü deyil."*

*(Səhih Buxari)*[25]

*Abdullah rəvayət etmişdir: "Peyğəmbərin hüzurunda Dəccaldan bəhs edildi. Sonra Peyğəmbər dedi: "Şübhəsiz Allah sizdən gizli deyil; O, təkgözlü deyil" və o, əli ilə gözünə işarə edərək dedi: "Halbuki əl-Məsih əl-Dəccal sağ gözündən kordur və onun gözü salxımındakı yerindən bayıra çıxmış üzümə dənəsinə bənzəyir"*

*(Səhih Buxari)*

*Ubədə ibn Samit rəvayət etmişdir ki, Peyğəmbər (sav) dedi: "Şübhəsiz sizə Dəccal haqqında (çox) danışmışam, (amma yenə də) anlayamamış olamığınızdan qorxuram. Dəccal qısa boylu, əyri ayaqlı, qıvrım saçlı, tək gözlüdür. Gözü nəzərə çarpmır, qabarıq da, çüxur da deyil. Əgər vəziyyəti sizi çaşdırarsa, bilin ki, Rəbbiniz tək gözlü deyil."*

*(Sünən Əbu Davud)*

*İbn Ömər dedi: "Peyğəmbər aramızda ikən biz Vida Həcci barədə danışırdıq, fəqət Vida Həccinin nə olduğunu bilməzdik. Peyğəmbər Allaha şükr və tərif etdikdən sonra Məsih Dəccaldan bəhs etdi və onu zahirən təsvir etdi. Belə dedi: "Şübhəsiz Allahın göndərdiyi hər bir Peyğəmbər öz qövmünü Dəccaldan xəbərdar etmişdir. Dəccaldan Nuh da, ondan sonra göndərilmiş Peyğəmbərlər də xəbərdarlıq etmişlər. Və o, mütləq sizin aranızda ortaya çıxacaqdır. Onun işlərindən (xüsusiyyətlərindən) bəzisi sizə gilzli olarsa Rəbbinizin hökmü sizə aydındır və gizli deyil." Peyğəmbər üç dəfə: "Şübhəsiz sizin Rəbbiniz tək gözlü deyil. Dəccalın isə sağ gözü kordur və onun gözü salxımındakı yerindən bayıra çıxmış üzüm dənəsinə bənzəyir" dedi..."*

*(Səhih Buxari)*

*Abdullah rəvayət etmişdir: "Peyğəmbər insanların qarşısında bunları söylərək Məsih Dəccaldan bəhs etdi: "Allahtək gözlü deyil, amma Dəccal sağ gözündən kordur və onun gözü salxımındakı yerindən bayıra çıxmış üzümə bənzəyir. Keçən gecə Kəbənin yaxınında yatarkən yuxumda qəhvəyi rəngli adam gördüm, birinin görə biləcəyi ən əsmər rənglisi və onun saçları o qədər*

---

[25] Eyni ravidən (rəvayət edən) gələn rəvayətlərin mövcudluğu İmam Buxarinin müxtəlif mənbələrdən (istinadlardan) eyni rəvayətin bir-birindən bir az fərqli söylənişini Səhih əsərinə daxil etməsindən irəli gəlir.

*uzun idi ki, çiyinlərinə çatırdı. Onun saçları düz və incə idi və saçlarından su damlayıdı. O, əllərini iki adamın çiyninə qoyaraq Kəbəni təvaf edirdi. Mən soruşdum: "Bu kimdir?" Onlar cavab verdilər: "Məryəm oğlu İsa." Sonra onun arxasında olduqca qıvrım saçlı, sağ gözü kor olan, gördüyüm insanlar arasında İbn Qatana (ərəblərdən kafir olan birisi) çox bənzəyən birisini gördüm. Bu da iki əlini iki adamın çiyninə qoyaraq Beyti təvaf edirdi. Mən soruşdum: "Bu kimdir?" "Bu Dəccaldır" dedilər."*

*(Səhih Buxari)*

*Ənəs ibn Malik rəvayət etmişdir ki, Peyğəmbər (sav) dedi: "Öz davamçılarını tək gözlü yalançıdan (Dəccal) xəbərdar etməmiş heç bir Peyğəmbər göndərilməmişdir. Diqqətli olun! O, bir gözündən kordur, amma sizin Rəbbiniz belə deyildir. Və onun gözləri arasında Kafir (yəni imansız sözü) yazılmış olacaqdır. (Bu hədis də Əbu Hüreyrə və İbn Abbas tərəfindən rəvayət edilmişdir.)*

*(Səhih Buxari)*

**Dəccalın kor gözü salxımındakı yerindən bayıra çıxmış üzümə bənzəyir**

*Abdullah rəvayət etmişdir: "Peyğəmbər insanların qarşısında bunları söyləərək Məsih Dəccaldan bəhs etdi: "Allahtək gözlü deyil, amma Dəccal sağ gözündən kordur və onun gözü salxımındakı yerindən bayıra çıxmış üzümə bənzəyir...*

*(Səhih Buxari)*

"Salxımındakı yerindən bayıra çıxmış üzüm" təsviri ona işarə edir ki, Dəccalın və onu izləyəcək olanların mənəvi korluğu hər iki gözü ilə görən insanlar üçün tamamilə aşkar olacaq. Bu onlara "salxımındakı yerindən bayıra çıxmış üzüm" kimi aydın görünəcək! Bu mənəvi korluğu, yəni "salxımındakı yerindən bayıra çıxmış üzümə" bənzər olan gözü yalnız o kəslər görməyə qabil olmayacaqlar ki, onlar özləri də mənən (ruhən) kordurlar.

Bu anlaşılmalıdır ki, Dəccalın gözləri ilə bağlı məlumat dini simvolizm ilə bağlıdır və hərfi mənada başa düşülməməlidir. Aşağıdakı dəlil dəqiq olaraq bunu göstərir. Birincisi, Peyğəmbər (sav) Mədinədəki Yəhudi oğlanın əslində tək gözlü olmamasına baxmayaraq onun Dəccal olmasından şübhələnirdi. İkincisi, Təmim əl-Dari şəxsən Dəccal ilə görüşdükdə və göz şahidi kimi bu görüşü və Dəccalın təsvirini Peyğəmbərə (sav) danışanda onun gözü haqqında qeyd yox idi. Bu onun fiziki olaraq ortaya çıxması haqqında hərfi mənada sağ gözündən kor olub olmaması ilə bağlı ən bariz dəlildir.

**Dəccalın gözləri arasında Kafir sözü yazılmışdır**

*Ənəs ibn Malik rəvayət etmişdir ki, Peyğəmbər (sav) dedi: "Öz davamçılarını tək gözlü yalançıdan (Dəccal) xəbərdar etməmiş heç bir Peyğəmbər göndərilməmişdir. Diqqətli olun! O, bir gözündən kordur, amma sizin Rəbbiniz belə deyildir. Və onun gözləri arasında Kafir (yəni imansız sözü) yazılmış olacaqdır. (Bu hədis də Əbu Hüreyrə və İbn Abbas tərəfindən rəvayət edilmişdir.)*

*(Səhih Buxari)*

Dəccalın insanlıq üzərinə hücumunun (yəni onun gözləri ilə bağlı hücumun) qnoseoloji, yəni idrak tərzi, bilik, bilyin mənbələri və bilik və elm əldə etməyin vasitələri ilə bağlı olmasına işarə edən Hədisin şərhinin dəlili Kafir sözünü Dəccalın gözləri arasında yerləşdirən mühüm Hədisdə təyin olunmaqdadır. Küfr onun gözləri arasında yerləşdiyinə görə, bu onun "görmə dairəsi" və ya onun biliyi görmək və əldə etmək qabiliyyəti ilə bağlıdır. İkincisi, hədis açıq-aşkar

ifadə edir ki, Dəccalın və deməli Dəccal dövrünün küfrü tamamilə aydın olacaq, yəni örtülü olmayacaq. Birisi o küfrü görə bilməmək üçün kor olmalıdır, çünki bu onun gözləri arasında, yəni daxili və zahiri görmə qabiliyyətləri arasında yazılmış olacaq.

Müasir Avro-Yəhudi və Avro-Xristian qərb sivilizasiyasının xüsusiyyətlərini müəyyən etməyin yollarından biri biliyin dünyəviləşməsindən meydana gələn Küfrdür, və nəticə etibarı ilə mənəvi (ruhani, dini) qavrayışın biliyin mənbəyi olaraq inkar edilməsidir. Avro-Xristian Qərbin qəbul etdiyi yeganə bilik xarici (zahiri) görmə qabiliyyətlərilə və s. müşahidə edilən bilikdir və bu səbəblə də belə bilik yalnız maddi dünyada yerləşmişdir. Qərb bu təyin olunmuş xüsusiyyəti heç də gizlətmir, hansı ki, Küfr sözünün gözlərin arasında yazılması kimi açıq-aşkardır. Biz demirik ki, müasir qərb sivilizasiyası Dəccaldır. Daha ziyadə biz deyirik ki, bu Dəccalın əsəridir və Dəccala xidmət edir. Burdan belə nəticə çıxarmaq olar ki, müasir qərb sivilizasiyasını təqlid edən hər kəs Dəccalın ardıcılı olacaqdır və nəticədə onun tanrısızlığını qəbul edəcək və Allaha olan imanının məhv etmiş olacaqdır. Uca Allah artıq bəyan etmişdir ki, insanlığın hər 1000 nəfərindən 999-u beləcə məhv ediləcək və cəhənnəmə daxil olacaqlar!

### Uca Allah tək gözlü deyil

Artıq bu mövzu ilə bağlı olaraq deyə bilərik ki, tək gözlü adam yalnız bir gözü ilə, yəni yalnız zahirən görən adama deyilir. Dəccalı və onun quracağı həyat tərzini izləyən hər kəs tək gözlü adama çevriləcək. Hədis Allahın tək gözlü olmadığını bəyan etdikdə, bunun mənası odur ki, Allah həm zahiri (əl-Zahir), həm də batini (əl-Batin) görə bilir. Beləliklə o, hər iki tərəfi, həm “zahiri görüntünü”, həm də “daxili həqiqəti”, həm “şəkli”, həm də “mahiyyəti” görə bilir. Allah bunu Özü haqqında Quranda bəyan edir:

*“Əvvəl də, Axır da, Zahir də, Batin də Odur. O, hər şeyi biləndir!”*

*(əl-Hədid surəsi, 57:3)*

Musa (as) özünün bütün insanlardan ən bilikli olduğunu bildirərək cavab verərkən o, bütün biliyin Uca Allahdan gəldiyinin fərqinə varmamaqla yanılmışdı və Allah hər şeydən ən üstün elmə sahibdir. O, həm də sahib olduğu elmin ən üstün elm sahibi Allahın elmi ilə müqayisədə çox kiçik və xərda oluğunun fərqinə də vara bilməmişdi. Bilik dünyəviləşəndə baş verən şey də məhz budur.

# FƏSİL 8

## ZÜLQƏRNEYNİN ƏHVALATI

Mədinəli yəhudi Ravvini Muhəmməd Peyğəmbərin (sav) Uca Allahın həqiqi Peyğəmbəri olub olmadığını yoxlamaq məqsədilə Qureyş qəbiləsindən olan ərəblərə ondan soruşmaq üçün üç sual verdilər. Üç sualdan biri yerin iki kənarını fəth etmiş böyük səyyah haqqında idi. Fikrimizcə o sualı verməklə Ravvin Muhəmməd Peyğəmbərin (sav) Qiyamətin əsas əlamətlərindən biri, yəni Yəcuc və Məcuc haqqında xəbəri olub olmadığını öyrənmək istəyirdilər.

Zülqərneyn mövzusunu və onun müsair zamanla bağlı işarələrini izah etməyə cəhd etməmişdən qabaq ilk növbədə böyük səyyahla bağlı Ravvin tərəfindən irəli sürülən suala Quranın verdiyi cavabı yazaraq qeyd edək. Cavab əl-Kəhf Surəsinin səksən üçüncü ayəsində başlayır və yüz birinci ayəyə qədər davam edir:

**Ayə 83**

*(Yə Rasulum!)* Səndən Zülqərneyn barəsində soruşarlar. De: "Onun barəsində sizə bir hekayət söyləyəcəyəm.

**Ayə 84**

Həqiqətən, Biz onu yer üzərində möhkəmləndirib qüvvətləndirdik və hər şeyin yolunu ona öyrətdik.

**Ayə 85**

O *(belə)* bir yola çıxdı,

**Ayə 86**

Nəhayət, günəşin batdığı yerə gəlib çatdıqda onu qara palçıqlı bir çeşmədə *(yəni Qara dənizdə - Təfsir Cələləyn)* batan gördü. O, çeşmənin yanında bir tayfa da gördü. Biz ona belə buyurduq: "Yə Zülqərneyn! Sən onlara əzab da verə bilərsən, onlarla yaxşı rəftar da edə bilərsən!"

**Ayə 87**

O belə cavab verdi: "Zülm edənə əzab verəcəyik. Sonra o, Rəbbinin hüzuruna qaytarılacaq. O da ona *(öncə)* görünməmiş bir əzab verəcəkdir!

**Ayə 88**

İman gətirib yaxşı iş görənləri isə ən gözəl mükafat *(Cənnət)* gözləyir. Biz ona asan bir şey əmr edəcəyik!"

**Ayə 89**

Sonra o, *(başqa bir yola tərəf)* üz tutub getdi.

**Ayə 90**

Nəhayət, günəşin çıxdığı yerə çatdıqda onu bir qövm üzərində doğan gördü ki, onlardan ötrü *(ola bilsin günəşə qarşı)* heç bir sipər yaratmamışdıq.

**Ayə 91**

Belə idi *(o, onları belə tərk etdi)*. Biz hələ onun yanında daha nələr olduğunu da bilirik *(yəni niyə belə davrandığını bilirik)*.

**Ayə 92**

Daha sonra o *(başqa bir yola)* üz tutub getdi.

**Ayə 93**

Nəhayət, iki dağ arasına gəlib çatdıqda onların ön tərəfindən az qala söz anlamayan *(yəni danışıqları çox çətin başa düşülən)* bir tayfa gördü.

**Ayə 94**

Onlar dedilər: "Ey Zülqərneyn! Yəcuc və Məcuc *(bu)* ərazidə fitnə-fəsad törədirlər. Bizimlə onlar arasında bir sədd çəkmək üçün sənə müəyyən məbləğ *(yaxud xərac)* versək olarmı?"

**Ayə 95**

O dedi: "Rəbbimin mənə verdiyi *(qüdrət və sərvət sizin mənə verəcəyiniz məbləğdən)* daha yaxşıdır. Gəlin öz qüvvənizlə *(işçi qüvvəsi)* mənə kömək edin, mən də sizinlə onlar arasında möhkəm bir sədd düzəldim!

**Ayə 96**

Mənə dəmir parçaları gətirin!" O, iki dağın arasını bərabərləşdirən kimi: "*(Körükləri)* üfürün!" – dedi. *(O dəmiri)* od halına salınca: "Mənə ərimiş mis gətirin, onun üstünə tökün!" dedi.

**Ayə 97**

Artıq nə *(səddi)* aşa bildilər, nə də onu dəlib keçə bildilər.

**Ayə 98**

O dedi: "Bu Rəbbimdən bəxş edilən bir mərhəmətdir. Rəbbimin təyin etdiyi vaxt gəldikdə isə *(O,)* onu yerlə yeksan *(dümdüz)* edəcəkdir. Rəbbimin vədi haqdır!"

**Ayə 99**

O gün onları dalğalar kimi bir birinə qarışır vəziyyətdə buraxarıq. Sur çalınan kimi onların hamısını bir yerə cəm edərik *(yəni dünya elə bir qloballaşmanın şahidi olacaq ki, bütün insanların bir-birinə qarışdığı qlobal bir kəndə bənzəyəcək)*.

**Ayə 100**

O gün Biz Cəhənnəmi kafirlərə əyanən göstərərik.

**Ayə 101**

O kəslər ki, gözləri Məni anmaqdan qapalı idi və eşitməyə də qadir deyildilər.

(əl-Kəhf surəsi, 18:83-101)

### Zülqərneyn hökmranlığı

Ərəb dilində "Zül Qarnəyn" iki "Qarn" sahibi deməkdir. Bu ya iki "buynuz" ya da iki "dövr" mənasını verir. Amma Quran boyu "qarn" sözü dövr və ya çağa istinad etdiyi üçün və heç bir zaman buynuz mənasında işlədilmədiyi üçün biz "Zül Qarneyn" sözünü "tarixin iki müxtəlif dövrünə və ya səhifəsinə təsir edən adam" olaraq tərcümə edirik. Madam ki, biz yəhudi Ravvinlər tərəfindən verilən sualın həqiqi hədəfini Qiyamətin əsas Əlaməti, yəni Yəcuc və Məcuc olaraq müəyyən edirik, fikrimizcə Qarneyn, yəni "iki dövr" həm uzaq tarixdəki dövrə və həm də gəlmək üzrə olan Axır Zamana və ya Fitan (Fitnələr) Dövrünə istinad edir. Fikrimizcə biz indi Axır Zamanda yaşayırıq və bu səbəblə də bu əhvalatın günümüzün Müsəlmanları ilə birbaşa əlaqəsi var.

Zülqərneyn kim idi? Bu yazar Zülqərneynin tarixi şəxsiyyət olub olmadığı ilə bağlı suala diqqət yetirilməsinin o qədər də əhəmiyyətli olmadığını hesab edir. Daha ziyadə biz inanırıq ki, diqqət Zülqərneynin qüdrət və səlahiyəttini təbiq edərkən göstərdiyi davranışa yönəldilməlidir, çünki, ilahi təlimatın mahiyyəti nəql edilən əhvalatın bu məqamında yerləşir.

Kəhf Surəsi bu əhvalatda bizi *qüdrət* və onun Uca Allaha *imanla* əlaqəsi mövzusu ilə tanış edir. Zülqərneyn Allaha iman sahib idi və o, Allah tərəfindən istədiyi hədəfə çata biləcəyi qüdrətlə lütf edilmişdi. Ona görə də onun müasir beynəlxalq münasibətlərin dili ilə desək Pax Qərneyn (yəni Zülqərneyn dünya nizamı və ya hökmranlığı) qurmaq qüdrəti var idi. Bu əhvalatın mərkəzində tarixin bir zamanında Uca Allaha iman sahibi olan birisi tərəfindən qurulan dünya nizamının (Pax İslamica və ya İslami dünya nizamı) təsviri dayanır. Bizə çox mühüm olan bir dünya nizamının təsviri verilir.

Sonra əhvalat qüdrətin tamamilə Zülqərneyn dövrünün əksinə olaraq istifadə edilməsinə şahid olacaq Yəcuc və Məcucun dünya nizamının ortaya çıxacağını xəbərdalıq etməklə davam edir. Nəhayət cavanlar və mağara əhvalatında[26] vəd edilmişdi ki, tarixin o səhifəsi yenidən ziyarət edilmədən və qürdət Zülqərneyn tərəfindən istifadə edildiyi kimi istifadə edilmədən tarix sona çatmayacaq. Bu, həqiqi Məsihin – Məryəm oğlu İsanın – haqqı bərpa etmək və İslami dünya nizamını yenidən qurmaq üçün dünyaya qayıtdığı zaman məlum olacaq.

### Zülqərneyn hökmranlığı – Qərbə səyahət

Zülqərneyn qərbə doğru səyahət etdi, o vaxta qədər ki, o, qara palçıqlı suya çatdı və Günəşi o dəniz suyunun arxasında batan gördü (poetik mənada). Bu, ona işarə edir ki, o, qərbə doğru bacardığı qədər uzaq məsafəyə səyahət etmişdi.

O, orada bir qövm ilə qarşılaşdı və Uca Allah ona ya onları cəzalandırmaq, ya da onları mükafatlandırmaq kimi güc istifadə etməyin iki seçimini verdi. Zülqərneynin cavabı İslami dünya nizamının mahiyyətini ifadə etdi. O, bəyan etdi ki, o, öz güc və səlahiyyətini zalımları cəzalandırmaq üçün istifadə edəcək və o, onları cəzalandırıb qurtardıqdan sonra zalımlar Uca Allahın hüzuruna qaytarılaraq yenidən cəzalandırılacaqlar.

Bu Uca Allahın insanlığın qurmasını istədiyi dünya nizamıdır. Allaha iman sahibləri tərəfindən qurulan belə dünya nizamı səmavi nizamla yerdəki dünya nizamının arasında

[26] əl-Kəhf surəsi, 18:21

harmoniyanın şahidi olacaq. Yəni zülm dəf edildikdə və ədalət bərqərar edildikdə insanlıq xoşbəxt bir hala gələcək ki, sülh və əmin-amanlıq hakim olacaq.

**Zülqərneyn hökmranlığı – Şərqə səyahət**

Qərbə səyahəti təsvir etdikdən sonra əl-Kəhf Surəsi Zülqərneynin Şərqə və ya "günün çıxdığı yerə" səyahətini təsvir edərək davam edir. O, orada elə bir qüvmlə rastlaşdı ki, Uca Allah onlar haqqında belə buyurmuşdur, "onlardan ötrü heç bir sipər yaratmamışdıq". Əhvalat Zülqərneynin bu qövmlə bağlı davranışını şərh ediməsi çox çətin olan bir dildə təsvir edir. "Kəzəlikə" (ərəbcə) sözü bu davranışın birinci hissəsi idi. Bəlkə də bu, "o, onlara rast gəldi və onları (narahat etmədən) tərk etdi" mənasına gəlir. Bu davranışın ikinci hissəsi isə göstərir ki, Zülqərneyn o qüvmün vəziyyətini tamamilə başa düşmüşdü.

Uca Allahın onlar verdiyi "sipər" nə idi ki, ondan başqa onların heç bir "sipəri" yox idi? Və Zülqərneynin onlarla müəmmalı davranışını necə şərh edə bilərik?

Ən doğrusunu Allah Bilir şərtini gözə almaqla izah etməyə çalışaraq, biz düşünürük ki, əl-Kəhf Surəsi burada möminləri Fitnələr dövrünə hazırlayır, elə bir dövr ki, müasir dünyanın yerin bütün ehtiyatlarını, xüsusilə də neft ehtiyatlarını istismar etmək ehtirası insan haqlarının kəsgin pozulmasına gətirib çıxaracaq. Yeganə mülkü sadəcə evi və torpağı olan, amma torpağının altında misal üçün zəngin neft ehtiyatları ola sadə insanlar hər ikisindən, yəni həm evlərindən, həm də torpaqlarından məhrum ediləcəklər.

Zülqərneyn insan şəxsiyyətini və hüquqlarını ehtiyatlardan üstün tutdu, beləliklə onları öz torpaqlarında və evlərində toxunmadan tərk etdi. Axır Zaman gəldikdə və insanlar Riba vasitəsi ilə kəsgin yoxsulluğa sürükləndirildikdə möninlər yerin zənginliklərindən yararlanarkən əmin olmalıdırlar ki, onlar insan şəxsiyyətinə və insan haqlarına hörmət edirlər.

**Zülqərneyn hökmranlığı və sirli üçüncü səyahət**

Yəhudi Ravvinlər tərəfindən verilmiş suala açıq şəkildə cavab verərkən Quran Qərbə və Şərqə iki səyahəti təsvir etdikdən sonra sualın əsil hədəfi olan üçüncü səyahəti təsvir etməklə davam edir, baxmayaraq ki, bu sual Ravvinlər tərəfindən verilərkən açıq şəkildə verilməmişdi.

Üçüncü səyahəti təsvir etməklə əl-Kəhf Surəsi ilk dəfə Yəcuc və Məcucun adını çəkir. Onların yer üzərinə buraxılması Qiyamətin əsas əlamətinin xəbərçisi olacaq. Aydın olmalıdır ki, Qiyamətin əlamətləri haqqında bilik insan təfəkkürünün fövqündə olan bir mövzudur. Belə bir bilik sadəcə Uca Allahın Peyğəmbərlərinə verilə bilər.

Surə bizə xəbər verir ki, Zülqərneyn öz üçüncü səfərində elə bir xalqa rast gəldi ki, iki dağın keçindində yaşayırdılar. Onlar Yəcuc və Məcucun orada fəsad törətməsindən ona şikayət etdilər. Onlar ondan Yəcuc və Məcucun qabağını alacaq və xalqı onlardan qoruyacaq bir sədd tikməyi xahiş etdilər. Onlar Zülqərneynin bunu tikməsi üçün ödəniş etməyə də hazır idilər. Peyğəmbərə (sav) görə onlar Nuhun (as) nəslindən olan iki qövmdürlər. Yuxarıda qeyd olunduğu kimi onlar fitnə-fəsad səbəbkarı idilər. Amma Peyğəmbər (sav) Uca Allahın birbaşa Öz buyuruğunu açıqlayaraq davam etmişdir (Hədis əl-Qudsi): *"Mən bu məxluqlarımı (yəni Yəcuc və Məcuc) elə güclü yaratmışam ki, onları məndən başqa heç kəs məhv edə bilməz."* Bu

məğlubedilməz qüvvələri ilə onlar yer üzündə sülhü məhv edə bilərlər. Bu etibarla onların davranışı Zülqərneyninkinin tamamilə əksinədir.

Zülqərneyn dəmir sədd tikdi və onun üstünü əridilmiş mislə örtdü. Sədd bütün keçidi bağladı və nəticədə Yəcuc və Məcucun qarşısı alınmışdı, elə ki, onlar onu nə dələ bildilər, nə də onu aşıb keçə bildilər. Sonra o bəyan etdi ki, səddin tikilməsi və nəticədə Yəcuc və Məcucun qarşısının alınması İlahi Mərhəmətin təzahürüdür. Amma sonra Allahın o səddi Axır Zamanda Özünün sökəcəyini və Yəcuc və Məcucu dünyaya buraxacığını açıqlayaraq davam etdi.

Surə Yəcuc və Məcuc yer üzərinə buraxılanda dünyanın nələrə şahid olacağını təsvir etməklə əhvalatın sonuna gəlir:

*"O gün onları dalğalar kimi bir birinə qarışır vəziyyətdə buraxarıq. Sur çalınan kimi onların hamısını bir yerə cəm edərik. O gün Biz Cəhənnəmi kafirlərə əyanən göstərərik. O kəslər ki, gözləri Məni anmaqdan qapalı idi və eşitməyə də qadir deyildilər."*

*(əl-Kəhf surəsi, 18:99-101)*

Nəhayət Yəcuc və Məcuc dünyaya buraxılanda insanlıq İslamın onlara təqdim etdiyinin əksinə olan bir dünya nizamının şahidi olacaq. İnsanlıq gücün Allaha imanı olmayan şəxslərin əlində olmağına şahid olacaq. Əsas etibarı ilə tanrısız olan bu dövr gücün məzlumu azad etmək və zalımı cəzalandırmaq üçün istifadə etmək əvəzinə onun (xüsusilə də) Allaha imanı olan və düzgün davranan şəxslərə zülm etmək üçün istifadə edilməsinə şahid olacaq.

Biz "Jerusalem in Quran[27]" adlı kitabımızda iddia edirik ki,Uca Allah Yəcuc və Məcucu yer üzərinə Muhəmməd Peyğəmbərin (sav) dövründə buraxmışdır.

Quran inananlara olduqca mühüm bir işarəni göstərir ki, bununla onlar nəinki Yəcuc və Məcucun artıq buraxılması ilə bağlı konkret dəlilə çatacaqlar, həm də onlar yəqin inanacaqlar ki, dünya indi artıq Yəcuc və Məcucun idarəsi altınadır. Beləliklə onlar Yəcuc və Məcucun dünyada idarə edici qüvvə olduğunu aşkar etməyə qabil olacaqlar. Bu, Yəcuc və Məcuca istinad edərək əl-Ənbiyə Surəsində yerləşir:

*"Məhv etdiyimiz hər hansı bir şəhər əhlinin qayıtması mümkün deyildir (haramdır) – ta ki, Yəcuc-Məcuc (səddinin) açılıb onlar hər tərəfdən sürətlə axışdıqları zamana qədər."*

*(əl-Ənbiyə surəsi, 21-95:96)*

Yəcuc və Məcuc buraxılanda, üstəlik "hər tərəfdən sürətlə axışanda", Uca Allah tərəfindən cəzalandırılmış və qovulmuş şəhər əhli şəhərə yenidən gətiriləcəklər. Yəcuc və Məcucla bağlı həsilərdə adı çəkilmiş yeganə belə şəhər (hansı ki, Uca Allah tərəfindən məhv edilmişdir) vardır. Və bu da Yerusəlimdir.

Yəcuc və Məcucla bağlı həsilərdə Yerusəlimdən başqa heç bir (Uca Allah tərəfindən məhv edilmiş) şəhərin adı çəkilmədiyinə görə, biz belə bir nəticəyə gəlmişik ki, əl-Ənbiyə Surəsində (95-96-cı ayələrdə) qeyd edilmiş şəhər sadəcə Yerusəlim ola bilər.

Bu nəticədən və şəhərin eyniləşdirilməsindən sonra belə düşünmək olar ki, yəhudilərin Müqəddəs Torpaqlara qayıtması Yəcuc və Məcucun müdaxiləsindən sonra mümkün olub. Başqa sözlərlə, dünyanı Vaşinqtondan idarə edən Avro-dünya-nizamı Yəcuc və Məcuc dünya-nizamıdır.

Sonra Quran xəbərdarlıq edərək davam edir ki, bu hadisələr baş verdikdən sonra dünya Qiyamətə doğru geriyə saymanın şahidi olacaq:

---

[27] Quranda Yerusəlim

*Doğru vəd (haqq-hesab günü) yaxınlaşdıqda kafir olanların gözləri (dəhşətdən) dərhal bərəlib: "Vay halımıza! Biz (dünyada) bundan qafil idik. Xeyr, biz zalım olmuşuq!" – (deyərlər).*

*(əl-Ənbiyə surəsi, 21:97)*

Yəcuc və Məcuc buraxılanda onlar "hər tərəfdən sürətlə axışacaqlar". Bu göstərir ki, onlar məğlubedilməz gücləri ilə bütün dünyanın nəzarətini ələ keçirəcəklər və tarixdə ilk dəfə yalnız bir cəmiyyət bütün insanlığı idarə edəcək. O, tamamilə bizim indiki dünyamızdır.

Yəcuc və Məcuc dünya nizamı fəsad (zülm və qəddarlıq) ilə dolu olacaq. Kəhf Surəsi o dünya nizamının fəsadının iki səciyyəvi xüsusiyyətini Zülqərneyn dünya nizamının iki səciyyəvi xüsusiyyətinin əksi olaraq təyin etmişdir.

# FƏSİL 9

# ƏL-KƏHF SURƏSİNİN BAŞLANĞICI

Mübarək Peyğəmbərimiz (sav) möminlərə nəsihət vermişdir ki, əl-Kəhf Surəsinin ilk on ayəsini oxusunlar və bəyan etmişdir ki, beləcə yalançı Məsih Dəccalın Fitnəsindən qorunmuş olacaqlar:

*Əbu Dərda rəvayət etmişdir ki, Allahın Rasulu (sav) dedi: "Hər kim əl-Kəhf Surəsinin ilk on ayəsini əzbərləyərsə, o Dəccalın fitnəsindən qorunmuş olacaq."*

*(Səhih Müslim)*

*"Kim aranızda uzun yaşayıb onu (Dəccalı) görə bilsə, əl-Kəhf Surəsinin başlanğıc ayələrini onun üzərinə oxusun."*

*(Səhih Müslim)*

İndi isə o ismarıcın mahiyyətini aşkar etmək üçün həmin ilk on Ayəni nəzərdən keçirək, çünki onlar Dəccal və onun möminlərə təhlükəsi ilə bağlı xəbər verirlər. Surənin bu on Ayəsi ilə bağlı müşahidə etdiyimiz ilk şey (Bismilləhin ilk Ayə hesab olunmadığını fərz düşünsək) odur ki, onlar Dua və ya yalvarışla ilə qurtarır. Bu duanı izah edən hekayə belədir.

Bir neçə cavan adam var idi ki, onlar gənc olmalarına baxmayaraq Uca Allaha iman sahibi idilər. Onlar elə bir dövrdə yaşayırdılar ki, İslama arşı müharibə aparırdı və möminləri tanrısız həyat tərzinə məcbur edirdi. Onlar İslamda imanlarını qoruyub saxlaya bilmək üçün evlərindən və şəhərdən qaçıb uzaqlaşmağa məcbur edilənə qədər müqavimət güstərdilər. Onlar tərk edib mağarada (və mağaralar adətən dağlarda yerləşir) sığındılar və sonra kömək, qoruma və yol göstərmə üçün Uca Allaha dua etdilər. Məhz elə bu Dua ilə də ilk on Ayə qurtarır:

*"Xatırla ki, o gənclər mağaraya sığındıqları zaman, "Ey Rəbbimiz! Bizə Öz dərgahından mərhəmət bəxş et və mövcud olduğumuz şərtlər nə olursa olsun bizə doğruluq şüurunu bəxş et!" – demişdilər."*

*(əl-Kəhf surəsi, 18:10)*

Bu Dua elə bir açar olaraq qəbul edilməlidir ki, bununla Müsəlman təhlükə və böyük sınaq anında Dəccaldan qorunmaq üçün İlahi qorumaya nail ola bilsin. Misal üçün, Müsəlman hava yolu ilə səyahət edirsə və o, hava limanına dail olub İslama qarşı düşmən kimi olan və onu narahat etməyə çalışan soyuq bir immiqrasiya məmuruna yaxınlaşdıqda, məhz belə bir vəziyyətdə bu duanı oxumalıdır. Əgər birisinin vaxtı varsa davam edərək əl-Kəhf Surəsinin başlanğıcındakı on Ayənin hamısını oxuya bilər.

Aşağıda Surənin ilk on Ayəsi bizim şərhlərimizlə birlikdə verilmişdir, hansılarla ki, ayələrin yalançı Məsih Dəccal və ya Anti-Xrist ilə əlaqəsini müəyyən etməyə çalışmışıq (Əgər oxucu Bismilləhin Surənin ilk ayəsi olduğu fikrindədirsə, əlbəttə ki, bu növbəti ayə ikinci olacaq):

**Ayə 1**

Həmd olsun O Allaha ki, Kitabı *(Quranı mənasında və sözlərində)* heç bir əyriliyə *(yanlışlığa, təhrifə, ziddiyyətə və s.)* yol vermədən *(və həmçinin yol verməyəcək də)* Öz bəndəsinə *(Muhəmmədə)* nazil etdi!

Ayə Uca Allahın Quranı Qulu Muhəmmədə (sav) göndərməsi səbəbilə Özünü tərif etməsi ilə başlayır. Amma ərəb Muhəmməd (sav) yəhudi deyildi və nəticədə bu İlahi rəftar yəhudiləri məyus edici bir çaşqınlığa məruz qoydu. Quran yəhudiləri Tövratı öz əlləri ilə yenidən yazmaqla təhrif etməkdə günahlandırmışdı:

*"(Özlərinə) zülm edənlər onlara deyilən (İlahi) sözü (yəni Tövratı) başqası ilə dəyişdirdilər. Biz də o zalımlara etdikləri haqsızlığa görə göydən şiddətli əzab göndərdik."*

*(əl-Bəqərə surəsi, 2:59)*

Tövratın mətnini təhrif edənlər bununla Təhrif olunmuş Tövrata görə möminlər üçün yəhudi olmayan Peyğəmbəri qəbul etməyi qeyri-mümkün qıldılar. Hər halda, onlar inanırdılar ki, İsrail qövmü Allahın seçilmiş qövmüdür. Onlar insanlığın mənən seçilmişləri idilər və qismətlərində axır zamanda dünyanı idarə etmək var idi. Yəhudi olmayanların onlarla müqayisədə açıq şəkildə ikinci dərəcəli statusu var idi və bu səbəblə də yəhudilərin qeyri-yəhudi bir şəxsə Allah tərəfindən göndərilmiş vəhyi və ya qeyri-yəhudi Allah Peyğəmbərini qəbul etmələri qeyri-mümkün idi. Xüsusilə də Tövrat ərəbin Peyğəmbər olaraq tanınmasını qeyri-mümkün edirdi, çünki ərəblər İsmailin (as) nəslindən törəmişlər və Tövratda açıq şəkildə təhrif edilərək bəyan edilir ki, Allahın vədi İshaq (as) ilə bağlıdır, İsmail (as) ilə bağlı deyil. Bundan əlavə o (təhrif olunmuş kitab), İsmaili (as) belə bir şəkildə təhqir etmişdir: "o, insanların arasında vəhşi eşşək kimi olacaq – onun əlləri hər kəsin üzərinə və hər kəsin əli onun üzərinə olacaq" (Yaradılış[28], 16:12).

Ərəb şəhəri Mədinədəki Ravvinlərə artıq acı bir şəkildə məlum idi ki, Muhəmməd (sav) – ərəb – həqiqətən Allahın Peyğəmbəridir. Yəhudilər hiddətlənmişdilər ki, Uca Allah son vəhyini göndərmək üçün ərəbi seçmişdir, çünki onu həqiqi Peyğəmbər kimi tanımaqla onlar məcburən qəbul etməli idilər ki, Tövratı təhrif etmişlər. İkinicisi, onların ərəblərdən üstün olamaları barədə irqçi fərziyyələrini dəstəkləyəcək heç bir müqəddəs yazı olmayacaqdı.

Quran yəhudilərin bu məyusluğunu ayırd etmiş və ona cavab vermişdir:

*"Allahın Öz qullarından istədiyi şəxsə (yəni ərəb Muhəmmədə) lütf etməsinə həsəd aparmaq, Onun göndərdiyini (Quranı) inkar etməklə vicdanlarını satmaları nə qədər də pisdir! Bununla onlar Allahın qəzəbi üstünə bir qəzəb də artırdılar. Kafirləri zəliledici əzab gözləyir!"*

*(əl-Bəqərə surəsi, 2:90)*

Beləliklə, məhz ilk başlanğıcdan açıq işarə vardır ki, Surə Muhəmmədi (sav) və Quranı inkar edən yəhudi inkarçılara xitab edir. Və biz, məhz bu xalqın Dəccalın əsas hədəfi olduğunun fərqinə vamalıyıq.

Bu ayə Qurandan əvvəl göndərilmiş müqəddəs kitablarda, xüsusilə də Tövratda edilmiş bütün təhrifatlara diqqəti yönəldir. Beləcə, Dəccalı anlamaqda əsas ipucu və eləcə də onun hədəfləri üzərinə edəcəyi hücumları anlamağın açarı qondarma (uydurulmuş) mətnlərdə və xüsusilə də Tövratda yerləşir. İkincisi, Quran əyrilikdən (təhrifdən) uzaq olduğuna görə – və həmişəlik belə də qalacaq – məhz Quran əvvəlki müqəddəs kitabların (xüsusilə Tövratın) məruz qaldığı təhrifatları ifşa edə bilər. Ona görə də bu çox mühüm əhəmiyyətə malik olan məslədir ki, əvvəlki müqəddəs kitablardaki təhrif olunmaları müəyyən etmək üçün istifadə oluna bilər. Bu, bizim dərin tədqiqat aparmağımı tələb edir, sadəcə Quranı deyil, eləcə də Tövrat kimi əvvəlki, indi isə təhrif olunmuş müqəddəs kitabları.

[28] Bibliyanın Əhdi-ətiq hissəsindəki birinci bölüm

Tövratı tədqiq edib orada insan əliylə edilmiş dəyişiklikləri aşkar eləmədən "Ribanın", içki düşkünlüyünün və narkomaniyanın ümumdünya olaraq geniş yayıldığı dövrü mövcudluğunu izah edə bilmərik. Belə biz içki düşkünlüyü ilə Axır Zaman arasındakı əlaqəni anlaya bilmərik. Nə də biz dünyanın hər tərəfində iqtisadi həyatı nəzarət altına almış "kağız pullu" Riba (haram mübadilə üzərində qurulmuş) iqtisadiyyatının və sələmçi "bank sisteminin" mövcudluğunu anlaya bilmərik.

*Peyğəmbər (sav) dedi: "İslamın düyünləri bir-bir açılacaq, o vaxta qədər ki, onların hər biri açılıb qurtarsın, və açılacaq ilk düyün Allahın Kitabındakı qaydalar, son düyün isə Salət (namaz) olacaq."*

*(Müsnəd Əhməd)*

Qiyamətin yaxınlaşmasının əlamətlərindən biri, Peyğəmbər (sav) tərəfindən xəbər verildiyi kimi Allahın spirtli içki istehlakı ilə bağlı qadağasına məhəl qoyulmayacaq və alkoqol və digər sərxoş edici maddələrin ümumdünya istehlakı genişlənəcək:

*Ənəs dedi ki, o, Allah Rasulunun (sav) belə dediyini eşitmişdir: "Qiyamətin əlamətlərindən biri də bilyin (elmin) ortadan qaldırılması, cəhalətin, zinanın, şərab içmənin geniş yayılması, kişi sayının azalması və qadın sayının çoxalması – elə ki, əlli qadına onlara baxmaq üçün bir kişi düşəcək – olacaqdır."*

*(Səhih Buxari və Muslim)*

İslami ruhani arayış (əl-İhsan və ya Təsəvvüf) içində yaşayanlara tamamilə aydındır ki, biz indi Peyğəmbər (sav) tərəfindən təsvir edilmiş Axır Zamanda yaşayırıq. Misal üçün, Amerikada hər altı evdən biri alkoqolizmə tutulmuşdur və bu say daima artır. Görünür Amerika bu gün nəyi qəbul edirsə insanlığın qalan hissəsi də sabah Amerikanın qəbul etdiyi hər şeyi qəbul edir və bu da Allah tərəfindən İşarədir. Amma insanların çoxu Allahın İşarələrindən xəbərsizdirlər:

*".... Həqiqətən, insanların çoxusu nişanələrimizdən (ayələrimizdən) qafildirlər!"*

*(Yunus surəsi, 10:92)*

Bu içki lənətinin səbəbi Allah tərəfindən göndərilmiş müqəddəs kitabların təhrif edilməsidir. Bu, içki istehlakı və eləcə də Riba ilə bağlı ilahi qadağanı aradan qaldırmaq üçün edilmişdir. Tövratı əl ilə yazıb dəyişdirinlər o qədər pis niyyətli idilər ki, həqiqi Peyğəmbəri sərxoş olmaqda günahlandırırdılar. Guya o, elə içkili vəziyyətdə öz iki qızı ilə yatmış və bir-birinin ardınca hamilə etmişdir. Bu çox həyasız bir yalan idi. Bu, Allahın Peyğəmbəri olan Luta (as) qarşı çox ağır bir həqarət idi və bu Allaha qarşı küfr idi (Tövratda və ya Bibiliyanın Əhdi ətiq hissəsində Yaradılış bölümünə baxın).

Allah bu azğınlığa Lutu (as) ona qarşı deyilmiş bu alçaqlıqdan təmizləməklə cavab vermişdir:

*"Biz Luta da bir hökm və elm verdik, onu (əhalisi) çirkin işlər görən bir məmləkətdən xilas etdik. Həqiqətən, onlar pis, fasiq (pozğun) bir tayfa idilər. Biz onu mərhəmətimizə qovuşdurduq, çünki o, doğrudan da, saleh kimsələrdən idi."*

*(əl-Ənbiyə surəsi, 21:74-75)*

Onlar Uca Allahın Sözünü təhrif edəndə şər toxumunu əkdilər. Allah Dəccalı yaratmaqla və onu dünyaya buraxmaqla İlahi cəza ilə onlara cavab verdi. Dəccal elə bir strategiya hazırlayır ki, bu pis toxumun cücərərək Axır Zamanda böyük fəlakət ağacına çevrilməsi ilə nəticələnir və bunu heç kəs kəsib məhv edə bilməz. Dəccal insanlığı çox əla hiyləgərlik və məharətlə alkoqol və bənzər maddələrin ümumdünya asılılığına doğru aparır. Malkolm X dünyəviləşmiş qərb həyat

tərzindəki bu alkoqolizmi və sərxoş edici maddə asılılığını “toyuqların axşam gecələmək üçün hinlərinə girməyinə” bənzətmişdir.

Biz həmçinin qeyd edirik ki, alkoqol üçün həqiqi olan Riba üçün də həqiqətdir. Allah Ribanın (pulu faiz üzərindən borc almaq və ya vermək) istehlakını haram qılmışdır. Onlar Tövrat təhrif etməklə Allahın Sözünü dəyişdirərək bəyan etdilər ki, möminlər üçün (yəni İsraillilər üçün) öz aralarında bu cür mübadilə haramdır, amma yəhudi olmayanlarla (yəni İsrailli olmayanlarla) belə mübadilə geçərlidir:

“Öz İsrailli həmvətəninə pul və ya taxıl yaxud başqa bir şey borc verəndə üzərinə faiz (Riba) qoymayın. Xaricilərə (yəni qeyr-yəhudilərə) borc verərkən üzərinə faiz (Riba) qoya bilərsiniz. Öz qardaşına ehtiyac duyduğu hər şeyi faizsiz (Riba) borc verin ki, Rəbiniz, sizin Tanrınız sizə mərhəmət etsin”

(Əhdi ətiq, Musanın beşinci kitabı, İkinci qanun, 23:19-20)

Uca Allahın Sözünün dəyişdirilməsi müqəddəs kitabla bağlı bir cinayətdir. Bu Şirkdir və əl-Kəhf Surəsinin əvvəlində istinad edilən “əyriliyin”[29] bir nümunəsidir. Mübarək Peyğəmbər (sav) Ribanın insanlığı amansızcasına ağuşuna alacağı zamanı bildirməklə bu cinayətin nəticələrini xəbərdarlıq etmişdir:

*Əbu Hureyrə rəvayət etmişdir ki, Allahın Rasulu (sav) dedi: “Elə bir zaman gələcək ki, insanlardan Riba yeməyən birisi qalmayacaq, əgər birisi Riba yemirsə, onun buğu (və ya tozu ) ona yetişəcək.”*

*(Əhməd, Əbu Davud, Nəsai, İbn Macə)*

Biz indi müşahidə ilə bağlı nəticəyə gələ bilərik ki, əl-Kəhf Surəsinin ilk ayəsi möminlərə çox önəmli xəbərdarlığı çatdırır. Dəccalın insanlıq üzərinə hücumunun mahiyyəti İlahi vəhy olunmuş müqəddəs kitabların (məs: Tövrat) dəyişdirilmiş və təhrif edilmiş ayələrində yerləşir. Ona görə də möminlər Dəccalın hücumunu ayırd etmək və ona müvafiq cavab vermək üçün o dəyişikliklərin fərqinə varmalı və onları tədqiq etməlidir.

**Ayə 2**

*(Quran və onun qiyamətə qədər doğru və təhrif olunmayan rəhbərliyi ilə təlim olunmağı və yol göstərilməyi inkar edənləri)* Öz dərgahından gələcək şiddətli bir əzabla qorxutmaq, yaxşı əməllər edən möminlərə isə gözəl mükafata nail olacaqları ilə müjdə vermək üçün onu doğru-düzgün *(və aydın)* olaraq endirdi.

Uca Allahın Quranın sadəcə təhrif və ziddiyyətlərdən təmiz olmasını deyil, həmçinin Özünün Quranı (bütün təhriflərdən) qoruycağanı bəyan etməsi faktında insanlıq üçün mühüm və xəbərdar edici işarələr vardır. Zalım insanlar əvvəlki müqəddəs kitabları təhrif etdilər, amma onlar eyni şeyi Qurana edə bilməzlər:

*“Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu (hər cür təhrif və təbdildən; artırıb-əskiltmədən) qoruyub saxlayacağıq!”*

*(əl-Hicr surəsi, 15:9)*

Başqa sözlərlə, Quran Allahın ona inanan yaxud inanmayan qulları üçün ya onların lehinə ya da leyhinə dəlil olaraq vəzifə yerinə yetirəcəkdir. İkincisi, Allah dəhşətli cəza ilə xəbərdarlıq etdiyinə və kimin (necə və ya nə üçün) cəzalandırılacağını dəqiq bildrimədiyinə görə (bu ayədə), bu göstərir ki, yuxarıdakı məsələlərin hamısını Quran izah edəcək. Amma ayə həmçinin iman

[29] əl-Kəhf surəsi, 18:1

sahibi olan (hər şeydən daha çox Qurana) və dürüst davranışı olanlara ümid və mükafat ismarıcı göndərir. Deməli Qurana inam və dürüst davranış (Peyğəmbərin Sünnəsinə izləyərək) Dəccalın fitnəsinə (sınaqlarına) qarşı ən yaxşı cavabdır.

Bu ayənin digər bildirişi odur ki, yalnız Quranın təlimatı ilə gedən möminlər Dəccalın hücumuna dözmə bilmək səadətinə nail olacaqlar. Beləliklə, bu dövrdə möminlərin rəhbərləri Quranın bilikləri ilə lütf edilmiş Allahın dürüst qullarından seçilməlidir. Amma xüsusilə də, belə rəhbərlər Quranın xüsusi təlimatını bu dövrdə tətbiq edə biləcək şəkildə qavramaq və həyata keçirmək qabiliyyətinə sahib olmalıdırlar.

**Ayə 3**

"Onlar orada *(Cənnətdə)* əbədi qalacaqlar!"

İman və saleh əməl sayəsində Dəccalın fitnəsindən xilas olanlar tükənməz mükafata, yəni cənnətə layiq görüləcəklər. İman və saleh əməl həyatı getdikcə Dəccalın ümumiyyətlə din və xüsusilə də İslama qarşı apardığı müharibə ilə hücuma məruz qalacaqdır. Bu, yaşanması çox çətin bir həyat olacaq. Bu çətin vəziyyəti təsvir edən hədislər aşağıdakılardır:

*Əbu Tələbəh əl-Kuşəni rəvayət etmişdir: Əbu Umeyyə əş-Şəbəni dedi: Mən Əbu Tələbəh əl-Kuşənidən soruşdum: "Sənin "özünüzü qoruyun" ayəsi haqqında fikrin nədir?" O dedi: "Allaha and olsun ki, mən bu haqda yaxşı biliyi olandan, Allahın Rasulundan soruşdum". O dedi: "Xeyr, bir-birinizə yaxşı olanı etməyi əmr edin və bir-birinizə pis olanı qadağan edin. Amma xəsislik edildiyini, şəhvətə uyulduğunu, dünya maraqlarına üstünlük verildiyini, hər kəsin öz rəyi ilə məmnun olduğunu gördüyünüz zaman, onda özünüzü qoruyun və insanların ümumilikdə etdiyi şeyləri tərk edin, çünki önünüzdə elə günlər var ki, dözümlülük tələb edir, elə ki, dözümlülük göstərmək közərən kömürü saxlamaq kimi olacaq. Həmin dövrdə saleh əməl edən (dürüst davranan) onun davrandığı kimi davranan əlli adamın savabını qazanacvaq." Başqa bir versiya da var: O, dedi: Dinləyənlər soruşdular: "Ey Allahın Rasulu onların olan əlli adamın savabı?" O, "Sizlərdən əlli nəfərin savabı" deyə cavab verdi."*

*(Tizmizi, İbn Macə, Əbu Davud)*

*Ənəs ibn Malik rəvayət etmişdir ki, Allahın Rasulu (sav) dedi: "Zaman gəlir ki, dininə sadiq qalan adam közərən kömürü əlində saxlayan birisinə bənzəyəcək."*

*(Tizmizi)*

Mübarək Peyğəmbərimiz (sav) Dəccalın hücumlarının Adəmin (as) dövründən Qiyamətə qədər insanlığın görə bildiyi ən böyük fitnə olacağını təsvir etmişdir:

*Əbu Qətadə rəvayət etmişdir: Biz Hişam ibn Amirin qarşısından keçərək İmran ibn Husaynın gedərdik. Bir gün o dedi: "Siz kimlərinsə yanına getmək üçün mənim qarşımdan keçirsiniz, amma (yaşayan insanlar arasında) heç kəs Allah Rasulunun yanında məndən daha çox olmayıb və mən bildiyimdən daha çox hədis bilmir. Mən Peyğəmbərin (sav), "Adəmin yaradılışından Qiyamətə qədər Dəccal kimi (daha fitnəkar) məxluq olmayacaq" dediyini eşitmişəm."*

*(Səhih Müslim)*

Ona görə də İlahi ədalət buyurmuşdur ki, ən böyük mükafatlar ən böyük sınağa qarşı imanını qoruyub saxlamaq üçün möhkəm dözümlülük göstərənlərə təqdir ediləcəkdir.

**Ayə 4-5**

O, həm də *(Quranı)*: “Allah Özünə övlad götürdü!” – deyənləri qorxutmaq üçün nazil etdi. Bu barədə nə onların özlərinin, nə də atalarının heç bir biliyi yoxdur. Onlar çox böyük-böyük *(necə də böyük küfrdür)* danışırlar. Onlar ancaq yalan deyirlər!

Tanınmış müasir Quran şərhçisi Muhəmməd Əsəd (Allah ona rəhmət eləsin) bu ayəni belə şərh etmişdir:

“Klassik şərhçilərin əksəriyyəti və bildiyim qədəriylə bütün erkən Quran tərcüməçiləri “Bihi” əvəzliyini “Allah Özünə övlad götürdü” iddiası ilə bağlayırlar və beləcə oradakı ifadəni “bu barəd onların ... heç bir biliyi yoxdur”, yəni “belə bir şeyin baş verməsi ilə əlaqədar heç bir bilikləri yoxdur” kimi başa düşürlər. Amma belə bir şərh zəifdir, çünki biliyin olmamasının onun aid olduğu şeyi inkar etmək mənasına gəlməsi zəruri deyil. Ona görə bu də aydındır ki, “bihi” əvəzliyi “bu barədə” mənasını vermir, “Onun barəsində” mənasını verir və Onunla bağlıdır. Beləliklə bu ifadə yuxarıdakı mənanı verir – yəni belə cəfəng iddiada olanlar Onun haqqında biliyə sahib deyillər, belə ki, onlar Uca Yaradana yalnız məxluqlara, qeyri-mükəmməl varlıqlara aid olan şeyləri istinad edirlər. Bu şərh birmənalı şəkildə Təbəri və alternativ olaraq Bəidəvi tərəfindən dəstəklənir.” (Əsəd, Müqəddəs Quranın Tərcümə və Şərhi)

Əvvəlki müqəddəs kitablardakı edilmiş bütün təhriflərdən qeyd edilmək üçün seçilmiş əyriliyin biri “Allahın özünə oğul götürməsi” iddiasıdır. Quran Üzeyrin Tanrının oğlu olması ilə bağlı Yəhudi inancından və bənzər şəkildə İsa Məsihi Tanrının oğlu kimi qəbul edən Xristian inancından bəhs edir:

*“Yəhudilər: “Üzeyr Allahın oğludur”, xaçpərəstlər də: “Məsih (İsa) Allahın oğludur”, - dedilər. Onların ağzında gəzən bu (boş) sözlər daha öncə küfr edənlərin (“mələklər Allahın qızlarıdır” - deyənlərin) sözlərinə bənzəyir. Allah onları öldürsün! (Allah onlara lənət eləsin!) Necə də (yalana uyub haqdan) döndərilirlər!”*

*(ət-Tövbə surəsi, 9:30)*

Belə bir iddia Şirkə bərabərdir. Bu , ağır bir günahdır. Həqiqətən də bu yaganə günahdır ki, Uca Allah bunu heç vaxt bağışlamayacağını bəyan etmişdir (yəni bir kəs belə bir günaha görə tövbə etmədən ölərsə). Kəhf Surəsinin əvvəlində Şirkə belə istinad etmə Dəccalın meydana gətirdiyi təhlükəni anlamaq baxımından çox mühümdür, çünki Peyğəmbər (sav) xəbərdarlıq etmişdir ki, onun ümməti şirklə sınağa çəkiləcək və o Şirki ayırd etmək çətin olacaq, “o qədər çətin ki” Peyğəmbər (sav) buyurmuşdur, “qaranlıq gecədə qara daşın üstündə qara qarışqanı seçməyə bənzəyəcək” (Hz.Aişənin rəvayəti Hakimin Müstədrək kitabında qeyd olunmuşdur).

Dəccalın ən böyük silahı onun aldatmaq qabiliyyəti olacaqdır. Bu səbəblə də o, küfrünü (Şirki) elə bir şəkildə gizlədəcək ki, hər kəs üçün onu ayırd etmək çox çətin olacaq. Artıq Dəccalın küfrü artıq çirkin şəkildə dünyada baş qaldırmışdır və bütün insanlıq – Allahın doğru yola yönəldilmiş qulları istisna olmaqla – bu küfrlə (Şirk) tələyə düşürülmüşlər. Məsələn, onlar (dünyəvi və ya sekyular) kostitusiyası aşağıdakı kimi bəyan edən dövlətin seçkilərində iştirak edərkən böyük günaha (Şirkə) yol verirlər (eləcə də mənim öz ölkəm olan Trinidad və Tobaqo dövlətinin konstitusiyası): “Bu Konstitusiya filan dövlətin ən ali qanunudur, bütün digər qanunlar (Qadir Allahın Qanunu daxil olmaqla) buna uyğun olmadıqda qüvvədən düşməkdədrilər.”

Onun özünə oğul götürməsi kimi “Allaha qarşı yalan söyləmək” faktından daha bir işarə budur ki, Dəccal insanlığı şübhə doğurmayan yalanlarla tələyə salacaq. Onun köməkçiləri

“İraqda kütləvi qırğın silahları”, “İranın nüvə təhlükəsi” və “Ərəblərin və Müsəlmanların Amerikadakı 9/11 hücumlarına və sonrakı Londondakı hücumlara görə məsuliyyət daşıması” kimi yalanlar uyduracaqlar. Quran bəyan edir: “Onlar elə güman edirlər ki, Allahı və möminləri aldadırlar. Bilmirlər ki, əslində ancaq özlərini aldadırlar” (əl-Bəqərə surəsi, 2:9). Nəticədə onlar öz yalanlarına inanmağa məhkum olunmuşlar. Ona görə də, bu dövrdə yaşayan Müsəlmanlar “Axır Zamanda böyük yalançılar olacaq, diqqət edin” deyərək xəbərdarlıq edən Peyğəmbərin (sav) sözlərinə diqqət yetirməlidirlər. Ən böyük yalanlar saxtakar Avro-Yəhudi dövləti olan İsrailin dünyada hegemon dövlət olması missiyası uğrunda məharətlə uydurulan yalanlar olacaq.

**Ayə 6**

Yoxsa bu sözə *(Qurana)* inanmasalar, arxalarınca təəssüflənib özünü həlak edəcəksən?!

“Bu retorik sual ilk növbədə onun ismarıcının içlərində ədavət oyatdığı Məkkə müşriklərinə üzülən və onların mənəvi aqibəti ilə bağlı əndişə iztirabı çəkən Peyğəmbərə (sav) ünvanlanmışdır. Ondan əlavə, bu, həmçinin əxlaqi təkilfin həqiqətinə inandıqdan sonra cəmiyyətinin ona göstərdiyi reaksiya ilə özü arasındakı fərqə baxıb dəhşətə gələn hər kəsə aid edilir.” (Əsəd, Müqəddəs Quranın Tərcümə və Şərhi)

Bəşəriyyət üç növ insanlardan təşkil olunmuşdur. Birincilər, Həqiqəti qəbul etmiş və onu təsdiq etmişlər. Sonra onlar ona görə davranmışlar. Onlar möminlərdir və onlara cənnət mükafatı vəd edilmişdir. İkincilər, Həqiqəti qəbul etmiş və onu inkar etmişlər. Sonra onlar inkarın elə bir mərhələsinə gəlmişlər ki, Allah onların qəlblərini Həqiqətə möhürləmişdir. Heç bir öyüd-nəsihət belə insanları nə vaxtsa Həqiqətə qazanmağa nail olmayacaq. Onlar imansızlardır (Küffar). Cənnət onlar üçün Haramdır (qadağan olunmuşdur). Nəhayət, elələri də var ki, ya Həqiqəti qəbul etməmişlər, ya da onu qəbul etmişlər, amma nə təsdiq etmişlər, nə də rədd etmişlər, yaxud onu qəbul etmişlər, amma ona görə davranmamışlar və s. Belə insanları bağışlamaq ya da onları cəzalandırmaq İlahi səlahiyyətdədir.

Bu ayədə Uca Allah mübarək Peyğəmbərə (sav) xatırladır ki, belə insanların qəlbləri möhürlənmişdir və heç bir öyüd-nəsihət onları Həqiqətə gətirməyəcəkdir. Xatırlatma həmçinin Dəccalın dövründə artan sayıda cəhənnəm alovu üçün təqdir edilmiş insanlara şahid olacaq möminlərə də aiddir. Onların İslama qarşı düşmənçiliyini heç bir öyüd-nəsihət dəyişdirməyəcəkdir. Kəhf Surəsi burada Peyğəmbərə (sav) ünvanlanmış bu sual ilə möminlərə nəsihət edir ki, İslamı rədd etməkdə inad edən dünyadan üz döndərsinlər. Bunun əvəzinə onlar öz imanlarının qoruyub saxlanılmasına diqqətlərini cəmləşdirməlidirlər. Bununla bağlı İlahi rəhbərin (yol göstəricinin) çox gözəl sözləri aşağıdakılardır:

*“Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona (səmimi) ibadət edənlərlə birlikdə özünü səbirli apar. Fani dünyanın bər-bəzəyini arzu edib nəzərlərini onlardan çevirmə. Qəlbini Bizi xatırlamaqdan qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və işində ifrata varan bir kimsəyə itaət etmə (yəni onların rəhbərlik və səlahiyyətini qəbul etmə)!”*

*(əl-Kəhf surəsi, 18:28)*

Axır Zamanda İslamı inkar edənlərin sayı daima ratacaq və belə insanlar könülü şəkildə İslama qarşı müharibəyə qoşulacaqlar və ya belə etməyə təhrik ediləcəklər. Müsəlmanlar belə düşməncə mühitin içində yaşamağın təhditlərinin fərqinə varmalıdırlar. Onlar şeytanın yüksək maaşlı odun (cəhənnəm odunu) anbarında işləməkdənsə, öz şəxsi təhlükəsizliklərinin (əlbəttə ki, arvad və uşaqları daxil olmaqla) və imanlarının qorunmasına daha çox diqqət yetirməlidirlər. Onlar bunu ən yaxşı şəkildə Yəcuc və Məcuc dünya nizamından qorunmaq üçün divar tikməklə

Zülqərneyn kimi edə bilərlər. O (görünməz) divar ən yaxı şəkildə ucqar yerlərdə yerləşən Müsəlman kəndləri ətrafında tikilə bilər.

**Ayə 7**

Biz yer üzündə olanları onun üçün bir zinət yaratdıq ki, onlardan *(sakinlərdən)* hansının daha gözəl əməl sahibi olduğunu yoxlayıb ayırd edək.

"Biz yer üzündə olanları onun üçün bir zinət yaratdıq ki, onlardan *(bütün insanlardan)* hansının daha gözəl əməl sahibi olduğunu yoxlayıb ayırd edək" ayəsi onu bildirir ki, Allah onların dünyanın onlara təklif etdiyi dünya malına və maddi mənmənfəətlərə qarşı müvafiq – əxlaqi və qeyri-əxlaqi – davranışlarını ortaya çıxarmalarına icazə verir. Bu abzasın daha sonrakı analizi göstərir ki, insanların Allahın dini ismarıcına inanmamalarının əsas səbəbi demək olar ki, hər zaman dünya malına hədsiz və korcasına bağlanmaq və üstəlik özlərinin şəxsi naliyyətləri hesab etdikləri hesab etdikləri şeylərlə öyünmələri olmuşdur." (Əsəd, Müqəddəs Quranın Tərcümə və Şərhi)

Kəhf Surəsi bu Ayədə möminləri xəbərdarlıq edir ki, Dəccal onları dünya malına sövq etməklə tələ quracaq. Qəlb dünya malına həddən ziyadı bağlandıqda onun üçün Allahın daimi zikrini itirmək çoz asan olacaq. Dəccalın bu sınağından xilas olmaq üçün mömin bu dünyada yaşamalı, amma yenə də bu dünya həyatlarını Allahın zikri ilə davam etdirməlidirlər. Bizim ibadət etdiyimiz Tanrı qəlbdə hakim olmalıdır (uca tutulmalıdır). Möminin Uca Allaha qarşı qəlbi elə bir qəlb olmalıdır ki, Uca Allah orada yüksək tutulur. Əgər Dünya qəlbdə yüksək tutulursa, deməli insan "de facto" Dünyaya sitayiş edir.

Dəccal sadəcə dünya malı ilə möminlərin imanını qırmaq istəmir, eləcə də o, onları son nəticədə inandırmağa çalışır ki, maddi reallıqdan başqa reallıq yoxdur (materializm). Bu proses son nəticədə "de facto" ateizmlə qurtarır. Bu gün dünyanı idarə edənlər getdikcə daha çox ateizmi bağırlarına basırlar. Həqitən də Britaniya əhalisinin getdikcə artan sayısı özlərinin ateist inamlarını ictimai şəkildə bəyan edirlər. Bu Dəccalın müthiş müvəffəqiyyətinin dramatik dəlilini təşkil edir.

**Ayə 8**

*(Bu da bir həqiqətdir ki)* Biz yer üzündə olan hər şeyi *(vaxtı gələndə)* məhv edib qupquru bir torpağa döndərərik.

Hər canlı sudan yaradıldığı kimi, həqiqətən də su həyatın məhvinin səbəbi olacaq? Dəccalın elə bir aldatması olacaq ki, insanlar öz məhviyyətlərinin memarı olacaqlar, belə ki, suyun israfı və həddindən çox istehlakı su qıtlığına gətirib çıxaracaq.

Suyun əhəmiyyəti və onun Axır Zamanda oynayacağı rol mövzusu əl-Kəhf Surəsinin toxunduğu Yəcuc və Məcuc mövzusu ilə yaxından bağlıdır. Bu mövzu İnşə Allah əl-Kəhf Surəsi kitablar kvartetinin dördüncü cildində (yəni "Gog and Magog in the Quran and Hadith"[30]) işləniləcək.

Sonda yer qupquru torpağa çevriləcəkdir. Kəhf Surəsi yenidən və yenidən su mövzusuna qayıdır. Məsələn:

*"Onlara dünyanı misal çək: (Bu dünya) göydən yağdırdığımız yağmura bənzər. Yerdəki bitkilər onunla qarışıb (onu içib) yetişər, sonra (vaxtı gələndə) isə dönüb küləyin sovurduğu quru çör-*

---

[30]Müəllifin ingilis dilində olan "Quran və Hədislərdə Yəcuc və Məcuc" kitabı artıq nəşr olunmuşdur və internet səhifəsində elektron versiyası mövcuddur.

*çöp (həşəm) olar. (Yalnız) Allah hər şeyə qadirdir! Mal-dövlət, oğul-uşaq dünya həyatının bər-bəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında həm savab, həm də ümid etibarilə daha xeyirlidir!"*

*(əl-Kəhf surəsi, 18:45-46)*

Abdullah Yusif Əli əl-Kəhf Surəsinin bu iki Ayəsini çox gözəl bir şəkildə şərh etmişdir:

"Yağış suyu özlüyündə yaxşıdır, amma davamlı sürmür və sən ona tam arxayın ola bilməzsən. O, tezliklə torpaq tərəfindən udulub gedir və müəyyən müddət üçün inkişaf edən ot və bitkilərin yaranmasına səbəb olur. Tezliklə bunlar çürüyür və quru çöplərə çevrilirlər, hansı ki, istənilən tərəfdən əsən yüngül külək onları lazımsız bir şey kimi ətrafa yayacaq. Su və onun müvəqqəti zənginlik görüntüsü gətirdiyi bitkilər də getmişdir. Bu dünya həyatı Axirətə baxan daxili və həqiqi Həyat ilə müqayisədə belədir. Allah yeganə əbədi Qüdrətdir, hər şeydən ucadır.

Qalan hər şey fanidir! Amma Saleh Əməllərin Allah qatında qalıcı dəyəri vardır. Onlar mükafat olaraq iki yolla ən dəyərli qazanırlar:

1. Onlar Allahın Mərhəməti ilə bizdən qaynaqlanırlar (yəni bizim əməllərdirlər) və özlüyündə İmanımızın qarşılığında mükafatdırlar;
2. Onlar bizim Axirətdə ən yüksək mənəvi mükafatlarımız üçün ümidlərin əsasını təşkil edirlər."

("The Holy Qur'an: Text, Translation and Commentary", Abdullah Yusuf Ali, Notes 2386 & 2387 of verses 45 & 46 of Surat al-Kahf)[31]

**Ayə 9-10**

*(Əgər dünya həyatı sınaqdan başqa bir şey deyilsə, həqiqətənmi)* sən mağara əhlinin *(əhvalatının)* və *(onların)* müqəddəs yazılara *(bağlılıqlarının, hansı ki, bəlkə də özləri ilə mağaraya aparmışdılar) (digər)* ayələrimizdən əcaib bir şey olduğunu güman edirsən?
Xatırla ki, o gənclər mağaraya sığındıqları zaman, "Ey Rəbbimiz! Bizə Öz dərgahından mərhəmət bəxş et və mövcud olduğumuz şərtlər nə olursa olsun bizə doğruluq şüurunu bəxş et!" – demişdilər.

İndi isə əl-Kəhf Surəsi bu kitabda ayrıca bir fəsil həsr etdiyimiz mağara əhli əhvalatına qayıdır. Mağara əhvalatı bölümündən olan bu iki Ayənin Surənin ilk on Ayəsi daxilində yerləşməsi faktı bu əhvalatın Dəccalla əlaqəli olmasına işarə edir.

Hətta Bismilləh birinci Ayə olaraq nəzərdə tutulsa belə, yenə də bu əhvalat Surənin onuncu ayəsi olaraq başlayır.

Ona görə də cavanlar və mağara əhvalatını, Dəccalın sınağının öhdəsindən gəlmək üçün möminlərin müvafiq davranışı ilə bağlı mühüm və strateji yol göstərici olaraq qəbul edilməlidir.

[31] "Müqəddəs Quran: Mətn, Tərcümə və Şərhi", Abdullah Əli Yusif, 45-46-cı ayələrin 2386 və 2387 nömrəli qeydləri.

# FƏSİL 10

# ƏL-KƏHF SURƏSİNİN SONU

Mübarək Peyğəmbər (sav) nəsihət etmişdir ki, kim Dəccalla qarşılaşsa onun üzərinə əl-Kəhf Surəsinin ilk on ayəsini oxumalıdır və beləcə o, Dəccalın Fitnəsindən xilas olmuş olar. Madam ki, əl-Kəhf Surəsinin əvvəli bu qədər strateji əhəmiyyətə malikdir, deməli biz o Ayələrin mövzu ilə bağlı daha əlavə işarələrini görə bilmək üçün Surənin sonunu da tədqiq etməliyik. Surənin son Ayələri bunlardır:

**Ayə 100**

O gün *(qloballaşmanın ən zirvə nöqtəsinə çatığı vaxt, insanlar misli görünməmiş münaqişələrə, müharibələrə, qətlin adiləşməsinə, intiharlara və .s şahid olacaqlar)* Biz Cəhənnəmi haqqı inkar edənlərə əyanən göstərərik.

Zülqərneyn birinci Yəcuc və Məcucun qarşısını müvəffəqiyyətlə alan sədd tikdi və beləliklə bu tayfaların orada yaşayan insanları məruz qoyduqları Fəsaddan (dağıntı və təhrifatdan) azad etdi. Amma sonra o xəbərdarlıq etdi ki, Uca Allah bir gün du səddi yerlə bir edəcək və bu baş verəndə Axır Zaman başlayacaq. Ondan sonra dünyada Axır Zamanın on əsas əlaməti baş verəcək ki, onlardan biri də Yəcuc və Məcucun buraxılması idi.

Biz bundan əvvəl artıq qedy etmişdik ki, Yəcuc və Məcuc buraxılanda dünya necə bir hala gələcək, yəni Zülqərneynin dünya nizamının tam əksi olacaq. Güc əsasən tanrısızlıq üzərində dayananda belə bir qüdrət insanlığa zülm vermək üçün istifadə olunacaq, xüsusilə də Uca Allaha iman gətirən və saleh əməli olanlara. Belə bir dünya nizamı səmavi nizamla aghəngdarlıq deyil, daha çox münaqişələrlə nəticələnəcək. Quran Allahın yaradılışını mükəmməl əmin-amanlıq və ahəngdarlıq ilə səciyyələndirərək təsvir edir.

Axır Zamanda mövcud olacaq Yəcuc və Məcuc dünya nizamı isə əksinə, “dalğalar kimi bir-birinə qarışan” anarxiya və xaos ilə səciyyələncək. O zaman Sur çalınacaq (amma yalnız göylərdə olanlar onu eşidəcəklər). Sur çalınanda bu Qiyamət gününün və ya Son Günün başlamsına, eləcə də bütün insanları əsasən tanrısız olan qlobal Yəcuc və Məcuc cəmiyyətinə gətirən İlahi olaraq təqdir edilmiş bir prosesin başlamasına işarə olacaq. Bu qlobal cəmiyyət Yəcuc və Məcucun tam bənzəri olacaq ki, onların da hamısı cəhənnəmlik olacaq. Bu tamamilə həmin məşun prosesdir ki, insanlar onu bu gün “qloballaşma” adlandırırlar! Kəhf Surəsi xəbərdarlıq etmişdir ki, qlobal cəmiyyət ümumdünyə “Küfrü” (imansızlıq) ilə səciyyələnəcək, hansı ki, münaqişələrin, xaosun və anarxiyanın şahidi olacaq və bu sanki Cəhənnəmin əyani olaraq dünya üzərinə sərilməsinə bənzəyəcək.

Yəcuc və Məcuc yer üzərində hər 1000 nəfərdən 999-nu onların tənəzzül etmiş həyat tərzinə sövq edəcək, amma Uca Allahın həqiqi qulları onlara müqavimət göstərəcək. Daha ziyadə onlar Uca Allaha imanlarını qoruyub saxlamaq üçün tərki-dünyalığı seçən mağara əhlinin nümunəsi ilə gedəcəklər.

Möminlər sonunda müasir dünyanın şəhərlərini tərk etməlidirlər və ucqar kənd yerlərindən elə yerləşməlidirlər ki, onların arvadları və uşaqları tanrısız sekyular dünyanın gözləri önünə sərilmiş cəhənnəmi görməsinlər:

*"Xeyr, əgər (qiyamət günü sizə nə ediləcəyini) tam yəqinliklə bilsəydiniz (yəni daxili intuitiv ruhani idraka sahib olsaydınız, fani dünya malına uymazdınız)! Siz o Cəhənnəmi mütləq görəcəksiniz (hansı ki, o zaman kafirlərin gözləri önündə səriləcəkdir)..."*

*(ət-Təkasur surəsi, 102:5-6)*

**Ayə 101**

O kəslər ki, *(indi cəmiyyətin əsas hissəsini təşkil edəcək və cəhənnəm əhlinin həyat tərzini yaşayacaq olanlar)* gözləri Məni anmaqdan qapalı idi və *(həqiqəti)* eşitməyə də qadir deyildilər!

Ayə "o gün kafirlərin gözləri önünə səriləcək olan" cəhənnəm alovu mövzusu ilə bağlıdır və xəbərdarlıq edir ki, cəhənnəm alovu o kəsləri gözləyir ki, onların *gözləri* var idi, amma *görə* bilmirdilər, *qulaqları* var idi, amma *eşidə* bilmirdilər, *qəlbləri* var idi, amma *dərk etmirdilər*. Bunun labüd mənası odur ki, yalnız mənən aydınlanmış olanlar bir gün insan olaraq ortaya çıxacaq Dəccalı tanıya biləcəklər. Yalnız onlar mənşəyi mərkəzi Avropanın Xəzər tayfalarından olan və Muhəmməd Peyğəmbərin (sav) vaxtından qısa zaman sonra İudaizmi (yəhudilik dinini) qəbul etmiş Yəcuc və Məcucu tanıya biləcəklər. Yalnız onlar bu qəddar varlıqkarın İsrail qövmünü aldatmaq və yənudilərin Müqəddəs Torpaqlara yenidən iddia etmələri üçün geri qaytarmaq missiyasını təqib etdikləri olduqca zəruri olan ilahi-proqramlanmış hadisələrn gedişatının fərqinə varacaqlar.

Beləliklə bu, insanları Dəccalı hücumunun reallığını "görə", "eşidə" və belə cə də "dərk edə bilmək" qabiliyyətindən məhrum edəcək və nəticədə onları cəhənnəmə gedən yola aparacaq bir hücum olacaq.

Kitabın əvvəlində izah olunduğu kimi onlar "zahiri görünüşlərlə" aldanacaq və hadisələrin "daxili həqiqətini" anlaya bilmək qabiliyyətindən məhrum qalacaqlar. Mübarək Peyğəmbər (sav) Dəccalın tək gözlə - yalnız sol gözü ilə gördüyünü, onun sağ gözündən kor olduğunu bəyan edərkən bu epistomoloji (zehni) hücum barədə xəbərdarlıq etmişdir. Bizim bu hədis barədə şərhimiz belədir ki, Dəccal "daxilən" kordur və insanlıq üzərinə bu hücum da onları daxilən (mənən) kor etmək məqsədi güdəcək!

Möminlər Dəccalın bu böyük Fitnəsindən  Uca Allaha sığınmalıdırlar. Onlar dua etməlidirlər:

"Allahummə ərini əl-Aşyə'ə kəmə hiyə"
"Allahım, olanları mənə olduğu kimi göstər (yəni elə ki, mən onların həqiqətdə nə olduğundan aldanmayım)!"

**Ayə 102**

Kafirlər *(son vəhy olunmuş ilahi kitab Quranı və Uca Allahın bu son peyğəmbəri Muhəmmədi (sav) inkar edənlər)* Məni qoyub qullarımı *(mələkləri, Üzeyiri, İsanı və başqalarını)* özlərinə dost *(hami)* edəcəklərinimi güman edirlər? Həqiqətən Biz Cəhənnəmi kafirlər *(inanmayanlar və*

*onları Allaha, onun Peyğəmbərinə və möminlərə nəzərən daha üstün tutaraq onlara kömək edənlər)* üçün mənzil hazırlamışıq!

Əgər rəhbərlər Dəccalın ilahi olaraq təqdir olunmuş, sonunda dünyanı Yerusəlimdən idarə etmək missiyasının artıq bitmək üzrə olduğu bir dövrdə yaşadığımızın fərqinə vara bilmirlərsə, onlar Ümmət üçün necə öndər və rəhbər olaraq vəzifələrini yerinə yetirə bilərlər? Sadəcə bəzi istisnaları çıxmaq şərtilə, bunlar elə adamlardır ki, bu gün dünyada Müsəlman cəmiyyətləri və dövlətlərində liderliyə yiyələnmişlər. Onların bəziləri Muhəmməd Peyğəmbərin (sav) Sünnəsi ilə zahiri bənzərliyi və İslama səmimi bağlılığı sərgiləyirlər, amma buna bxmayaraq Dəccalın onlar üçün qurduğu tələlərdən xəbərsizdirlər. Onlar daxili korluq aqibətindən əziyyət çəkirlər, çünki Uca Allahın qullarının qəlbinə elm bəxş edə bilməsi faktını görməzlikdən gəlir və inadla inkar edilər. Onların həqiq ruhani İslam xadimlərinə (yəni İslamın həqiqi Sufi Şeyxlərinə) qarşı ağılsız müharibə aparmaları səbəbilə daxili korluqları, üzərlərinə ilahi cəza gətirmişdir.

Bəzi Müsəlman cəmiyyətləri İslamın düşmənləri ilə daimi və utanc verici əməkdaşlıq edirlər. Onlar Müsəlman cəmiyyətləri üzərində rəhbərliyi düşmənlərin aşıq və ya gizli dəstəyi ilə qəsb edirlər. Bu gün Müsəlman dünyası sürü-sürü qoyunlar kimi canavarların müvəkkili olan çobanlar tərəfindən rəhbərlik edilməkdədirlər, o çobanlar ki, elə canavarlar tərəfindən müdafiə olunmaqda və onlardan də maaş almaqdadırlar. Bu mənim öz Müsəlman cəmiyyətim olan Trinidad və Tobaqoya da aiddir.

Avro-Xristian/Avro-Yəhudi ittifaqı bu gün dünyanı idarə edən Yəcuc və Məcuc nizamının qurulması və möhkəmləndirilməsində əsas intrument olması üçün formalaşdırılır. Quran Müsəlmanlara o ittifaqın dostu və müttəfiqi olmağı açıq şəkildə qadağan etmişdir və bu ittifaqı bağrına basan və ya onun tərəfindən sarılan hər kəsin o Yəcuc və Məcuc ailəsinin üzvü olacağı və cəhənnəmə daxil olacağı ilə xəbərdarlıq edir. (Baxın: Quran, əl-Maidə surəsi, 5:51[32])

Kəhf Surəsi Allahın həqiqi rəhbər olan qullarının kafirlərə müqavimət göstərəcəyi və əsas etibarı ilə tanrısız olan cəmiyyətə heç bir zaman qoşulmayacağını əmin edən bəyanat ilə qurtarır. Onlar indi dünyanı idarə edən Avropa Yəhudi-Xristian ittifaqının dostu və müttəfiqi də olmayacaqlar. Tanrısız dünyaya dostcasına davranmaqdansa Uca Allahın həqiqi qulları Uca Allaha imanda sabit qalmaq üçün o dünya ilə əlaqələrini kəsməklə mübarizə aparacaqlar.

**Ayə 103-104**

De: "Sizə əməlləri baxımından (axirətdə) ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi?" O kəslər ki, onların dünyadakı zəhməti boşa getmişdir (çünki doğru yoldan azdıqlarına görə bütün zəhmət və cəhdlərinin əbəs olduğunun fərqinə varmadan bütün səylərini dünyəvi şeylərə həsr etmişdilər). Halbuki onlar yaxşı işlər gördüklərini (yəni onlar inanırdılar ki, nəaliyyətləri son dərəcə gözəldir və həyatlarında müvəffəqiyyət qazanırlar və bunun müqabilində mükafata nail olacaqlarını) zənn edirdilər.

Tək gözlü müasir qərb sivilizasiya və onun bütün dünya üzrə "çeşidli ev-xidmətçiləri" saxta və tamamilə əsassız iddia irəli sürür. Onlar insanlığı inandırmağa çalışırlar ki, dünya misli görünməmiş texnoloji inkişafa şahid olduğuna görə hər şey yaxşı və daha da yaxşılaşır və nəticə

[32] 64-cü səhifəyə baxın

etibarı ilə bu bütün dünyalardan daha yaxşıdır. Onlar iddia edirlər ki, bu misli görünməmiş "inkişafın" ortaya çıxarılması üçün səbəbkar olan müasir qərb sivilizasiyası İslam da daxil olmaq şərtilə bütün əvvəlki sivilizasiyaları zəif və yararsız qılmışdır! Ona görə də insanlıq bütün köhnə həyat tərzlərini tərk etməli və müasir Avro-Yəhudi/Xristian həyat tərzini tamamilə mənimsəməli və təqlid etməlidir.

ABŞ, Böyük Britaniya, Avropa, Avstraliya, Sinqapur və s. ölkələr yer üzərində cənnət olaraq təsvir və təklif edilməkdədirlər və insanların bütün daxilən kor kütlələri o qədər "beyni yuyulmuşdurlar" ki, onlar o "yer üzərində cənnətə" passport qazanmaq xəyalı ilə yaşayırlar. Bütün dünyada əsas insan kütləsini ovsunlayan o "cənnət" əslində onları cəhənnəm alovuna aparır. Buna baxmayaraq tək gözlü Müsəlman "ev-xidmətçiləri" müasir dünyadan ayrılmağı niyyət edən Müsəlman Kəndlərinin formalaşdırlımasını tənqid edirlər. Bu ev-xidmətçiləri israr edirlər ki, Müsəlmanlar "cəmiyyətin əsas kütləsinin" bir hissəsi olmalıdırlar, hətta bu əsas kütlə tarixin zibil yeşiyinə doğru yön alsa belə!

**Ayə 105**

Onlar o kəslərdir ki, Rəbbinin ayələrini *(hansı ki, Quran onlardan ən sonuncusu və ən mühüm olanıdır) (onlar ya Quranın Allahın vəhyi olduğunu inkar edirlər ya da Quranı qəbul edir, amma onun buyurduğu kimi yaşaya bilmirlər)* və *(qiyamət günü dirilib haqq-hesab üçün)* Onunla qarşılaşacaqlarını inkar etdilər, bununla da onların bütün əməlləri puça çıxdı. Buna görə də Biz *(Qiyamət günü hər kəs, çox önəmli insanlar da daxil olmaqla Haqq-hesab tərəzisinə gətiriləndə)* onlar üçün bir daş-tərəzi qurmayacağıq!

Uca Allah Haqqı ələ verənlərə dəhşətli xəbərdarlıq edir ki, Haqq-hesab günündə hər bir insan haqq-hesab üçün tərəziyə gətiriləndə onlar üçün heç bir tərəzi qurulmayacaqdır. Tərəzisi ağır gələnlər cənnətlə mükafatlanacaq, amma tərəzisi yüngül gələnlər və ya heç bir çəkisi olmayanlar isə cəhənnəm alovu ilə cəzalandırılacaqlar.

**Ayə 106**

Küfr *(haqqı inkar)* etdiklərinə, ayələrimi və peyğəmbərlərimi məsxərəyə qoyduqlarına görə budur onların cəzası – Cəhənnəm!

Axır Zaman İslama qarşı elə bir müharibənin şahidi olacaq ki, həqiqi möminlər məsxərəyə qoyulacaq və təqibə məruz qoyulacaqlar. Amma möminlər Uca Allahın o zalımları cəhənnəm alovuna atmaqla hesablarını verəcəyindən əmin olmaqla rahatlıq tapa bilərlər. Beləliklə Kəhf Surəsi başladığı kimi Uca Allah tərəfindən dəhşətli əzabı xəbərdarlıq etməklə qurtarır.

**Ayə 107**

İman gətirib *(yəni Allaha inam onlarıın qəlblərinə girib və onlar Ondan həqiqətən qorxurlar və Onu həqiqətən sevirlər və bunun nəticəsində Onun bəyənmədiklərindən uzaq durur və Onun sevdiklərini isə sevirlər)* yaxşı işlər görənlərin mənzili isə *(qoy onlar bundan əmin olsunlar ki,)* Firdovs cənnətləri olacaqdır!

Kəhf Surəsi saleh əməl edənlərə güclü ümid ismarıcı verməklə başladığı kimi qurtarır. Çünki əgər onlar ən böyük və ən müsibətli fırtınaya sinə gələ bilərlərsə, onların mükafatı da hər şeydən daha yüksək olacaqdır – *Firdovs Cənnətləri!*

**Ayə 108**

Onlar orada əbədi qalıb oradan ayrılmaq *(başqa yerə getmək)* istəməyəcəklər!

Onların mükafatı sadəcə daimi olmayacaq, həm də elə olacaq ki, onlar tamamilə məmnun qalcaqlar və nəticədə onlar heç bir dəyişiklik istəməyəcəklər.

**Ayə 109**

De: " *(Bu Uca Allahın sözləridir)* Əgər Rəbbimin sözlərini yazmaq üçün dərya mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik, yenə də Rəbbimin sözləri tükənmədən öncə onlar tükənərdi!"

İnsanlar Quranı və Peyğəmbəri inkar edərkən və onlarla məsxərə edərkən, yaxud onların buyurduğu yolu görməzlikdən gələrkən dəhşətli səhvə yol verirlər. Quranın və mübarək Peyğəmbərin (sav) sayəsindədir ki, insanlar birbaş Uca Allahdan gələn biliyi əldə edirlər. Uca Allah tərfindən yaradıldığına görə zahiri dünya biliyi (elmi) də vacibdir. Amma Uca Allahın Öz bəndələri ilə əlaqə yaratdığı daxili (mənəvi, dini) bilik qat-qat daha çox vacibdir. Həmçinin bu tükənməzdir.

**Ayə 110**

De *(yə Peyğəmbər)*: "Mən də sizin kimi ancaq bir insanam *(ilahi varlıq deyiləm, Allahın oğlu deyiləm)*. Mənə vəhy olunur ki, sizin Tanrınız yalnız bir olan Allahdır. Kim Rəbbi ilə qarşılaşacağına *(qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracağına)* ümid bəsləyirsə *(yaxud qiyamətdən qorxursa)*, yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın!"

Surə Uca Allah Özünə "oöul götürdü" deyənlərə sərt xəbərdarlıqla başlamışdı. Bu ifadə belə təsvir olunur: *"kəburat kəlimətən"* (çox dəhşətli bir şey) və *"kəzibə"* (yalan). Surə eyni Şirk mövzusuna qayıtmaqla qurtarır, amma bu dəfə Muhəmməd Peyğəmbərin (sav) ismarıcının belə təhrif olunmayacağını əmin etmək məqsədilə edilir.

Sonuncu Peyğəmbər tərəfindən göndərilən həqiqətin əsil mahiyyəti budur: "sizin Tanrınız yalnız bir olan Allahdır". Ən son sözlərdə əl-Kəhf Surəsi Rəbinin hüzuruna Onu mənun edərək qayıtmağı diləyən şəxsləri iki şeyi etməyə təşviq edir. Birincisi, onlar əməllərində dürüst olmalıdırlar və ikincisi, onlar hər növ Şirkdən uzaq durmaq üçün çox böyük səy göstərməlidirlər.